RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 56 (10076) 4 aprel 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Ölkəmizin öndərliyi ilə TDT qlobal güc mərkəzinə çevrilir

## İlham ƏLİYEV: "Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək"

Dünyanın siyasi böhranla, qarmaqarışıqlıqla çalxalandığı bu mürəkkəb dövrün fonunda türk dünyasının birliyinin vacibliyi qabarıq şəkildə ön plana çıxır. Elə bu mürəkkəb məqamda Azərbaycan türk dünyasının birləşdirici gücü və lokomotivi kimi çıxış edir.

Ölkəmiz türkdilli dövlətlər arasındakı əlaqələrin sarsılmaz olması, bu platformanın, sadəcə, bir əməkdaşlıq formatı deyil, qlobal hadisələrə təsir edən əsas güc mərkəzlərindən birinə çevrilməsi üçün proseslərə öndərlik edir. 2020-ci ildə Qarabağda qazandığı Zəfərlə bölgədə yeni reallıqlar yaradan, Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə türk dünyasının etnosiyasi coğrafiyasını bərpa edən Azərbaycan TDT-nin beynəlxalq nüfuzunun ən yüksək pilləyə qaldırılması üçün əməli işlər reallaşdırır. Yuxarıda adıçəkilən görüş zamanı Prezident İlham Əliyev bu strateji hədəfi belə bəyan edib: "Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

Türk birliyi həm də milli maraqlarımıza yönələn təhdidlərə qarşı ortaq bir qalxandır. Bu birliyin necə sarsıdıcı gücə sahib olmasını Vətən müharibəsi zamanı müşahidə etdik. Həmin zaman türkdilli ölkələrin siyasi, mənəvi dəstəyini hiss etməsi haqq işi uğrunda mübarizə aparan Azərbaycanı istər hərb meydanında, istərsə də diplomatik platformalarda daha da gücləndirdi. Bu parlaq nümunənin özü belə göstərdi ki, baş verən qlobal siyasi böhranların, istənilən kataklizmlərin, milli maraqlarımıza təhdid olan bütün güclərin önünə türkün güclü birliyi ilə çıxmaq bizi məğlubedilməz edir. Hazırda da türk dövlətləri arasında hərbi əməkdaşlıq xüsusilə dünyanın hazırkı qarışıq mənzərəsinin, sərhədlərimizdə baş verən münaqişələrin fonunda ən vacib məsələ kimi qarşıya çıxır.

Azərbaycanın xarici siyasətində bu istiqamət ən ali səviyyədə təsbit olunub. Aprelin 2-də keçirilən görüşdə dövlətimizin başçısı bu məqama xüsusi toxundu: "Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq".

Ölkəmizin rəhbəri əlavə edib ki, dünyada bir çox beynəlxalq təşkilat var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil: "Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir".

5

## TDT-nin Bakı görüşü gələcəyin strategiyasını müəyyən etdi

**Prezident İlham ƏLİYEV:** "Bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır"



İki gün keçirilən tədbir TDT-nin gələcək prioritetlərinin müəyyənləşdirilməsi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və ortaq təşəbbüslərin irəliləməsi baxımından vacib mesajlar verdi. Görüşün nəticələri yalnız təşkilatın birliyi üçün deyil, həm də regionda sülh, sabitlik və inteqrasiya proseslərinə təsir edə biləcək siyasətlərin formalaşması üçün əhəmiyyətli oldu. Bu baxımdan görüşün iqtisadi əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Çünki TDT çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi üzv ölkələr arasında ticarət dövriyyəsinin artırılması, investisiya mühitinin yaxşılaşdırılması və ortaq layihələrin reallaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu mənada Bakı görüşü nəqliyyat-logistika dəhlizlərinin inkişafı, enerji əməkdaşlığının dərinləşdirilməsi və rəqəmsal iqtisadiyyat sahəsində inteqrasiyanın gücləndirilməsinin prioritet olduğunu nümayiş etdirdi. Tədbir Orta dəhlizin inkişafı, regional nəqliyyat marşrutlarının şaxələndirilməsi və ticarət axınlarının genişləndirilməsi fonunda iqtisadi təşəbbüslərin irəli sürülməsinə və üzv dövlətlər arasında koordinasiyanın güclənməsinə mühüm töhfə verdi.

Məhz bu məqamlar Prezident İlham Əliyevin TDT-yə üzv dövlətlərin hökumət başçıları və vitse-prezidentlərini qəbul edərkən səsləndirdiyi fikirlərdə öz əksini tapıb: "Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi (TRIPP), bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib".

5

## Azərbaycanın humanitar diplomatiyası sərhəd tanımır

### Qonşu və uzaq ölkələr Bakıdan edilən yardımları yüksək qiymətləndirirlər





Azərbaycan və İran xalqı əsrlər boyu eyni coğrafiyada, ortaq mədəniyyətə sahib və tarixin bir parçası olaraq yaşayıblar. İranla milli-mənəvi bağlarımız da hər kəsə bəllidir. Cənub qonşumuzda milyonlarla Azərbaycan türkü yaşayır və bu məqam İrana ən çətin dönəmlərdə humanitar yardımı şərtləndirən əsas amillərdən sayılır. Bakı siyasi fikir ayrılıqlarını humanitar böhranlar zamanı arxa plana keçirir və insan həyatının bütün siyasi maraqların fövqündə dayandığını əyani şəkildə göstərir. İranla münasibətlərdə zaman-zaman siyasi konyunktura dəyişsə də, tarixi və milli köklərimizə əsaslanaraq, humanitar yardımı özümüzə mənəvi borc, insani missiya bilmişik. İranın siyasi rəhbərliyinin bunu qiymətləndirərək Azərbaycana təşəkkür etməsi münasibətlərdə yeni etimad mərhələsinin başladığını göstərən mühüm addımdır. Minnətdarlığın ifadə olunması təkcə diplomatik nəzakət yox, eyni zamanda Azərbaycanın regionda oynadığı konstruktiv rolun Tehran tərəfindən rəsmi etirafıdır. Deməli, Azərbaycanın təbii fəlakətlər, iqtisadi-sosial gərginliklər zamanı operativ dəstəyi İranın siyasi elitasında müsbət qarşılanır. Bu fakt Bakının etibarlı qonşu statusunu daha da möhkəmləndirir. Azərbaycan humanist jestləri ilə sübut edir ki, onun regional liderliyi kimisə sıxışdırmağa yox, əksinə, birliyə, sabitliyə, təhlükəsizliyə və inklüziv inkişafa xidmət edir. İranın Azərbaycana ehtiramını bildirməsi kənar güclərə də mesaj xarakterlidir. Bununla bəyan olunur ki, regionun problemləri məhz bölgə ölkələri tərəfindən, qarşılıqlı yardımlaşma ilə həll olunur. Diplomatik yaxınlaşma yaxın gələcəkdə iqtisadi dövriyyənin artmasına, Cənubi Qafqazda daha qalıcı sülh arxitekturasının qurulmasına təkan verəcək.

4



## Aprel döyüşləri Azərbaycanın hərbi gücünün ilkin təsdiqi oldu

Aprel döyüşləri Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı nəticəsində baş verdi. 2016-cı il aprelin əvvəllərində Ermənistanın silahlı qüvvələri ön xətdəki mövqelərimizi və yaşayış məntəqələrimizi intensiv artilleriya atəşinə tutdu. Azərbaycan Ordusu düşmən təxribatına qətiyyətlə cavab verdi və döyüşlərdə böyük qələbə qazandı. Aparılan uğurlu əməliyyatlar Ermənistanın "keçilməz səngərlər" mifini, bu dövlətə rəhbərlik edən quldur rejimin işğalçılıq niyyətini alt-üst etdi. Nəticədə Tərtər rayonunun Talış kəndi yaxınlığındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtərin Madagiz kəndi istiqamətindəki mövqelər azad olundu. Həyata keçirilən əməliyyatlar hərbi baxımdan beynəlxalq aləmdə Azərbaycanın gücünü göstərdi.

Erməni silahlı birləşmələri bu qarşıdurmalar zamanı çox ciddi itkilər verdi. Rəsmi məlumatlara əsasən, dördgünlük döyüşdə 320-dən çox düşmən zərərsizləşdirildi, 500-dən artıq erməni hərbçisi yaralandı. Qarşı tərəfə məxsus 30-a yaxın tank və digər zirehli texnika, eləcə də 25-dən artıq artilleriya sistemi sıradan çıxarıldı. Madagiz qəsəbəsində yerləşən qərargah və əsas hərbi bölmələr məhv edildi. Bundan əlavə, Ağdərə-Madagiz və Cəbrayıl istiqamətlərindəki yollar ordumuzun nəzarətinə keçdi.

7

## Neft qiymətləri öz tarixi rekordunu yeniləyə bilərmi?

Son yarım əsri əhatə edən dövrə nəzər saldıqda vəziyyətdən asılı olaraq, neft bazarında bu tip yuxarı sıçrayışların az olmadığını, ancaq davamında kəskin enişlərlə tamamlandığını görə bilirik. Konkret "Azeri Light" markalı neftə gəldikdə isə hazırda müşahidə olunan 141 dollardan yuxarı qiymət səviyyəsi neft hasil və ixrac edən tərəf kimi ölkəmizin xeyrinə görünsə də, nəzərə almaq lazımdır ki, həcm 10 il əvvəl 40 milyon tonun üzərində idisə, bu gün 30 milyon tondan aşağıdır.

8

## Mina terrorçuluğu bütün bəşəriyyət üçün ağrılı problemdir



Azərbaycan mina təhlükəsindən əziyyət çəkən dövlətlər sırasındadır. Ermənistanın 30 ilə yaxın davam edən işğalı dövründə, eləcə də postmünaqişə mərhələsində ölkəmizin əraziləri minalarla çirkləndirilib. Ermənistan 44 günlük Vətən müharibəsindən sonra da mina terrorunu davam etdirib. Hətta postmünaqişə dövründə Laçın və Kəlbəcər rayonlarında 2021-ci il istehsalı olan minlərlə piyada əleyhinə minanın aşkar olunması bu təhlükənin davam etdiyini təsdiqləyib.

11

# "Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının fəxri konsulu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

3. "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

4. "Azərbaycan Respublikasının fəxri konsulu haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

5. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən"Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə" Azərbaycan Respublikasının Təmsilçilik Ofisinə, bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən"Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi haqqında Əsasnamə" isə Azərbaycan Respublikasının Nümayəndəliyinə də şamil edilir.

6. "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamə barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 21 aprel tarixli 575 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 4, maddə 393) ləğv edilsin.

7. "Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 408 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, №5, maddə 406 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ləğv edilsin.

8. "Azərbaycan Respublikasının beynəlxalq təşkilat yanında Daimi Nümayəndəliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 iyun tarixli 422 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, №6, maddə 499 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ləğv edilsin.

9. "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, №2, maddə 98 (Cild I); 2024, № 4, maddə 395, № 5 (I kitab), maddə 529) ləğv edilsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2026-cı il*

*Fərmanın əlavələri ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Ərazilərin minalardan təmizlənməsi sahəsində fərqlənən şəxslərin "Minatəmizləmə sahəsində xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətində fərqlənən aşağıdakı şəxslər "Minatəmizləmə sahəsində xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Bağırov Ceyhun Əkbər oğlu- polkovnik
Daşdəmirov Mehman Qəhrəman oğlu- istefada olan polkovnik
Məmmədov Süleyman Abdulla oğlu - mayor
Abdulov Səyahət Namik oğlu - kapitan
Salahov Nurlan Bilal oğlu - kapitan
Ağayev Hüseyn Osman oğlu
Cəfərov Vüsal Nurəddin oğlu
Cəlilov Şahin Səhlədar oğlu
Əliyev Rəşad Radin oğlu
Əliyev Fədai Azər oğlu
Hüseynov Azər Fehruz oğlu
Hüseynov Xaliq Araz oğlu
Hüseynov Namiq Əbdülrəhim oğlu
Hüseynov Nizami Rasim oğlu
İsayev Raqif Deputat oğlu (ölümündən sonra)
Qasımov Ruslan Teymur oğlu
Qasım-zadə Orxan Əhməd oğlu
Məmmədov İldırım Məhərrəm oğlu
Məmmədov Kamran Nadir oğlu
Mirzəyev Babək Vəkil oğlu
Namazov Füzuli Hidayət oğlu
Rəhimov Rəhim Naib oğlu
Səfiyev Bəhruz Tofiq oğlu
Süleymanov Həşim Ramiz oğlu
Zülfüqarov Namiq Tofiq oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2026-cı il*

# Yeni tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 81,3 kilometrlik hissəsinin ödənişli avtomobil yolu kimi müəyyən edilməsinə dair tədbirlər haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 91** **Bakı şəhəri, 1 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının 2.3-1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən yeni tikilən 81,7 kilometrlik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 81,3 kilometrlik hissəsi ödənişli avtomobil yolu kimi müəyyən edilsin.

2. Ödənişli avtomobil yolunun başlanğıc və son nöqtələri:

2.1. başlanğıc nöqtəsi: M-6 Hacıqabul-Bəhramtəpə-Mincivan avtomobil yolunun157-ci kilometri;

2.2. son nöqtəsi: Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun (Zəfər yolu)100,5-ci kilometri.

3. Ödənişli avtomobil yolunun başqa avtomobil yolları ilə kəsişmələri və birləşmələri:

3.1. ödənişli avtomobil yolunun 1,4-cükilometri-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu;

3.2. ödənişli avtomobil yolunun 27-ci kilometri- Füzuli Beynəlxalq Hava Limanının giriş yolu;

3.3. ödənişli avtomobil yolunun 32-ci kilometri - Füzuli şəhərinə giriş yolu;

3.4. ödənişli avtomobil yolunun 32-ci, 47-ci və 67,5-ci kilometrlərində-Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu (Zəfər yolu).

4. Ödənişli avtomobil yolunun texniki göstəriciləri:

4.1. uzunluğu - 81,3 kilometr;

4.2. texniki dərəcəsi - I c;

4.3. hərəkət zolaqlarının sayı: 0-46-cı kilometr hissəsində-6, 46-81,7-ci kilometr hissəsində- 4;

4.4. hərəkət zolağının eni -3,5 metr;

4.5. yol çiyninin eni: 0-46-cı kilometr hissəsində- 2,5 metr, 46-81,7-ci kilometr hissəsində-2 metr;

4.6. torpaq yatağının eni: 0-46-cı kilometr hissəsində-29,5 metr, 46-81,7-ci kilometr hissəsində-21,5 metr;

4.7. yol çiyninin bərkidilmiş zolağının eni-0,5 metr;

4.8. ayırıcı zolağın eni - 2 metr.

5. Alternativ ödənişsiz avtomobil yolunun marşrutu, uzunluğu və əsas texniki göstəriciləri:

5.1. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu(Zəfər yolu):

5.2. uzunluğu -101 kilometr;

5.3. texniki dərəcəsi:0-17-ci kilometr hissəsində -III,17-101-ci kilometr hissəsində -II;

5.4.hərəkət zolaqlarının sayı-2;

5.5. hərəkət zolağının eni - 3,5 metr;

5.6. yol çiyninin eni: 0-17-ci kilometr hissəsində - 1,5 metr, 17-101-ci kilometr hissəsində - 2,5 metr;

5.7. torpaq yatağının eni: 0-17-ci kilometr hissəsində -12 metr, 17-101-ci kilometr hissəsində - 14 metr;

5.8. yol çiyninin bərkidilmiş zolağının eni - 0,5 metr.

6. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası ödənişli avtomobil yolu ilə nəqliyyat vasitələrinin gedişi üçün ödənişin məbləğini avtomobil yolunun dərəcəsi nəzərə alınmaqla təsdiq etsin.

7. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisdə Qars Təhsil və Mədəniyyət Vəqfinin nümayəndələri ilə görüş keçirilib



**Aprelin 3-də Milli Məclisdə parlamentin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun ölkəmizdə səfərdə olan Qars Təhsil və Mədəniyyət Vəqfinin nümayəndə heyəti ilə görüşü keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, qonaqları salamlayan Milli Məclisin Səhiyyə komitəsinin sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Əhliman Əmiraslanov iki ölkənin prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etməsindən söz açıb. Komitə sədri Azərbaycan və Türkiyə dostluğunun köklərinə nəzər salıb, Şuşa Bəyannaməsini müttəfiqliyimizin ən yüksək ifadəsi kimi qiymətləndirib.

O, parlamentlərimiz arasındakı əməkdaşlığın iki ölkə arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə, qanunvericilik sahəsində təcrübə mübadiləsinin genişlənməsinə və ortaq təşəbbüslərin irəli sürülməsinə mühüm töhfə verdiyini vurğulayıb. Əhliman Əmiraslanov bu əməkdaşlığın genişləndirilməsi baxımından belə görüşlərin əhəmiyyətini qeyd edərək tərəfdaşlıq imkanlarının dəyərləndirilməsinin, işgüzar dairələr arasında birbaşa əlaqələrin gücləndirilməsinin və birgə layihələrin təşviqinin vacibliyini diqqətə çatdırıb.

Qars Təhsil və Mədəniyyət Vəqfinin İdarə heyətinin sədri Kamil Salduz çıxışında Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O, vəqfin Türkiyədə müxtəlif biznes sahələrində uğur qazanmış azərbaycanəsilli qarslılar tərəfindən təsis edildiyini bildirib, qurumun məqsədləri və gələcək planları barədə məlumat verib. Kamil Salduz iki qardaş ölkə arasında əlaqələrin daha da genişləndirilməsi, birlik və həmrəyliyin möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşüb. O, rəhbərlik etdiyi vəqfin Azərbaycan ilə Türkiyə arasında mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafına töhfə vermək niyyətində olduğunu vurğulayıb.

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimovun, Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlunun, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərovun, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyevin, deputatlar Məlahət İbrahimqızının, Tənzilə Rüstəmxanlının, Cavanşir Paşazadənin iştirak etdikləri görüşdə çıxış edənlər ölkələrimiz arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri barədə fikirlərini bölüşüblər. Qeyd olunub ki, Azərbaycan ilə Türkiyə arasında mövcud olan dostluq və tərəfdaşlıq münasibətləri bütün sahələr üzrə əməkdaşlığın daha da dərinləşməsi üçün möhkəm zəmin yaradır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Hindistan vətəndaşlarının İrandan təxliyəsində dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlıq edilib



**Aprelin 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Hindistanın Xarici İşlər Nazirliyinin Qərb üzrə katibi Sibi Corcun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Hindistan arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və perspektivləri müzakirə olunub, iqtisadi-ticari əlaqələr, enerji, turizm və təhsil sahələrində əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Bununla yanaşı, iki ölkə arasında fikir ayrılığı təşkil edən məsələlər barədə mövqelər diqqətə çatdırılıb, bu istiqamətdə dialoqun əhəmiyyəti vurğulanıb.

Tərəflər regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən Yaxın Şərqdə mövcud gərginlik barədə fikir mübadiləsi aparıblar. Regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasının vacibliyi qeyd edilib. Bununla yanaşı, Hindistan vətəndaşlarının İrandan təxliyəsinə göstərilən dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlıq ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Eyni gündə Azərbaycan və Hindistan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Hindistan tərəfdən isə Xarici İşlər Nazirliyinin Qərb üzrə katibi Sibi Corc rəhbərlik edib.

# Uqanda ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları nəzərdən keçirilir



**Aprelin 3-də xarici işlər naziri Ceyhun Bayramov Uqanda Xarici İşlər Nazirliyinin beynəlxalq məsələlər üzrə dövlət naziri Henri Okello Oryemin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Uqanda arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri geniş şəkildə müzakirə olunub. Diplomatik münasibətlərin qurulduğu son 30 ildə əlaqələrin sürətlə inkişafından məmnunluq ifadə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Uqanda ilə, ümumilikdə Afrika ölkələri ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayaraq, Uqanda ilə əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensialın səmərəli istifadəsinin vacibliyini diqqətə çatdırıb. Bu çərçivədə iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, enerji, turizm və təhsil sahələrində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Uqandada "ASAN xidmət" modeli əsasında fəaliyyət göstərən Dövlət Xidmətləri Mərkəzlərinin açılışı təqdir olunub.

Tərəflər investisiya imkanlarının təşviqi, biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüş zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Bu çərçivədə Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı fəaliyyət, o cümlədən Hərəkatın sədrlik institutu və "troyka" mexanizmi çərçivəsində əməkdaşlığın faydalı olduğu, çoxtərəfli platformalarda qarşılıqlı dəstəyin davam etdirilməsinin önəmi vurğulanıb.

Azərbaycan tərəfindən beynəlxalq təqaüd proqramları çərçivəsində, o cümlədən Qoşulmama Hərəkatına üzv ölkələr üçün nəzərdə tutulmuş proqram çərçivəsində Uqanda tələbələrinin Azərbaycan ali təhsil müəssisələrində təhsil imkanlarından faydalandığı məmnunluqla qeyd olunub.

Regional və beynəlxalq təhlükəsizlik məsələləri, habelə qlobal çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov keçmiş münaqişə, postmünaqişə dövründə regionda mövcud vəziyyət, bərpa və quruculuq işləri, eləcə də sülh gündəliyinin irəlilədilməsi istiqamətində atılan addımlar barədə qarşı tərəfi məlumatlandırıb.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələləri nəzərdən keçiriblər.

Eyni gündə Azərbaycan və Uqanda Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Uqanda tərəfdən isə Xarici İşlər Nazirliyinin Beynəlxalq məsələlər üzrə dövlət naziri Henri Okello Oryem rəhbərlik edib.

# TDT-yə üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü yüksək qiymətləndirilib

**Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifov və Qazaxıstan xarici işlər nazirinin müavini Alibek Bakayev arasında görüş keçirilib.**



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Qeyd edilib ki, görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin gündəliyində olan məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Aprelin 2-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşünün keçirilməsi yüksək qiymətləndirilib. Bununla yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Görüşdə eyni zamanda regional və beynəlxalq gündəliyin aktual məsələlərinə toxunulub.

# DTX-də Azərbaycan təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə tədbir keçirilmişdir

**Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) 28 Mart - Azərbaycan Təhlükəsizlik Orqanları Əməkdaşlarının Peşə Bayramı Günü və bu orqanların yaradılmasının 107-ci ildönümü qeyd olunmuşdur.**



Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatına görə, bu əlamətdar tarixlə əlaqədar DTX-nin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin əməkdaşları Fəxri xiyabanda Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərək, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad etmişlər. Görkəmli oftalmoloq-alim Zərifə Əliyevanın da xatirəsi anılmış, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

Sonra DTX-nin şəxsi heyəti tərəfindən Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin və Azərbaycanın milli qəhrəmanları olan təhlükəsizlik orqanlarının əməkdaşlarının məzarları ziyarət edilmiş, "Əbədi məşəl" abidəsinin qarşısına əklil qoyulmuşdur.

DTX-nin əməkdaşları və veteranlarının iştirakı ilə xidmətin akt zalında keçirilmiş tədbirdə şəhidlərimizin və Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən və Dövlət himni səsləndirildikdən sonra xidmət rəisi Əli Nağıyev çıxış edərək, təhlükəsizlik orqanlarının yaranma tarixi və təşəkkülü prosesindən, Ulu Öndərin həm bu təsisatda rəhbər vəzifələrdə çalışdığı zamanlarda, həm də müstəqillik qazanıldıqdan sonra təhlükəsizlik təşkilatının inkişafı üçün göstərdiyi misilsiz və əvəzsiz xidmətlərdən, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi altında və birbaşa dəstəyilə Azərbaycanın müasir çağırışlara adekvat cavab verə bilən xüsusi xidmət orqanlarının formalaşmasından ətraflı söhbət açmış, təhlükəsizliyin etibarlı təmin olunması üçün bundan sonra da bütün qüvvə və vasitələrin səfərbər olunacağını demişdir.

Dünyanın bir çox yerində hərbi qarşıdurmaların, mürəkkəb geosiyasi vəziyyətin və iqtisadi təlatümlərin mövcudluğunun regionda əməliyyat şəraitinə ciddi təsir etdiyini vurğulayan general-polkovnik Əli Nağıyev ötən dövrdə xarici xüsusi xidmət orqanlarının və digər qüvvələrin ölkəmiz əleyhinə yönələn kəşfiyyat-pozuculuq və terror-təxribat fəaliyyətinin qarşısının alınması istiqamətində DTX-nin gördüyü işlərdən və əldə olunmuş uğurlu nəticələrdən də danışmışdır. Xidmət rəisi həmçinin DTX tərəfindən həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində ötən zaman ərzində qarşısı alınmış dövlətə xəyanət, casusluq, terrorçuluq, terrorçuluğa hazırlıq, terrorçuluğu maliyyələşdirmə, Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qrup yaratma, hakimiyyəti zorla ələ keçirmə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, dövlət və ictimai xadimin həyatına sui-qəsd etmə və sair cinayət faktları barədə geniş məlumat vermişdir.

Daha sonra digər çıxış edənlər bu orqanların keçdiyi tarixi yoldan, Ulu Öndər Heydər Əliyevin xüsusi xidmət orqanlarımızın milliləşdirilməsi yönündə atdığı qətiyyətli və cəsarətli addımlardan, dahi rəhbərin təhlükəsizlik təşkilatındakı fəaliyyəti ilə bu orqanlarda peşəkarlıq məktəbinin əsasının qoyulmasından və bu məktəbin davamçıları olan DTX-nin əməkdaşlarının öz fəaliyyətlərini müasir zamanın tələblərinə uyğun şəkildə qurmasından bəhs etmişlər.

Çıxışlar bitdikdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ali hərbi rütbələrə və yüksək dövlət mükafatlarına layiq görülmüş DTX-nin əməkdaşlarının təltif edilməsi mərasimi keçirilmişdir.

Tədbir DTX-nin və "AnewZ" televiziya kanalının birgə layihəsi olan "Yolun yarısında" sənədli filminin nümayişi ilə başa çatmışdır.

# Qanuna edilmiş dəyişikliklər patentlərə əlçatanlığı daha da asanlaşdıracaq

**"Patent haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə qanun martın 31-dən qüvvəyə minib. Dəyişikliklər nəticəsində qanunun ayrı-ayrı müddəaları arasındakı bəzi uyğunsuzluqlar aradan qaldırılıb. Beynəlxalq təcrübəyə uyğun olaraq "Patent haqqında" qanuna bir sıra yeni anlayışlar daxil edilib. Həmçinin ixtiralara, faydalı modellərə və sənaye nümunələrinə patentlərin alınması prosedurları sadələşdirilib, iddia sənədlərinin ekspertizasının sürətləndirilməsinin təmin edilməsi və keyfiyyətinin artırılması məqsədilə bir sıra yeni müddəalar əlavə edilib.**



Bu barədə AZƏRTAC-a Əqli Mülkiyyət Agentliyindən məlumat verilib.

Qanunvericiliyə dəyişikliklər və əlavələr edilərkən, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) mütəxəssislərinin tövsiyələri də nəzərə alınıb. Nəticədə milli patent qanunvericiliyində beynəlxalq təcrübədə olduğu kimi iddia sənədinin verilmə tarixinin müəyyən edilməsi, iddia sənədi üzrə bilavasitə təmsiletmə, ilkinlik iddiasında düzəlişlər və ya əlavələr, ilkinlik hüququnun bərpa edilməsi, imtina halında iradların təqdim olunması imkanı, müddətlərin uzadılması, müddətin qəsdən buraxılmadığı müəyyən edildikdə hüquqların bərpasına dair normalar təsbit edilib.

"Patent haqqında" qanunda aparılmış dəyişikliklər ixtiralar üçün təxirə salınmış sistem üzrə, faydalı modellər və sənaye nümunələri üçün isə yoxlama sistemi üzrə mahiyyətcə ekspertizaya keçidi təmin edir. Mahiyyətcə ekspertizaya keçid patentə dair məlumatların dərci haqqında qərar əsasında deyil, ümumi qəbul edilmiş standartlara uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin mühafizə sənədinin verilməsi haqqında qərarı əsasında həyata keçiriləcək. İddiaçının vəsatəti əsasında mahiyyətcə ekspertizanın keçirilməsinə dair qanunda yeni müddəanın verilməsi ekspertizanın sürətli aparılmasını təmin edəcək və patentin verilməsi müddəti azalacaq.

Qanuna edilmiş yeni dəyişikliyə uyğun olaraq ixtiraların patentləşdirilməsi üçün xarici iddiaçılar özləri bir sıra prosedurları birbaşa Azərbaycanın Əqli Mülkiyyət Agentliyinə müraciət etməklə həyata keçirə biləcəklər. Lakin əvvəllər Azərbaycan patenti almaq istəyən xarici hüquqi və fiziki şəxslər iddia sənədlərinin verilməsi və patentin alınmasınadək olan mərhələdə bütün hüquqi hərəkətləri, yazışmaları və digər prosedurları yalnız patent müvəkkilləri vasitəsilə həyata keçirməli idi. Bu da əlavə vaxt və vəsait itkisinə səbəb olurdu.

Patent qanunvericiliyinin təkmilləşdirilməsinin patent göstəriciləri üzrə ölkəmizin beynəlxalq reytinqinin artmasına da müsbət təsirinin olacağı gözlənilir.

İndiyədək pərakəndə şəkildə tənzimlənən, bir sıra hallarda isə ümumiyyətlə, tənzimlənməsi böyük problem olan daha aktual bir məsələ də öz həllini tapacaq: işəgötürənin xidməti tapşırığı əsasında ixtira, faydalı model və sənaye nümunəsi yaradan müəllifə ədalətli qonorarın ödənilməsi üçün hüquqi baza formalaşacaq. Yəni ixtiranın müəllifi patentin alınmasına və onun qüvvədə saxlanılmasına görə patentdən gəlirin əldə edildiyi tarixədək işəgötürənin çəkdiyi xərclər çıxıldıqdan sonra qalan vəsaitin azı 50 faizini qonorar kimi ala biləcək.

Qanuna edilən dəyişikliklər ölkəmizin ÜƏMT-nin Patent hüququ Müqaviləsinə və Əqli mülkiyyət, genetik ehtiyatlar və genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklər haqqında müqaviləsinə qoşulması üçün də böyük əhəmiyyət daşıyır. Dəyişikliklər barədə qanunun qəbulu ilə bu sahədə yeni mərhələnin başlandığı xüsusi olaraq vurğulanmalıdır.

# Enerji effektivliyi fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsinə dair müqavilə imzalanıb

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi (EMTA) və Azərbaycan Beynəlxalq Bankı (ABB) arasında müvəkkil kredit təşkilatı vasitəsilə Enerji effektivliyi fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsinə dair əməkdaşlıq müqaviləsi imzalanıb.**

Agentlikdən AZƏRTAC-a bildirilib ki, bu əməkdaşlıq fondun vəsaiti hesabına enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsinin təşviqi məqsədilə güzəştli kreditlərin verilməsinin əsasını qoyur.

Tərəflər fondun vəsaiti hesabına enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsinin təşviqi məqsədilə güzəştli kreditin verilməsi, o cümlədən güzəştli kreditin şərtləri, uçotunun aparılması, təyinatı üzrə istifadəsinin monitorinqinin aparılması qaydası, geri qaytarılması, eləcə də müvəkkil kredit təşkilatının agentlik qarşısında hesabatlılığına dair münasibətlərin tənzimlənməsində razılığa gəliblər.

EMTA-nın İdarə Heyətinin sədri Samir Axundov bildirib ki, güzəştli kreditlər enerji səmərəliliyi layihələrini həyata keçirənlər üçün əlverişli və faydalı dəstək rolunu oynayacaq.

“Vətəndaşlar, eləcə də müəssisələr bu imkanlardan yararlana biləcəklər. Bu addımlar ölkəmizdə enerji effektivliyi sahəsində işlərin davamlı və sistemli şəkildə aparılmasına töhfə verir. Eyni zamanda bu istiqamətdə dövlət siyasətinin real nəticəyə çevrilməsini təmin edir və vətəndaşlar üçün faydalı imkanlar yaradır”,- deyə o qeyd edib.

Enerji effektivliyi fondu Prezident İlham Əliyevin 1 mart 2024-cü il tarixli fərmanı ilə yaradılıb. Fondun vəsaitlərinin idarə olunmasını Enerji Məsələlərini Tənzimləmə Agentliyi həyata keçirir.

# Azərbaycan və Türkiyə arasında konkret cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım məsələlərinə dair fikir mübadiləsi aparılıb

**Azərbaycanın baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan Türkiyənin ədliyyə nazirinin müavini Can Tuncayın rəhbərlik etdiyi heyəti qəbul edib.**




Bu barədə AZƏRTAC-a Baş Prokurorluqdan məlumat verilib.

Baş prokuror bildirib ki, dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın uzaqgörən xarici siyasəti nəticəsində dövlətlərimiz arasında dostluq və qardaşlıq münasibətləri möhkəmlənib və bu, digər sahələrlə yanaşı, ölkələrimizin hüquq sistemləri və hüquqşünasları arasında əməkdaşlığın daha da inkişaf etməsində mühüm rol oynayır.

Bundan başqa, Can Tuncayı ədliyyə nazirinin müavini təyin olunması münasibətilə təbrik edərək, daha öncə qurulmuş səmərəli əməkdaşlığın davam edəcəyinə əminliyini bildirib.

Türkiyənin ədliyyə nazirinin müavini Can Tuncay göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib, ölkələrimizin həm ədliyyə qurumları, həm də prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olmasını vurğulayıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən hüquq və qanunvericilik sistemində həyata keçirilmiş islahatlar barədə fikir mübadiləsi aparılıb, konkret cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya ilə bağlı praktiki məsələlər müzakirə edilib, bir sıra istiqamətlərdə əldə olunmuş müsbət nəticələr qeyd edilib.

# Baş prokuror Tərtər rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Aprelin 3-də baş prokuror Kamran Əliyev Tərtər rayon prokurorluğunun inzibati binasında Tərtər, Ağdam, Bərdə, Goranboy, Naftalan və Yevlax rayonundan olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 40 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Türkiyə və Azərbaycan hərbçiləri sarsılmaz dostluq və qardaşlıq əlaməti olaraq bayraqları dəyişiblər

**Türkiyənin Milli Müdafiə Nazirliyi sosial şəbəkələrdə "Heydər Əliyev-2026" birgə təlimlərində iştirak etmək məqsədilə qardaş ölkəyə yollanan Azərbaycanın Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçularının qarşılanma mərasiminin videogörüntülərini paylaşıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan hərbçilərinin qarşılanma mərasimi Araz çayı üzərində yerləşən körpüdə baş tutub.

Hərbçilər Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlığın sarsılmaz olmasının əlaməti olaraq bayraqları dəyişiblər.

Daha sonra hərbi texnika "Ümid" körpüsü ilə hərəkət edib.




# "Azərkosmos" Kosmik Texnologiyalar Konfransında regional əməkdaşlığını gücləndirir

**Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) Özbəkistanın Daşkənd şəhərində Kosmik Texnologiyalar Konfransında ölkəmizi təmsil edib.**

Bu barədə AZƏRTAC-a "Azərkosmos"dan məlumat verilib.

Bildirilib ki, konfrans çərçivəsində "Azərkosmos"un İdarə Heyətinin sədri vəzifəsini icra edən Dunay Bədirxanov plenar sessiyada çıxış edib.

Çıxışında 2026-cı ilin "Azərkosmos" üçün xüsusi bir il olduğunu və qurumun fəaliyyətinin 15 illik yubileyini qeyd etdiyini bildirib. O həmçinin kosmik texnologiyaların, davamlı inkişaf, iqtisadi artım və beynəlxalq əməkdaşlığın əsas alətlərindən birinə çevrildiyini vurğulayıb.

Dunay Bədirxanov qeyd edib ki, Azərbaycan son illərdə beynəlxalq tərəfdaşlarla həyata keçirdiyi layihələr və təşəbbüslər sayəsində kosmik sahədə mövqeyini gücləndirib.

İnnovasiya istiqamətində ölkədə məktəblilər tərəfindən hazırlanmış ilk peykin orbitə buraxılması xüsusi qeyd olunub. Bununla yanaşı, kənd təsərrüfatı və geoinformasiya sahələrində tətbiq olunan "FarmerApp" və "Platerra" kimi rəqəmsal həllər, eləcə də "Azconnexus" telekommunikasiya xidməti regionda rəqəmsal transformasiyaya töhfə verir.



Davamlılıq sahəsində isə "Azərkosmos"un ətraf mühitin monitorinqi və iqlim dəyişiklikləri ilə mübarizədə peyk texnologiyalarından istifadə etdiyi vurğulanıb. Xəzər dənizində su səviyyəsinin izlənməsi layihəsi bu istiqamətdə nümunə kimi təqdim olunub.

Konfrans çərçivəsində "Azərkosmos" Azərbaycanın kosmik sənayesinə dair brifinq (Country Space Briefing) təşkil edib. Tədbirdə "Azərkosmos"un bu günədək həyata keçirdiyi fəaliyyətlər, əldə etdiyi əsas nailiyyətlər və gələcək planlar iştirakçılara təqdim edilib.

Əlavə olaraq, agentlik Türk Dövlətləri Təşkilatının Kosmik Agentliklərinin rəhbərlərinin 5-ci illik toplantısında da təmsil olunub. Görüşdə çıxış edən Dunay Bədirxanov, türk dövlətləri arasında kosmik sahədə əməkdaşlığın son illərdə əhəmiyyətli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birgə CubeSat layihəsi, peyk məlumatlarının paylaşımı, kənd təsərrüfatı və fövqəladə halların idarə olunması sahələrində həyata keçirilən layihələr regional əməkdaşlığın mühüm istiqamətləri kimi təqdim olunub.

Daha sonra, "Azərkosmos"un Mərkəzi Asiya ölkələrində həyata keçirdiyi Coğrafi İnformasiya Sistemləri (CİS) layihələri, o cümlədən Qırğızıstanda əkin sahələrinin xəritələnməsi təşəbbüsü və telekommunikasiya sahəsində regional tərəfdaşlıqlar diqqətə çatdırılıb. Gələcək əməkdaşlıq üçün əsas prioritetlər kimi insan kapitalının inkişafı, təcrübə mübadiləsi və birgə kosmik standartların formalaşdırılması qeyd olunub.

# "Heydər Əliyev ideyaları müasir Azərbaycanın Zəfər yoludur"

**Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Zəngilan Rayon Təşkilatının birgə təşkilatçılığı ilə rayon təşkilatının təsis edilməsinin 32-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev ideyaları müasir Azərbaycanın Zəfər yoludur" mövzusunda tədbir keçirilib.**



Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov, YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, YAP Mərkəzi Aparatının məsul əməkdaşı Elmar Məmmədov, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və partiya fəalları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Zəngilan şəhər Şəhidlər xiyabanını və müasir müstəqil Azərbaycanın memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra rayon ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin vətənpərvərlik mövzusunda ərsəyə gətirdikləri rəsmlərdən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

YAP Zəngilan Rayon Təşkilatının sədri Natiq Quluzadə geniş məruzə ilə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi arenasında milli maraqların ən sadiq müdafiəçisi missiyasını uğurla yerinə yetirib. Sədr vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbələr partiyanın cəmiyyətdəki monolit birliyini və nüfuzunu daha da möhkəmləndirib. O, rayon təşkilatının gələcək fəaliyyətində gənclərin milli-ideoloji tərbiyəsinin strateji istiqamətlərdən biri olduğunu vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov YAP-ın yaranma tarixini müstəqil dövlətçiliyimizin xilası baxımından mühüm dönüş nöqtəsi kimi səciyyələndirib. Millət vəkili qeyd edib ki, məhz Ulu Öndər Heydər Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində Azərbaycan 1990-cı illərin əvvəllərində yaşanan dərin böhrandan çıxaraq misilsiz tərəqqi yoluna qədəm qoyub. O, işğaldan azad edilmiş Zəngilanda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərini dövlətimizin iqtisadi gücünün və quruculuq siyasətinin real ifadəsi kimi dəyərləndirib.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında partiyanın formalaşmasında ziyalıların və siyasi xadimlərin təşəbbüsü ilə yaradılmış "91-lər" hərəkatının üzvlərinin fədakarlığını xüsusi vurğulayıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası siyasi təşkilat olaraq xalqın sabaha olan inamını təcəssüm etdirir. V.Novruzov bildirib ki, partiyanın tarixi uğurlarının təməlində ideoloji sabitlik dayanır və dövlətçilik təcrübəsinə malik veteranlarla gənc nəsil arasındakı qarşılıqlı əməkdaşlığın davamlılığı xüsusi əhəmiyyət daşıyır.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası cəmiyyətdə etimad və dayanıqlı sabitlik mühiti formalaşdırıb. Qeyd olunub ki, bu etimad hər bir milli hədəfdə özünü doğruldur. Belə ki, partiyanın uğurlu fəaliyyəti siyasi idarəetmə ilə yanaşı, dövlət-vətəndaş münasibətlərinin tənzimlənməsində və milli-mənəvi dəyərlərin qorunmasında həlledici rol oynayır.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva partiyanın xilaskarlıq missiyasından danışaraq bildirib ki, düzgün müəyyən edilmiş strateji hədəflər artıq Azərbaycanı qlobal arenada suveren və güclü mövqeyə malik dövlətə çevirib. O, gənclərin partiyanın ictimai-siyasi həyatında fəallığını yüksək dəyərləndirərək, bu dinamikanın milli-mənəvi dəyərlərin hifz olunmasında əsas hərəkətverici qüvvə olduğunu söyləyib.

YAP Mərkəzi Aparatının məsul əməkdaşı Elmar Məmmədov Yeni Azərbaycan Partiyasının regionun aparıcı siyasi təşkilatı kimi böyük nüfuz qazandığını bildirib. O qeyd edib ki, əldə olunan hər bir uğurun əsasında xalqın öz Liderinə olan sonsuz inamı dayanır. Vurğulanıb ki, YAP Zəngilan Rayon Təşkilatı ideoloji işin təşkilində səmərəli fəaliyyət göstərir.

Partiya veteranı Asif Orucov Yeni Azərbaycan Partiyasının 750 mindən çox üzvünün olduğunu bildirərək, xalqımızın Zəfər tarixində Heydər Əliyev ideyaları əsasında yetişən gənclərin müstəsna rol oynadığını diqqətə çatdırıb. O, xalq-iqtidar-ordu birliyinin dövlətimizin əbədi müstəqilliyinin əsas təminatçısı olduğunu ifadə edib.

Birinci Qarabağ müharibəsi qazisi Zakif Abbasov çıxışında şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından danışıb. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddət ərzində işğal altında qalmış torpaqlarını azad edib.

Daha sonra rayonun ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup şəxsə fəxri fərman və hədiyyələr, YAP sıralarına yeni qəbul olunmuş üzvlərə isə partiya vəsiqələri təqdim edilib. Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Türk dövlətləri arasında strateji əməkdaşlıq yeni mərhələyə qədəm qoyur

**"Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşü iqtisadi və siyasi əməkdaşlığın dərinləşməsi, regional inteqrasiyanın sürətləndirilməsi və ortaq inkişaf strategiyalarının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir".**



Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib.

Komitə sədri qeyd edib ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər, geosiyasi risklərin artması və iqtisadi qeyri-müəyyənliklər dövlətləri daha sıx əməkdaşlığa sövq edir.

"Bu baxımdan türk dövlətləri arasında əlaqələrin möhkəmləndirilməsi yalnız regional deyil, həm də qlobal səviyyədə mühüm əhəmiyyət daşıyır. Ortaq tarixi, mədəni və mənəvi dəyərlər üzərində qurulan bu əməkdaşlıq modeli dayanıqlı və uzunmüddətli tərəfdaşlığın əsasını təşkil edir. Bakı görüşündə iqtisadi əməkdaşlıq məsələləri geniş müzakirə olunub və konkret istiqamətlər üzrə razılaşmaların əldə olunması üçün ciddi zəmin formalaşıb. Qarşılıqlı ticarət dövriyyəsinin artırılması, gömrük və sərhəd prosedurlarının sadələşdirilməsi, vahid rəqəmsal platformaların yaradılması və investisiya layihələrinin təşviqi türk dövlətlərinin iqtisadi potensialının daha effektiv reallaşdırılmasına imkan verəcək", - deyə Arzu Nağıyev vurğulayıb.

Enerji sahəsinə toxunan komitə sədri bildirib ki, türk dövlətləri enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan ölkələr sırasındadır. O vurğulayıb ki, enerji resurslarının şaxələndirilmiş marşrutlarla ixracı, yeni enerji layihələrinin həyata keçirilməsi və bərpaolunan enerji mənbələrinin inkişafı sahəsində əməkdaşlıq qarşılıqlı faydalı nəticələr verir. Xüsusilə "yaşıl enerji"yə keçid istiqamətində birgə təşəbbüslər gələcək inkişafın əsas prioritetlərindən biri kimi çıxış edir.

A.Nağıyev əlavə edib ki, rəqəmsal transformasiya, innovasiya və yüksək texnologiyalar sahəsində əməkdaşlıq türk dövlətlərinin rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Onun sözlərinə görə, startapların dəstəklənməsi, texnoloji bilik və təcrübə mübadiləsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi istiqamətində atılan addımlar regionun inkişafına yeni dinamika qazandıracaq: "Bu cür yüksəksəviyyəli görüşlər üzv dövlətlər arasında siyasi dialoqun daha da gücləndirilməsinə, beynəlxalq təşkilatlarda koordinasiyalı fəaliyyətin təmin olunmasına şərait yaradır. Bu isə türk dövlətlərinin qlobal məsələlərdə daha təsirli və vahid mövqedən çıxış etməsinə imkan verir. Təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Terrorizm, ekstremizm, transmilli cinayətkarlıq, qanunsuz miqrasiya və kibertəhlükələr kimi çağırışlara qarşı birgə mübarizə mexanizmlərinin gücləndirilməsi regionda sabitliyin qorunmasına xidmət edir. Bakı görüşü çərçivəsində bu istiqamətdə aparılan müzakirələr praktiki əməkdaşlığın daha da genişlənməsinə zəmin yaradır. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən beynəlxalq nəqliyyat və enerji layihələri türk dünyasının inteqrasiyasına mühüm töhfə verir və regionun strateji əhəmiyyətini artırır".

Komitə sədri vurğulayıb ki, Bakı görüşünün nəticələri türk dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə, ortaq layihələrin sayının artmasına və institusional mexanizmlərin daha da güclənməsinə səbəb olacaq. Bu isə, öz növbəsində, regionda davamlı inkişafın, iqtisadi rifahın və təhlükəsizliyin təmin olunmasına xidmət edəcək.

# Bakı təkcə görüşün keçirildiyi məkan deyil, həm də qarşılıqlı fəaliyyətin yeni məntiqinin vəhdət nöqtəsi oldu

**"Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü keçirilib. Formal olaraq gündəm iqtisadi kontekstdə olub. Əslində, bu, Avrasiyada yeni bir güc mərkəzinin formalaşması istiqamətində daha bir addım idi. İndi aydındır ki, qlobal nizamın parçalanması kontekstində iqtisadiyyat "texniki" bir sahə olmaqdan çıxıb. O, geosiyasətin əsas alətinə çevrilib. Məhz nəqliyyat dəhlizləri, enerji, investisiya rejimləri və ticarət müqavilələri vasitəsilə yeni təsir arxitekturası qurulur".**

Bu fikri AZƏRTAC-ın müxbiri ilə beynəlxalq münasibətlər və beynəlxalq hüquq üzrə ekspert, Kahramanmaraş Sütçü İmam Universitetinin professoru Toğrul İsmayıl bölüşüb.

Ekspertin fikrincə, Bakı görüşü bu tendensiyaya uyğundur. Bu, türk dövlətlərinin milli iqtisadiyyatlar toplusu kimi deyil, ortaq maraqları olan vahid geoiqtisadi məkan kimi çıxış etməyə başladığını göstərir. Lakin bu prosesi qlobal kontekstdən kənarda başa düşmək olmaz.

"Bir tərəfdən, İran ətrafında gərginlik davam edir. Bu "təxirə salınmış münaqişə" artıq enerji bazarlarına və regional təhlükəsizliyə, o cümlədən Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçən marşrutlara təsir göstərir. Digər tərəfdən, Rusiya-Ukrayna müharibəsinin nəticələri bütün Avrasiya logistika sistemini dəyişdirməyə davam edir. Ənənəvi marşrutların pozulması Orta dəhlizin əhəmiyyətini və beləliklə, türk məkanının strateji dəyərini artırıb. Bu yeni reallıqda türk dövlətləri obyektiv olaraq Şərqlə Qərb arasında bir əlaqəyə çevrilir və buna görə də əvvəllər məhdud olan siyasi bir vasitə əldə edir", - deyə o bildirib.

T. İsmayılın sözlərinə görə, burada çox vaxt qiymətləndirilməyən əsas aspekt - parlamentlərarası əməkdaşlıq rol oynayır. "İqtisadi layihələr inteqrasiya üçün infrastruktur yaratsa da, parlamentlər onun siyasi dayanıqlığını təmin edir. Qanunvericilik uyğunlaşması olmadan nə ortaq bazarın formalaşdırılması, nə uzunmüddətli investisiyaların cəlb edilməsi, nə də rəqəmsal iqtisadiyyatın inkişafı mümkün deyil. Bundan əlavə, parlamentlər ölkələr daxilində inteqrasiya qərarlarını legitimləşdirmək üçün bir alətə çevrilir. Uzunmüddətli perspektivdə TDT-nin daxilində parlament amilinin gücləndirilməsi millətlərarası, yumşaq sektor koordinasiya mexanizmlərinin formalaşmasına gətirib çıxara bilər. Bu, klassik mənada birlik deyil, amma artıq, sadəcə, dialoq platforması da deyil", -deyə agentliyin müsahibi bildirib.

Politoloq potensial qlobal böhranlara hazırlığın bir hissəsi kimi Bakı görüşünün əhəmiyyətini qeyd edib. O vurğulayıb: "Dünya yüksək gərginlik dövrünə qədəm qoyur: enerji riskləri, ərzaq qeyri-sabitliyi, maliyyə dalğalanmaları artır. Belə bir şəraitdə türk dövlətləri arasında koordinasiya seçim deyil, zərurətə çevrilir. Bu, davamlı təchizat zəncirlərinin qurulmasını, marşrutların şaxələndirilməsini, iqtisadi siyasətlərin sinxronlaşdırılmasını və ən əsası, xarici şoklara cavab vermək üçün kollektiv mexanizmlərin hazırlanmasını əhatə edir. Bu mənada, Bakı, sadəcə, görüşün keçirildiyi məkan deyil, həm də yeni qarşılıqlı fəaliyyət məntiqinin vəhdət nöqtəsi oldu".

Toğrul İsmayılın sözlərinə görə, əsas nəticə aydındır: türk dünyası tədricən periferik statusundan çıxır və öz strateji gündəliyini formalaşdırmağa başlayır. "Əgər bu proses ortamüddətli perspektivdə əsasən parlamentlərarası əməkdaşlıq və iqtisadi koordinasiya vasitəsilə institusional dərinləşmə ilə müşayiət olunarsa, Avrasiyada yeni bir güc qütbünün yaranmasının şahidi ola bilərik. İqtisadiyyat burada, sadəcə, bir rıçaqdır. Əsl məzmun siyasət, təhlükəsizlik və regional nizamın gələcəyidir", - deyə ekspert sözlərini yekunlaşdırıb.

# Azərbaycanın humanitar diplomatiyası sərhəd tanımır

## Qonşu və uzaq ölkələr Bakıdan edilən yardımları yüksək qiymətləndirirlər

**Azərbaycanın xarici siyasət strategiyasında dövlətimizin regional liderliyini və mənəvi gücünü təcəssüm etdirən mühüm istiqamətlərdən biri humanitar diplomatiyadır.**

Ən mürəkkəb geosiyasi şəraitlərdə belə qonşu ölkələrə, uzaq coğrafiyalarda yerləşən dövlətlərə dəstək göstərmək, yardım etmək Azərbaycanın dəyişməz dövlət ənənəsi, mehriban qonşuluq və humanizm prinsiplərinin təzahürüdür. Bakının çətin anlarda göstərdiyi çevik reaksiya və təmənnasız dəstək regionda sülhün və etimadın bərpası üçün də əhəmiyyətlidir. Xüsusilə ortaq milli-mənəvi bağlarımızın, dərin tarixi köklərimizin olduğu qonşu İranla münasibətlərdə bu amil özünü daha qabarıq büruzə verir. Rəsmi Bakının humanist yanaşması qarşı tərəfdən yüksək qiymətləndirilir və dövlətlərarası münasibətlərdə yeni, daha səmimi səhifə açır.

Aprelin 2-də İran Prezidenti Məsud Pezeşkianın dövlətimizin başçısı İlham Əliyevə zəng edərək təşəkkürünü bildirməsi Azərbaycanın bu xeyirxahlıq missiyasına ehtiramın nümunəsi kimi dəyərləndirilə bilər. Telefon söhbəti zamanı M.Pezeşkian Azərbaycanın İrana göstərdiyi humanitar yardıma görə Prezident İlham Əliyevə xüsusi minnətdarlığını bildirərək, bu addımın iki xalq arasındakı həmrəyliyin bariz nümunəsi olduğunu vurğulayıb. Dövlətimizin başçısı İrana humanitar dəstəyin davam edəcəyini, yaxın zamanlarda növbəti yardımın göndəriləcəyini qeyd edib. Liderlər regionda sabitliyin və sülhün tezliklə bərqərar olmasının vacibliyini bildiriblər.



2026-cı ilin əvvəlindən bu yana İran Prezidenti ilə Azərbaycanın dövlət başçısı arasında bir neçə dəfə telefon danışığı olub. Yanvarın 31-də Prezident İlham Əliyev iranlı həmkarı ilə telefon əlaqəsi saxlayaraq regiondakı gərginliyi və iqtisadi layihələri müzakirə ediblər. Pezeşkian göstərilən diqqətə və Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğuna görə təşəkkürünü ifadə edib. Martın 8-də isə İran Prezidenti dövlətimizin başçısı İlham Əliyevə zəng edərək təşəkkürünü bildirib. Yəni üç ay ərzində üç dəfə yüksəksəviyyəli birbaşa təmas olub və hər birində İran rəhbərliyi Azərbaycanın humanist addımlarını yüksək qiymətləndirərək minnətdarlığını çatdırıb. Son günlərdə təmasların intensivləşməsi iki qonşu dövlət arasındakı münasibətlərdə humanitar diplomatiya faktorunun ön plana çıxdığını göstərir. Xüsusilə çətin dövrlərdə göstərilən bu cür dəstək regonal təhlükəsizlik və mehriban qonşuluq prinsiplərinin qorunmasına xidmət edir.

Azərbaycan və İran xalqı əsrlər boyu eyni coğrafiyada, ortaq mədəniyyətə sahib və tarixin bir parçası olaraq yaşayıblar. İranla milli-mənəvi bağlarımız da hər kəsə bəllidir. Cənub qonşumuzda milyonlarla Azərbaycan türkü yaşayır və bu məqam İrana ən çətin dönəmlərdə humanitar yardımı şərtləndirən əsas amillərdən sayılır. Bakı siyasi fikir ayrılıqlarını humanitar böhranlar zamanı arxa plana keçirir və insan həyatının bütün siyasi maraqların fövqündə dayandığını əyani şəkildə göstərir. İranla münasibətlərdə zaman-zaman siyasi konyunktura dəyişsə də, tarixi və milli köklərimizə əsaslanaraq, humanitar yardımı özümüzə mənəvi borc, insani missiya bilmişik. İranın siyasi rəhbərliyinin bunu qiymətləndirərək Azərbaycana təşəkkür etməsi münasibətlərdə yeni etimad mərhələsinin başladığını göstərən mühüm addımdır. Minnətdarlığın ifadə olunması təkcə diplomatik nəzakət yox, eyni zamanda Azərbaycanın regionda oynadığı konstruktiv rolun Tehran tərəfindən rəsmi etirafıdır. Deməli, Azərbaycanın təbii fəlakətlər, iqtisadi-sosial gərginliklər zamanı operativ dəstəyi İranın siyasi elitasında müsbət qarşılanır. Bu fakt Bakının etibarlı qonşu statusunu daha da möhkəmləndirir. Azərbaycan humanist jestləri ilə sübut edir ki, onun regional liderliyi kimisə sıxışdırmağa yox, əksinə, birliyə, sabitliyə, təhlükəsizliyə və inklüziv inkişafa xidmət edir. İranın Azərbaycana ehtiramını bildirməsi kənar güclərə də mesaj xarakterlidir. Bununla bəyan olunur ki, regionun problemləri məhz bölgə ölkələri tərəfindən, qarşılıqlı yardımlaşma ilə həll olunur. Diplomatik yaxınlaşma yaxın gələcəkdə iqtisadi dövriyyənin artmasına, Cənubi Qafqazda daha qalıcı sülh arxitekturasının qurulmasına təkan verəcək.

Azərbaycan heç bir qonşusundan humanitar dəstəyini əsirgəməyib. 2023-cü ilin əvvəlində qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı Azərbaycanın dövlət və xalq səviyyəsində göstərdiyi misilsiz həmrəylik və yardımlaşma Bakının regiondakı mənəvi və siyasi çəkisini nümayiş etdirdi. Azərbaycan Gürcüstanda baş verən meşə yanğınları, sel və daşqınlar zamanı texniki və humanitar yardımlar göstərib. Əlbəttə, yardım coğrafiyası təkcə regionla məhdudlaşmır. Pandemiya zamanı Azərbaycan 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərib, Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) ianələr edib, "peyvənd millətçiliyi"nə qarşı qlobal mübarizənin ön sıralarında yer alıb.

Dövlətimiz Beynəlxalq İnkişafa Yardım Agentliyi vasitəsilə Afrika, Asiya və Latın Amerikasının kasıb ölkələrinə tibbi, təhsil və texniki yardımları mütəmadi olaraq həyata keçirir, çətin coğrafiyalarda birbaşa iştirakı ilə seçilir. Yaxın Şərqdəki humanitar böhranlar zamanı göstərilən dəstək, Ukraynaya mütəmadi olaraq enerji avadanlıqları və tibbi ləvazimatların göndərilməsi Azərbaycanın humanist dəyərlərə böyük önəm verməsindən qaynaqlanır. Ukrayna Prezidenti V.Zelenski də dəfələrlə Azərbaycana humanitar yardımlara görə təşəkkürünü bildirib. Mürəkkəb siyasi şəraitlərdə humanitar prinsiplərə sadiqlik Bakıya ən etibarlı tərəfdaş statusunu qazandırır. Azərbaycanın humanitar missiyası ölkəmizin beynəlxalq nüfuzunun artmasına, Qoşulmama Hərəkatında və digər platformalarda liderliyinə xidmət edir. Beynəlxalq qurumların nümayəndələri qlobal tədbirlərdə Azərbaycanın humanitar siyasətini, böhranlı zamanlarda dövlətimizin təmannasız yardımlarını çox yüksək qiymətləndirirlər.

Azərbaycan həyata keçirdiyi genişmiqyaslı humanitar missiya ilə qlobal miqyasda vicdanlı və ədalətli mövqeyini sərgiləyir. Bakıdan uzanan yardım əli həm qonşu ölkələrdə, həm də uzaq qitələrdə dövlətimizin etibarını və mənəvi ucalığını təsdiqləyir. Bu siyasət regionun gələcəyini əməkdaşlıq üzərində qurmaq istəyən hər bir tərəf üçün ən effektiv modeldir. Beləliklə, Azərbaycan hərbi-siyasi və humanitar müstəvidə atdığı addımlarla Cənubi Qafqazın taleyini müəyyənləşdirir, sülhün və tərəqqinin əsas memarı kimi tarix yazmağa davam edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Türk dünyası bizim ailəmizdir, başqa ailəmiz yoxdur



## Ölkəmizin öndərliyi ilə TDT qlobal güc mərkəzinə çevrilir

### **İlham ƏLİYEV:** "Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək"

**Azərbaycan hər zaman türk dünyasının birliyinə çalışıb, bu istiqamətdə tarixi addımlar atıb. 1926-cı ildə I Türkoloji Qurultayın Bakıda təşkil edilməsi, Türk Dövlətləri Təşkilatının (TDT) təməlinin 2009-cu ildə Naxçıvanda qoyulması, 2020-ci il Vətən müharibəsi sayəsində türk dünyasının etnosiyasi coğrafiya cəhətdən birləşdirilməsi bu qəbildən olan mühüm hadisələr silsiləsidir.**

Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına bütün dövrlərdə mühüm töhfələr verib. Müasir zamanda isə TDT-nin məhz ölkəmizin öndərliyi ilə qlobal güc mərkəzinə çevrilməsi danılmaz reallıqdır. Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşünün keçirilməsi bu istiqamətdə atılan növbəti strateji addım oldu. Sözügedən tarixdə Prezident İlham Əliyev görüş iştirakçılarını qəbul edərkən ölkəmizin bu birliyə verdiyi önəmi belə ifadə etdi: "Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".

#### Türk birliyinin lokomotivi

Dünyanın siyasi böhranla, qarmaqarışıqlıqla çalxalandığı bu mürəkkəb dövrün fonunda türk dünyasının birliyinin vacibliyi qabarıq şəkildə ön plana çıxır. Elə bu mürəkkəb məqamda Azərbaycan türk dünyasının birləşdirici gücü və lokomotivi kimi çıxış edir.

Ölkəmiz türkdilli dövlətlər arasındakı əlaqələrin sarsılmaz olması, bu platformanın, sadəcə, bir əməkdaşlıq formatı deyil, qlobal hadisələrə təsir edən əsas güc mərkəzlərindən birinə çevrilməsi üçün proseslərə öndərlik edir. 2020-ci ildə Qarabağda qazandığı Zəfərlə bölgədə yeni reallıqlar yaradan, Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə türk dünyasının etnosiyasi coğrafiyasını bərpa edən Azərbaycan TDT-nin beynəlxalq nüfuzunun ən yüksək pilləyə qaldırılması üçün əməli işlər reallaşdırır. Yuxarıda adıçəkilən görüş zamanı Prezident İlham Əliyev bu strateji hədəfi belə bəyan edib: "Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

Türk birliyi həm də milli maraqlarımıza yönələn təhdidlərə qarşı ortaq bir qalxandır. Bu birliyin necə sarsıdıcı gücə sahib olmasını Vətən müharibəsi zamanı müşahidə etdik. Həmin zaman türkdilli ölkələrin siyasi, mənəvi dəstəyini hiss etməsi haqq işi uğrunda mübarizə aparan Azərbaycanı istər hərb meydanında, istərsə də diplomatik platformalarda daha da gücləndirdi. Bu parlaq nümunənin özü belə göstərdi ki, baş verən qlobal siyasi böhranların, istənilən kataklizmlərin, milli maraqlarımıza təhdid olan bütün güclərin önünə türkün güclü birliyi ilə çıxmaq bizi məğlubedilməz edir. Hazırda da türk dövlətləri arasında hərbi əməkdaşlıq xüsusilə dünyanın hazırkı qarışıq mənzərəsinin, sərhədlərimizdə baş verən münaqişələrin fonunda ən vacib məsələ kimi qarşıya çıxır.

Azərbaycanın xarici siyasətində bu istiqamət ən ali səviyyədə təsbit olunub. Aprelin 2-də keçirilən görüşdə dövlətimizin başçısı bu məqama xüsusi toxundu: "Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq".

Ölkəmizin rəhbəri əlavə edib ki, dünyada bir çox beynəlxalq təşkilat var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil: "Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir".

#### Sülhə yönələn əməkdaşlıq

Azərbaycanın TDT daxilindəki liderliyi həm də real iqtisadi rəqəmlərdə özünü göstərir. Ölkəmizin bir müddət əvvəl təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon dollar məbləğində ianə köçürməsi də bu qəbildəndir. Həmçinin Azərbaycan üzv dövlətlərin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoymaqla bu birliyin maddi təməllərini möhkəmləndirir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpasında qardaş ölkələrin göstərdiyi dəstək türk birliyinin real gücünü nümayiş etdirən qürurverici nümunədir. Artıq Özbəkistan tərəfindən hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi, Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi Füzuli və Ağdam rayonlarında fəaliyyət göstərir.

Türkiyədən olan şirkətlər işğaldan azad edilən ərazilərdə infrastruktur layihələrinin icrasında iştirak edirlər. Həmçinin Xankəndidə Özbəkistanın dəstəyi ilə tikiş fabrikinin fəaliyyətə başlaması burada iş yerlərinin açılmasına böyük dəstəkdir.

Azərbaycan da hər zaman maddi və mənəvi şəkildə qardaş ölkələrə kömək göstərməyə hazırdır. 6 fevral 2023-cü ildə Türkiyədə baş verən və miqyasına görə "əsrin fəlakəti" adlandırılan dəhşətli zəlzələ nəticəsində yerlə-yeksan olmuş Kahramanmaraşda cəmi ikiillik qısa müddət ərzində salınan və möhtəşəmliyi ilə göz oxşayan "Azərbaycan" məhəlləsinin fonunda da bunu görmək mümkündür.

Azərbaycanın maliyyə imkanları hesabına Kahramanmaraşda 100 milyon dollar dəyərində tikilən "Azərbaycan məhəlləsi"nin açılışı Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən edilib.

Prezident İlham Əliyevin görüş zamanı səsləndirdiyi strateji təkliflər göstərir ki, Azərbaycan türk birliyinin sarsılmaz olmasına və bu gücün qlobal miqyasda qəbul edilməsinə xidmət göstərir. Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşünün nəticələrinə dair qəbul edilən Birgə Bəyanat da bu hədəflərin növbəti təsdiqidir.

Türk birliyi həm də dünyada sülhün, həmrəyliyin bərqərar olmasına xidmət edir. Prezident İlham Əliyevin dediyi kimi: "Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## TDT ölkələri metrologiya sahəsində daha sıx əməkdaşlıq edəcək

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin milli metrologiya qurumlarının rəhbərlərinin aprelin 2-də onlayn formatda keçirilən iclasında təşkilatın baş katibinin müavini Merey Mukazhan metrologiya sahəsində həyata keçirilən fəaliyyətlər barədə iştirakçılara məlumat verib.**

AZƏRTAC təşkilatın məlumatına istinadla xəbər verir ki, iclasda üzv dövlətlərin milli metrologiya qurumlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələri iştirak ediblər. Azərbaycan Metrologiya İnstitutunun (AzMİ) baş direktoru Xamis Seyranov, Qırğızıstanın İqtisadiyyat və Ticarət Nazirliyinin Ölçmələrin vahidliyinin təmin edilməsi sektorunun rəhbəri Jıldız Kazakova, Qazaxıstanın Texniki Tənzimləmə və Metrologiya Komitəsinin idarə rəisi Gulnara Yaşkina, Türkiyənin TÜBİTAK Milli Metrologiya İnstitutunun (UME) direktoru Mustafa Çetintaş və Özbəkistan Milli Metrologiya İnstitutunun (UzNIM) direktoru Lazizbek Saidaripov onlayn müzakirələrə qoşulublar.

İştirakçılar cari məsələləri müzakirə edib, aidiyyəti qurumlar arasında koordinasiyanın daha da gücləndirilməsi yollarını dəyərləndiriblər. Müzakirələrin əsas istiqamətlərindən biri də Türk Dövlətləri Metrologiya Təşkilatının (TÜRKMET) yaradılması məsələsi olub.

Bu çərçivədə iştirakçılar korporativ quruluş, fəaliyyətin təşkili ilə bağlı praktiki prosedurlar və TÜRKMET-in effektiv fəaliyyət göstərməsinə yönəlmiş digər məsələlərin də daxil ediləcəyi yol xəritəsi barədə fikir mübadiləsi aparıblar. Həmçinin müxtəlif texniki və inzibati məsələlər müzakirə edilib, təşəbbüslərin sıx koordinasiyasının davam etdirilməsinin vacibliyi vurğulanıb.

## Türk dünyasının geosiyasi özünüdərki və yeni güc mərkəzinə çevrilməsi

**Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü, sadəcə, növbəti diplomatik tədbir deyil, eyni zamanda türk dünyasının strateji düşüncəsinin yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyən mühüm siyasi hadisə kimi tarixə düşdü. Bu görüş mahiyyət etibarilə TDT-nin institusional inkişafında keyfiyyət dəyişiminin baş verdiyini, təşkilatın artıq ideoloji və mədəni platformadan real geosiyasi aktora çevrildiyini növbəti dəfə nümayiş etdirdi.**



Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bu məqamı aydın şəkildə ifadə edərək bildirdi: "Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir". Dövlətimizin başçısı bu fikiri ilə əslində türk birliyinin siyasi strategiyasının fəlsəfi əsasını ortaya qoymuş oldu. Artıq "türk birliyi" anlayışının romantik ideya olmaqdan çıxaraq, konkret siyasi və iqtisadi məzmun kəsb etdiyini desək, mübaliğə etmiş olmarıq.

Bakı görüşünü əvvəlki analoji tədbirlə müqayisədə fərqləndirən əsas xüsusiyyət onun funksional xarakteridir. Əgər Bişkekdə keçirilən birinci görüş daha çox strukturlaşma və koordinasiya mexanizmlərinin yaradılması ilə yadda qaldısa, Bakı görüşü həmin mexanizmlərin işləkliyinin təmin edilməsi, qərarların icraya yönəldilməsi və konkret nəticələrin əldə olunması baxımından dönüş nöqtəsi oldu. Bu, təşkilatın "niyyət mərhələsi"ndən "icra mərhələsi"nə keçidinin bariz göstəricisi idi.

Müasir beynəlxalq münasibətlər sistemində baş verən kəskin transformasiyalar bu prosesi sürətləndirən əsas amillərdəndir. Regional münaqişələrin genişlənməsi, enerji və nəqliyyat təhlükəsizliyi məsələlərinin aktuallaşması, qlobal ticarət marşrutlarının yenidən formalaşması türk dövlətlərini daha sıx koordinasiyaya məcbur edir. Bu kontekstdə Bakı görüşü yalnız daxili əməkdaşlıq platforması deyil, həm də dəyişən dünya düzəninə kollektiv cavab mexanizmi kimi çıxış etdi.

Prezident İlham Əliyevin digər mühüm mesajı da bu istiqamətdə idi: "Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir". Dövlətimizin başçısının bu sözləri bir daha təsdiq edir ki, TDT artıq regional çərçivəni aşaraq qlobal siyasi sistemdə nəzərə alınmalı aktora çevrilməkdədir. Əsas məsələ isə bu potensialın koordinasiyalı və davamlı şəkildə reallaşdırılmasıdır.

Bakı görüşündə xüsusi diqqətçəkən istiqamətlərdən biri Orta dəhliz - Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı oldu. İlham Əliyev bu barədə qeyd etmişdir: "Ölkələrimizdən keçən Orta dəhliz hər birimizin marağına cavab verir". Bu yanaşma göstərir ki, iqtisadi inteqrasiya artıq siyasi inteqrasiyanın aparıcı qüvvəsinə çevrilir. Tarixi təcrübə də sübut edir ki, məhz nəqliyyat və ticarət əlaqələri dərinləşdikcə siyasi yaxınlaşma qaçılmaz olur.

Bu sahədə Azərbaycanın xüsusi rol oynadığı inkarolunmazdır. Birmənalı şəkildə deyə bilərik ki, Bakı yalnız coğrafi deyil, həm də strateji baxış və təşəbbüslər baxımından türk dünyasının mərkəzi qovşağına çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı, genişləndirilmiş nəqliyyat infrastrukturu və enerji layihələri Azərbaycanın regionda "əlaqələndirici dövlət" statusunu möhkəmləndirir. Bu reallıq Bakı görüşünün məhz Azərbaycanda keçirilməsinin təsadüfi olmadığını göstərir.

Digər mühüm məqam isə təhlükəsizlik məsələlərinin gündəlikdə artan çəkisidir. Rəsmi bəyanatlar və çıxışlardan açıq şəkildə görünür ki, artıq TDT çərçivəsində yalnız iqtisadi deyil, siyasi və təhlükəsizlik koordinasiyası da prioritetə çevrilir. Hərbi ittifaq modelindən söhbət getməsə də, ortaq mövqe, operativ məsləhətləşmə və risklərə birgə reaksiya mexanizmlərinin formalaşması istiqamətində ciddi irəliləyiş müşahidə olunur.

Bununla yanaşı, Bakı görüşündə qəbul olunan Birgə Bəyanatla adıçəkilən təşkilat gələcək inkişaf trayektoriyasını da müəyyənləşdirmiş oldu: sənaye əməkdaşlığı, rəqəmsal transformasiya, süni intellekt, "yaşıl enerji", kənd təsərrüfatı və enerji təhlükəsizliyi kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi TDT-nin yalnız siyasi deyil, həm də kompleks iqtisadi platformaya çevrilmək niyyətini göstərir. Bu isə təşkilatın dayanıqlı inkişaf modelinə keçidini təsdiq edən ciddi amildir.

Prezident İlham Əliyevin vurğuladığı digər mühüm məqam - qarşılıqlı dəstək prinsipi təşkilatın daxili dayanıqlığını təmin edən əsas sütunlardan biridir: "Biz də öz növbəmizdə hər zaman lazım olan dəstəyi göstərməyə hazırıq və bunu edirik". Bu yanaşma TDT-ni formal qurumdan real həmrəylik platformasına çevirən əsas amil olduğunu təsdiq edir.

Nəticə etibarilə Bakı görüşü Türk Dövlətləri Təşkilatının tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Bu mərhələ ideyaların, bəyanatların deyil, artıq konkret layihələrin, real nəticələrin həyata keçirildiyi dövrün başlanğıcından xəbər verir. Türk dünyası tədricən vahid geosiyasi və geoiqtisadi məkan kimi formalaşır və Bakı bu prosesin intellektual və strateji mərkəzinə çevrilir.

Bu gün verilən qərarlar və ortaya qoyulan siyasi iradə göstərir ki, TDT gələcəkdə yalnız regional deyil, qlobal miqyasda təsir gücünə malik aktora çevrilə bilər. Əsas məsələ bu potensialın nə dərəcədə ardıcıl, koordinasiyalı və uzaqgörən siyasətlə idarə olunacağından ibarətdir. Bakı görüşü bu yolun artıq seçildiyini və geridönüşün olmadığını açıq şəkildə nümayiş etdirdi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## TDT-nin Bakı görüşü gələcəyin strategiyasını müəyyən etdi

### **Prezident İlham ƏLİYEV:** "Bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır"

**Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşünü regional diplomatiyada yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirmək olar. Görüş üzv dövlətlər arasında iqtisadi, siyasi və mədəni əməkdaşlığın gücləndirilməsinə imkan yaratmaqla yanaşı, Azərbaycanın təşkilatdakı strateji rolunu möhkəmləndirdi.**

İki gün keçirilən tədbir TDT-nin gələcək prioritetlərinin müəyyənləşdirilməsi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və ortaq təşəbbüslərin irəliləməsi baxımından vacib mesajlar verdi. Görüşün nəticələri yalnız təşkilatın birliyi üçün deyil, həm də regionda sülh, sabitlik və inteqrasiya proseslərinə təsir edə biləcək siyasətlərin formalaşması üçün əhəmiyyətli oldu. Bu baxımdan görüşün iqtisadi əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Çünki TDT çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi üzv ölkələr arasında ticarət dövriyyəsinin artırılması, investisiya mühitinin yaxşılaşdırılması və ortaq layihələrin reallaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu mənada Bakı görüşü nəqliyyat-logistika dəhlizlərinin inkişafı, enerji əməkdaşlığının dərinləşdirilməsi və rəqəmsal iqtisadiyyat sahəsində inteqrasiyanın gücləndirilməsinin prioritet olduğunu nümayiş etdirdi. Tədbir Orta dəhlizin inkişafı, regional nəqliyyat marşrutlarının şaxələndirilməsi və ticarət axınlarının genişləndirilməsi fonunda iqtisadi təşəbbüslərin irəli sürülməsinə və üzv dövlətlər arasında koordinasiyanın güclənməsinə mühüm töhfə verdi.

Məhz bu məqamlar Prezident İlham Əliyevin TDT-yə üzv dövlətlərin hökumət başçıları və vitse-prezidentlərini qəbul edərkən səsləndirdiyi fikirlərdə öz əksini tapıb: "Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi (TRIPP), bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib".

Qeyd edək ki, bu cür yüksəksəviyyəli təmaslar üzv dövlətlər arasında qərarların daha operativ şəkildə razılaşdırılmasına, ortaq siyasətlərin formalaşmasına və uzunmüddətli strateji hədəflərin müəyyənləşdirilməsinə imkan yaradır. Görüş TDT çərçivəsində çoxtərəfli əməkdaşlığın daha funksional və effektiv hala gətirilməsi istiqamətində atılan addımların davamı kimi qiymətləndirilə bilər. Bu, təbii ki, təşkilatın beynəlxalq arenada nüfuzunun artmasına və qlobal proseslərdə daha fəal iştirakına şərait yaradır.

Məhz bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin məlum görüşdə səsləndirdiyi fikirlər TDT-nin prioritetləri və gələcək istiqamətləri barədə açıq mesajlar verir: "Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

Azərbaycan üçün isə belə tədbirlərin paytaxtımızda keçirilməsi ölkənin diplomatik platforma kimi rolunu gücləndirir, onu regionda dialoq və əməkdaşlığın əsas mərkəzlərindən birinə çevirir. Bu amil həm siyasi, həm də iqtisadi baxımdan ölkənin mövqelərinin möhkəmlənməsinə xidmət etməklə yanaşı, bir neçə mühüm istiqamət üzrə strateji nəticələr doğurur. Bakı platforması vasitəsilə ölkəmiz yalnız coğrafi deyil, həm də siyasi və iqtisadi baxımdan türk dünyasının əsas əlaqələndirici mərkəzlərindən biri kimi mövqeyini möhkəmləndirir.

Onu xüsusi qeyd etməliyik ki, bu cür yüksəksəviyyəli görüşlərin Bakıda keçirilməsi türk dünyasının birliyi ideyasının praktik müstəvidə daha da gücləndiyini nümayiş etdirir. Üzv dövlətlər arasında qarşılıqlı etimadın artması, ortaq maraqların daha aydın ifadə olunması və koordinasiyalı siyasətin formalaşması TDT-nin sözdə deyil, real əməkdaşlıq müstəvisində inkişaf etdiyini göstərir. Bununla yanaşı, Bakı görüşü TDT-nin gələcək perspektivləri baxımından da mühüm mesajlar verdi. Görüş türk dünyasına və digər beynəlxlq qurumlara diktə etdi ki, təşkilat, sadəcə, mədəni və siyasi platforma deyil, o, getdikcə iqtisadi və geostrateji fəaliyyət sahəsi kimi də formalaşır. Bu da təbii ki, TDT-nin uzunmüddətli perspektivdə regionda və ondan kənarda təsir imkanlarının genişlənəcəyindən xəbər verir.

Göründüyü kimi, TDT-yə üzv dövlətlərin hökumət başçıları və vitse-prezidentlərinin Bakıdakı ikinci görüşü təşkilat üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan önəmli bir mərhələ kimi mühüm əhəmiyyət kəsb edir. Görüş türk dünyasında birliyin və strateji həmrəyliyin vacibliyini bir daha nümayiş etdirdi, eləcə də TDT-yə üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi və gələcək əməkdaşlıq üçün dayanıqlı zəmin yaratmaq baxımından da önəmli rol oynadı.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Türk dünyası bizim ailəmizdir, başqa ailəmiz yoxdur

**Son dövlər dünyada baş verən siyasi qarşıdurmalar və müharibələr göstərdi ki, hər bir dövlətin etibarlı müttəfiqinin olması mühüm əhəmiyyət daşıyır. Biz buna 44 günlük Vətən müharibəsində də şahid olduq. Türkiyə və digər türk dövlətləri siyasi cəhətdən Azərbaycanı sona qədər müdafiə etdilər.**



## Türk Dövlətləri Təşkilatı sağlam təməl üzərində qurulur

Hazırda Türk Dövlətləri Təşkilatı (TDT) özünün formalaşma dövrünü yaşayır. Bu məqsədlə təşkilata üzv ölkələrin dövlət başçıları səviyyəsində vaxtaşırı Zirvə görüşləri keçirilir. Eyni zamanda təşkilata daxil olan ölkələr arasında iqtisadi inteqrasiyanı dərinləşdirmək üçün müxtəlif dövlət və qeyri-dövlət qurumları arasında müxtəlif məzmunlu görüşlər təşkil olunur. Aprelin əvvəlində Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsi də bu sıradan idi.

Bu görüş o vaxt baş tutdu ki, sürətlə yeni dünya düzəni formalaşır - bir çox ittifaq dağılır, yeniləri yaranır. Bununla yanaşı, bir çox dövlətin yeni ittifaqların, müttəfiqlərin axtarışında olduğunu görürük. İş o yerə çatıb ki, dünyanın ən qüdrətli siyasi və hərbi bloku olan NATO-nun dağılması açıq şəkildə müzakirə edilir, ABŞ Prezidenti Donald Tramp təşkilatdan çıxmaqla müttəfiqlərini hədələyir, Emmanuel Makron isə alyansın beyin ölümü keçirdiyini söyləyir. Avropa İttifaqı dövlətləri arasında da ciddi siyasi, iqtisadi və hərbi fikir ayrılıqları var.

Dünya düzəninin yenidən formalaşdığı belə bir dövrdə türk dövlətlərinin ortaq maraqları qoruyan bir təşkilatda olması zərurəti yaranıb. Bu təşkilat isə TDT-dir. Prezident İlham Əliyev tədbir iştirakçılarını qəbul edərkən bu barədə demişdir: "Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq".

Dövlətimizin başçısı təşkilatın təməlinin sağlam olmasına işarə edərək bildirdi ki, dünyada eyni etnik köklərə sahib olan təşkilatlar çox deyil. Yəni bu təşkilatda birləşən dövlətləri təkcə siyasi və iqtisadi maraqlar birləşdirmir, bu, həmin qardaş xalqların birliyidir. Prezident İlham Əliyevin bunu ən önəmli faktor kimi vurğulaması təsadüfi deyil. Yəni bu qəbildən olmayan dövlətlərin siyasi-iqtisadi maraqları daimi deyil, dəyişkəndir, qardaşlıq isə əbədidir.

Hər bir regional təşkilatın qurulması, nüfuz qazanması üçün bir sıra şərtlər lazımdır. Bunlardan birincisi, iqtisadi potensialdır. Türk Dövlətləri Təşkilatında yer alan ölkələr zəngin təbii resurslara sahibdir. Dünyanın neft, qaz, uran və qızıl ehtiyatlarının böyük bir hissəsi təşkilata üzv olan dövlətlərə məxsusdur. Bununla yanaşı, müasir dünyada qlobal əhəmiyyət daşıyan beynəlxalq ticarət marşrutlarından biri olan Orta dəhliz də türk dövlətlərinin ərazisindən keçir. Bu dəhliz hazırda dünya miqyasında iqtisadi cəhətdən ən sərfəli, üstəlik, ən təhlükəsiz qlobal ticarət marşrutudur və o üzdən dünya Orta dəhlizə ümid yeri kimi baxır.

Azərbaycan isə bu dəhlizdə ən vacib ölkə sayılır. Biz Trans-Xəzər, Zəngəzur dəhlizlərində, eləcə də "Şimal-Cənub" marşrutunda qovşaq ölkə olmaqla yanaşı, mükəmməl infrastruktura malikik. Qlobal ticarət zəncirinin və ticarətin fasiləsiz işləməsi türk dövləti və Azərbaycandan asılıdır. Bu səbəbdən beynəlxalq səviyyədə türk dövlətlərinə olan siyasi maraq artıb. İndi dünyanın aparıcı dövlətləri olan ABŞ, Çin, Rusiya və Avropa İttifaqı türk dövlətləri ilə bərabərhüquqlu əməkdaşlığa can atır. Düzdür, TDT adlı yeni siyasi-iqtisadi güc mərkəzinin yaranmasına qısqanclıqla yanaşan ölkələr də var, ancaq bu, heç nəyi dəyişmir. Çünki artıq Türk Dövlətləri Təşkilatı qarşısıalınmaz bir gücə çevrilib, bunu istəməyən dövlətlər də real vəziyyətlə barışmağa məhkumdurlar.

Türk Dövlətləri Təşkilatının dünyadakı enerji imkanları məlumdur. Eyni zamanda münbit torpaqları, əlverişli iqlimi gələcəkdə dünyanın ərzaqla təminatında önəmli rol oynamasını təmin edəcək. Yaxın gələcəkdə isə kənd təsərrüfatı məhsullarının strateji məhsula çevriləcəyi qaçılmazdır.

Prezident İlham Əliyevlə görüşdə Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazın dediyi kimi, Türk Dövlətləri Təşkilatı çox qısa müddətdə böyük yol qət etdi. Bunun başlıca səbəbi digər ittifaqlardan fərqli olaraq, heç bir dövlətin özünə müstəsna üstünlük istəməməsidir. Təşkilata qoşulan ölkələri ortaq etnik kök, dil və din birləşdirir. Belə bir təşkilatın qısa müddətdə böyük uğur qazanması da təbiidir.

Türk dövlətlərinin birləşməsi onlara ortaq bazar və daimi iqtisadi tərəfdaşların qazanmasına imkan verir. İndiki qlobal iqtisadi münasibətlərdə bu, çox önəmlidir. Yəni qardaş ölkələr bir-birlərinə iqtisadi sanksiyalar tətbiq etməyəcəklər, uzunmüddətli iqtisadi inteqrasiyanı qoruyacaqlar.

Bir vacib məqam isə gələcəkdə bu dövlətlər arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsidir. ABŞ ilə İran arasında gedən müharibə göstərdi ki, müasir dövrdə dövlətlərin həqiqi hərbi ittifaqı çox vacib məsələdir. Əgər türk ölkələrinin ortaq hərbi ittifaqı yaranarsa, heç bir dövlət bu təşkilatın hər hansı bir üzvünə hücum etməyə cürət etməz.

Bakıda keçirilən görüş hamıya bir mesaj oldu - Türk Dövlətləri Təşkilatının təməli möhkəmdir, sarsılmazdır, onunla hesablaşmaq lazımdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## TDT ölkələri arasında ticarət dövriyyəsini artırmaq üçün böyük potensial var

**Türk Dövlətləri Təşkilatı (TDT) türk dünyasının birlik və həmrəyliyinin simvoludur. Azərbaycan isə TDT-nin döyünən ürəyi, vuran nəbzidir. Ölkəmiz TDT coğrafiyasının mərkəzində yerləşməklə türk dünyası arasında körpü yaradıb. Prezident İlham Əliyevin "Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur" ifadəsi bu gün təşkilata üzv ölkələr arasında birlik və həmrəylik şüarına çevrilib.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan Türk Dövlətləri Təşkilatını irəliyə aparmaq üçün birgə səylərin göstərilməsində mühüm təşəbbüslərlə çıxış edir: "Dövlət başçısının çağırışlarının kökündə böyük məntiq dayanır. Dünyada oxşar tarix, mədəni və eyni etnik köklər üzərində qurulan təşkilatlar demək olar ki, yox dərəcəsindədir. TDT-yə üzv ölkələr isə bütün beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış edir və bir-birini dəstəkləyir. Bu təşkilata daxil olan ölkələr arasında fikir ayrılıqları heç vaxt olmayıb. Bu, gücümüzü daha da artırır. TDT-yə üzv ölkələr çətin günlərdə bir-birinin yanındadır. Bunu yaşadığımız son illərin qısa tarixi bir daha sübut edir. Belə ki, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması prosesinə qardaşlıq dəstəyini göstərib. Türkiyə isə torpaqlarımız işğaldan azad olunduğu ilk gündən bu ərazilərin bərpası işində fəallıq göstərir. Qardaş ölkələrlə bir yerdə işğaldan azad olunmuş ərazilərdə birgə müəssisələrin yaradılması prosesi davam etdirilir. Xankəndidəki tikiş fabriki və Zəngilandakı "Dost Aqropark"ı buna misaldır. Bundan sonra da belə nümunələr olacaq. Eynilə də Azərbaycan çətin günlərdə qardaş ölkələrə yardımını əsirgəmir. Türkiyədə əsrin faciəsi hesab edilən zəlzələ baş verəndə qardaş ölkənin yanında ilk Azərbaycan oldu. O cümlədən zəlzələnin nəticələrinin aradan qaldırılması işində Azərbaycan Türkiyə ilə çiyin-çiyinə dayandı və Kahramanmaraşda 1000 evdən ibarət "Azərbaycan" məhəlləsinin qurulmasına maliyyə ayırdı", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu gün dünya nizamında baş verən proseslər fonunda TDT ölkələri arasında dostluq, birlik və əməkdaşlığın genişləndirilməsi çox vacibdir. Bu, təşkilatın beynəlxalq səviyyədə mövqelərini daha da möhkəmləndirir və gücünü artırır. TDT dövlətlərinin Zirvə toplantılarının keçirilməsi təşkilata üzv dövlətlər arasında siyasi, ticari, iqtisadi, mədəni, humanitar və hərbi əməkdaşlığın dərinləşdirilməsini sürətləndirir. Aydındır ki, hər bir Zirvə toplantısı əməkdaşlığın dərinləşdirilməsi üçün yeni hədəflər və vəzifələr müəyyənləşdirir. Bu baxımdan aprelin 2-də Bakıda keçirilən TDT-nin vitse-prezident və hökumət başçılarının Zirvə toplantısı çox əhəmiyyətlidir.

A.Badamov deyib ki, ölkələr arasında qarşılıqlı investisiyaların yatırılması və təşkilat daxilində əməkdaşlığın genişləndirilməsi imkanları artırır: "Yeni TDT-yə üzv ölkələrin coğrafiyası Asiyadan Avropaya qədər uzanmaqla 5 milyon kvadratkilometr, əhalisi 180 milyon nəfər, iqtisadiyyatları 2 trilyon dollardır. Üzv ölkələrin xarici ticarət dövriyyəsi 1,3 trilyon dollar olduğu halda təşkilatdaxili ticarət dövriyyəsi cəmi 45 milyard dollardır. Bu baxımdan ölkələr arasında ticarət dövriyyəsinin mövcud potensialla uzlaşmadığını deyə bilərik. Amma yaxın perspektivdə təşkilatdaxili ölkələr arasında ticarət dövriyyəsini 100 milyard dollara çatdırmaq mümkündür. TDT ölkələrinin qarşılıqlı şəkildə investisiya yatırımlarının həcmi 30 milyard dollara qədərdir. Bu məbləğin daxilində ancaq Azərbaycanın TDT ölkələrinə qoyduğu investisiyanın həcmi 20 milyard dollardan çoxdur. Bu rəqəmlər TDT-yə daxil olan 5 ölkəyə aiddir. Müşahidəçi statusuna malik ölkələri də bu statistikaya əlavə etsək, rəqəmlər daha da böyük olacaq. Ona görə də üzv ölkələr arasında daxili iqtisadi inteqrasiyanın dərinləşdirilməsi ən vacib məsələlərdən biridir".

Deputat vurğulayıb ki, TDT-yə daxil olan ölkələr həm də böyük təbii resurslara malikdir. Bu gün dünyada davam edən müharibələr əsasən təbii resurslar üzərindədir. Bu baxımdan təşkilata üzv ölkələr əməkdaşlığı möhkəmləndirməklə, resurslardan təhlükəsiz və səmərəli istifadə etməklə beynəlxalq bazarlarda mövqelərini möhkəmləndirə bilər. Dünyada ən aktual problemlərdən biri də təhlükəsiz nəqliyyat dəhlizləridir. Azərbaycan üzərindən keçən Orta dəhliz Mərkəzi Asiya ölkələri ilə Türkiyəni birləşdirməklə yanaşı, həm də Asiyadan Avropaya qədər böyük bir coğrafiyanı əhatə edir. Azərbaycan Orta dəhlizi nəqliyyat, enerji və rəqəmsal layihələri ilə genişləndirir. Bu beynəlxalq logistik nəqliyyat yolunun yeni seqmenti olacaq Zəngəzur dəhlizi (TRIIP) isə ilkin mərhələdə daha 15 milyon ton yükün təhlükəsiz daşınmasına imkan yaradacaq. "Bu dəhlizin tikintisinin başa çatdırılması istiqamətində Azərbaycan avtomobil yolunun tikintisinin 90 faizini, dəmir yolunun 70 faizini yekunlaşdırmaq üzrədir. Türkiyə də Qars-Naxçıvan dəmir yolunun tikintisini sürətlə davam etdirir. Təbii ki, bu istiqamətdə enerji və rəqəmsal dəhlizlərin də tikintisi labüd olacaq. Beləliklə, Orta dəhlizin genişlənməsi regionda əməkdaşlığı dərinləşdirməklə, təhlükəsizliyin də möhkəmləndirilməsinə töhfə verəcək", - deyə o bildirib.

A.Badamov deyib ki, Bakıda keçirilən TDT-yə üzv dövlətlərin hökumət rəhbərlərinin Zirvə görüşü ölkələr arasında iqtisadi imkanların dərinləşdirilməsi baxımından yeni bir səhifə açacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## TDT mühüm əməkdaşlıq platformasına çevrilib

**Beynəlxalq münasibətlər sistemində regional əməkdaşlıq platformalarının rolunun əhəmiyyətli dərəcədə artdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı da mövqelərini möhkəmləndirir. Naxçıvandan başlayan uğurlu yolda şura təşkilata çevrildi və bu transformasiya təşkilatın strukturunu daha da gücləndirdi.**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında deyib ki, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı gücləndirən platforma kimi TDT-nin fəaliyyət istiqamətləri genişlənir və təşkilatın beynəlxalq arenada təsir imkanları artır: "Bu gün TDT siyasi dialoq başda olmaqla, iqtisadi inteqrasiya, nəqliyyat dəhlizləri, rəqəmsal işbirliyi kimi strateji sahələri əhatə edir. Ortaq tarix, dil və mədəniyyətə malik ölkələri bir araya gətirən bu təşkilatın inkişafında Azərbaycanın xüsusi rolu var. Rəsmi Bakı TDT çərçivəsində təşəbbüskar və birləşdirici mövqeyi ilə seçilir. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji mövqeyi sayəsində Azərbaycan Türk Dövlətləri Təşkilatının nəqliyyat və logistika layihələrində mühüm rol oynayır. Xüsusilə beynəlxalq nəqliyyat marşrutu olan Orta dəhlizin inkişafında Azərbaycanın fəal iştirakı TDT-nin iqtisadi potensialını daha da artırır. Prezident İlham Əliyev TDT-yə üzv dövlətlərin hökumət başçıları ilə görüşündə də bəyan etdi ki, ölkələrimizdən keçən Orta dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır".

Deputat qeyd edib ki, Azərbaycan təşkilat daxilində siyasi dialoqun dərinləşməsinə də töhfə verir. Ölkəmiz müxtəlif sammitlərə evsahibliyi etməklə və yeni təşəbbüslər irəli sürməklə TDT-nin institusional inkişafına dəstək göstərir. Azərbaycanın təşəbbüsləri nəticəsində enerji təhlükəsizliyi, "yaşıl enerji" və rəqəmsal transformasiya kimi sahələrdə əməkdaşlıq daha da genişlənir.

N.Məmmədova bildirib ki, TDT üzv ölkələr arasında iqtisadi əlaqələri gücləndirməklə yanaşı, regional sabitliyin təmin olunmasına da töhfə verir: "Prezident İlham Əliyev bəyan etdi ki, biz çox ciddi və məsuliyyətli mövqe sərgiləyirik - həm öz maraqlarımızı təmin edirik, həm də dünya üçün yeni nəqliyyat yollarını təqdim edirik. Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlib".

Deputat vurğulayıb ki, Türk Dövlətləri Təşkilatı bu gün yalnız regional deyil, həm də beynəlxalq səviyyədə təsir gücünü artıran mühüm əməkdaşlıq platformasına çevrilib. Ən əsası isə bu platforma uğurlu birlik, sülh, təhlükəsizlik və əməkdaşlıq təcrübəsini bölüşür.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

## Baş nazir Ünal Üstel: "Azərbaycanlı qardaşlarımızın istirahət üçün Şimali Kiprə üstünlük vermələrini istəyirik"

**Türk dünyasında siyasi və iqtisadi inteqrasiyanın dərinləşdiyi bir dövrdə Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) də bu proseslərdə fəal iştirak etməyə çalışır. Müxtəlif yüksəksəviyyəli görüşlər, xüsusilə aprelin 2-də Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin Bakıda keçirilən görüşü və artan regional əməkdaşlıq fonunda ŞKTC-nin mövqeyi xüsusi maraq doğurur. ŞKTC-nin Baş naziri Ünal Üstel ilə müsahibədə həm bu görüş, həm də təşkilat çərçivəsində əməkdaşlığın perspektivləri dəyərləndirilir.**



*- Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz! Son dövrlərdə türk dövlətləri arasında əməkdaşlığın daha da gücləndiyini müşahidə edirik. Bu baxımdan Bakıda təşkil edilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşü xüsusi əhəmiyyət kəsb edir. Bu görüşü necə dəyərləndirirsiniz?*

- Biz Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycanda olmaqdan böyük məmnunluq duyuruq. İlk növbədə belə gözəl toplantıya bizi də dəvət edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə səmimi-qəlbdən təşəkkür edirik.

Bakı görüşündə apardığımız müzakirələrdə ölkələrimiz arasında iqtisadiyyat, turizm, təhsil və idman sahələrində əməkdaşlığın inkişaf perspektivlərini müzakirə etdik. Ölkələrimiz arasındakı əlaqələri daha necə gücləndirə biləcəyimizdən danışdıq. Bu mövzuları yaxın gələcəkdə yenidən müzakirə etmək üçün bir araya gəlmək qərarını verdik. Biz bu müzakirələrdə iştirakdan böyük şərəf və məmnunluq duyuruq. Türk Dövlətləri Təşkilatında müşahidəçi üzv kimi artıq müəyyən bir mərhələ keçmişik. Növbəti məqsədimiz isə tam üzvlüyə keçərək əlaqələri daha da inkişaf etdirməkdir.

*- Şimali Kipr və Azərbaycan arasında münasibətlər hansı istiqamətlər üzrə daha çox inkişaf edib?*

- Biz hər zaman azərbaycanlı iş adamlarının Şimali Kipr Türk Cümhuriyyətinə daha çox investisiya yatırmalarını arzulayırıq. Eyni zamanda Şimali Kipr Türk Cümhuriyyətindəki iş adamlarının da Azərbaycana gəlib investisiya qoymaları üçün müxtəlif təşəbbüslər həyata keçiririk.

Xüsusilə bu gün bir sıra azərbaycanlı nazirin iştirakı ilə görüşümüz olacaq. Əsas müzakirə mövzularımızdan biri də investisiya yatırılması məsələsidir. Həm Şimali Kipr Türk Cümhuriyyətində, həm də Azərbaycanda iş adamlarını necə bir araya gətirə biləcəyimizi müzakirə edəcəyik.

*- Bu sahədə konkret hansı gözləntiləriniz var?*

- İlk növbədə Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyəti arasında əlaqələrin gücləndirilməsi üçün müəyyən güzəştlərin tətbiq olunmasını vacib hesab edirik. Arzumuz budur ki, Şimali Kipr Türk Cümhuriyyətinin vətəndaşları öz pasportları ilə rahat şəkildə Azərbaycana səfər edə bilsinlər.

İkincisi, turizmin inkişafı ilə əlaqədar azərbaycanlı qardaşlarımızın istirahət üçün Şimali Kiprə üstünlük vermələrini istəyirik. Şimali Kiprin təbii gözəlliklərini - günəşli havasını, dənizini və mədəniyyətini yaxından tanımalarını arzulayırıq.

## TDT-də inteqrasiyanın yeni mərhələsi: Bakı görüşü ortaq gələcəyin strateji konturlarını müəyyənləşdirir

**"Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında son illərdə müşahidə olunan çoxşaxəli əməkdaşlıq prosesi artıq yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Tarixi, mədəni və dil birliyinə əsaslanan bu əməkdaşlıq modeli getdikcə daha çox siyasi, iqtisadi və geostrateji məzmun kəsb edərək təşkilatı regionun aparıcı güc mərkəzlərindən birinə çevirir. Bu baxımdan Bakıda keçirilən son görüş türk dünyasının inteqrasiya prosesində mühüm dönüş nöqtəsi kimi çıxış edir".**

Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert Mehmet Seven bildirib.

Onun sözlərinə görə, Bakı görüşü yalnız növbəti diplomatik tədbir deyil, eyni zamanda Türk Dövlətləri Təşkilatının gələcək inkişaf istiqamətlərini müəyyən edən strateji platformadır.

"Bu görüşdə qəbul edilən qərarlar və səsləndirilən təşəbbüslər təşkilatın institusional güclənməsi və praktik nəticələr əldə etməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bakı görüşündə əsas diqqətçəkən məqamlardan biri təşkilat daxilində iqtisadi inteqrasiyanın sürətləndirilməsi istiqamətində atılan addımlardır. Ticarət dövriyyəsinin artırılması, gömrük prosedurlarının sadələşdirilməsi, vahid logistika platformalarının yaradılması və sərmayə qoyuluşlarının təşviqi kimi məsələlər türk dövlətlərinin iqtisadi gücünü birləşdirərək sinerji effekti yarada bilər. Orta dəhliz layihəsinin strateji əhəmiyyətini ön plana çəkir. Bu marşrut yalnız nəqliyyat xətti deyil, həm də geoiqtisadi və geosiyasi baxımdan böyük potensiala malik inteqrasiya platformasıdır. Asiya ilə Avropanı birləşdirən bu dəhliz vasitəsilə yükdaşımaların həcminin artması türk dövlətlərinin qlobal ticarətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirə bilər", - deyə türkiyəli ekspert vurğulayıb.

Bununla yanaşı, ekspert rəqəmsallaşma və innovasiya sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edib. O bildirib ki, qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı bir dövrdə türk dövlətləri bu sahədə geri qalmamaq üçün ortaq texnoloji platformalar yaratmalı, startap ekosistemini inkişaf etdirməli və süni intellekt, "ağıllı şəhər" layihələri kimi istiqamətlərdə birgə təşəbbüslər irəli sürməlidir.

Mehmet Seven humanitar əməkdaşlığın da təşkilatın uzunmüddətli inkişafında mühüm rol oynadığını qeyd edib: "Bu baxımdan tələbə mübadilə proqramlarının genişləndirilməsi, ortaq təhsil layihələrinin həyata keçirilməsi və mədəni tədbirlərin artırılması xüsusi əhəmiyyət kəsb edir. Bakı görüşündə təhlükəsizlik məsələləri də diqqətdən kənarda qalmayıb. Regional sabitliyin qorunması, terrorizm və transmilli təhdidlərə qarşı mübarizə, həmçinin sərhəd təhlükəsizliyi sahəsində əməkdaşlığın gücləndirilməsi təşkilatın strateji gündəliyinin mühüm hissəsini təşkil edir".

Mehmet Seven əlavə edib ki, təşkilatın institusional strukturunun daha da təkmilləşdirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Qərarların icrasına nəzarət mexanizmlərinin gücləndirilməsi, hüquqi bazanın genişləndirilməsi və daimi fəaliyyət institutlarının effektivliyinin artırılması TDT-nin dayanıqlı inkişafını təmin edə bilər.

Onun sözlərinə görə, qlobal miqyasda baş verən geosiyasi dəyişikliklər, enerji və nəqliyyat marşrutları uğrunda artan rəqabət, həmçinin yeni iqtisadi güc mərkəzlərinin formalaşması fonunda Türk Dövlətləri Təşkilatının rolu daha da aktuallaşır: "Bakı görüşü Türk Dövlətləri Təşkilatının inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu görüş yalnız mövcud əməkdaşlığı möhkəmləndirməklə kifayətlənmir, həm də gələcək üçün konkret strateji istiqamətləri müəyyən edir. Türk dünyası qarşıdakı dövrdə daha sıx inteqrasiya olunaraq həm regional, həm də qlobal səviyyədə daha güclü və təsirli aktor kimi çıxış edəcək".

# "Dəmir yumruğ"un Aprel zəfəri

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 2020-ci ildəki 44 günlük Vətən müharibəsində, daha sonra Qarabağda separatçılara qarşı həyata keçirilmiş qısamüddətli antiterror əməliyyatında böyük bir tarix yazdı. Bu möhtəşəm Zəfərimiz sayəsində torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu.**



## Aprel döyüşləri Azərbaycanın hərbi gücünün ilkin təsdiqi oldu

Azərbaycan bu qələbə ilə regionda yeni reallıqlar yaratdı, dövlətimizin başçısının irəli sürdüyü və addım-addım reallaşmasına nail olduğu mükəmməl sülh gündəliyi Cənubi Qafqazda dayanıqlı sülh, davamlı inkişaf, insanların rifah və xoşbəxtliyi üçün yeni üfüqlər açdı. Bu Zəfər sarsılmaz iradənin, böyük əzmin, illərlə aparılan hazırlıqların, zərrə-zərrə qazanılan irəliləyişlərin möhtəşəm nəticəsi idi.

2016-cı ilin Aprel döyüşləri də böyük Zəfərimizə doğru yolda çox mühüm yer tutur. Azərbaycan Ordusunun Aprel qələbəsi, əsgər və zabitlərimizin qəhrəmanlıqları Ermənistanın işğalçı mövqeyi üzündən on illərlə davam edən qanlı münaqişəyə yeni bir dönüş nöqtəsi gətirdi. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin daha da güclənməsi, digər tərəfdən isə Ermənistan ordusunun mövqelərindəki zəiflik Aprel döyüşlərinin xüsusilə əhəmiyyətli məqamlarıdır.

Bu döyüşlər yalnız hərbi deyil, siyasi, diplomatik və strateji baxımdan da münaqişənin gələcəyini müəyyən edən mühüm bir mərhələ oldu. 2016-cı il Aprel döyüşləri Qarabağ münaqişəsini Ermənistanın havadarlarının səyləri ilə illərlə dondurulmuş vəziyyətdən yeni bir mərhələyə keçirdi, xalqımızın gücünü, əzəmətini bütün dünyaya göstərdi. Bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı ərazisində ikinci erməni dövlətinin yaradılması ilə əsla barışmaq, işğal reallığına boyun əymək niyyətində deyil və torpaqlarımızın hərbi gücü ilə geri qaytarılması ehtimalı çox yaxındadır.

### Təxribata qarşı qətiyyət

Aprel döyüşləri Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı nəticəsində baş verdi. 2016-cı il aprelin əvvəllərində Ermənistanın silahlı qüvvələri ön xətdəki mövqelərimizi və yaşayış məntəqələrimizi intensiv artilleriya atəşinə tutdu. Azərbaycan Ordusu düşmən təxribatına qətiyyətlə cavab verdi və döyüşlərdə böyük qələbə qazandı. Aparılan uğurlu əməliyyatlar Ermənistanın "keçilməz səngərlər" mifini, bu dövlətə rəhbərlik edən quldur rejimin işğalçılıq niyyətini alt-üst etdi. Nəticədə Tərtər rayonunun Talış kəndi yaxınlığındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtərin Madagiz kəndi istiqamətindəki mövqelər azad olundu. Həyata keçirilən əməliyyatlar hərbi baxımdan beynəlxalq aləmdə Azərbaycanın gücünü göstərdi.

Erməni silahlı birləşmələri bu qarşıdurmalar zamanı çox ciddi itkilər verdi. Rəsmi məlumatlara əsasən, dördgünlük döyüşdə 320-dən çox düşmən zərərsizləşdirildi, 500-dən artıq erməni hərbçisi yaralandı. Qarşı tərəfə məxsus 30-a yaxın tank və digər zirehli texnika, eləcə də 25-dən artıq artilleriya sistemi sıradan çıxarıldı. Madagiz qəsəbəsində yerləşən qərargah və əsas hərbi bölmələr məhv edildi. Bundan əlavə, Ağdərə-Madagiz və Cəbrayıl istiqamətlərindəki yollar ordumuzun nəzarətinə keçdi.

### Hərb istəmirik, hərbə hazırıq

Aprel döyüşlərindən sonra - 2016-cı ilin mayında Azərbaycan və Ermənistan rəhbərləri münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupuna həmsədr ölkələrin təmsilçilərinin iştirakı ilə Vyanada görüş keçirdilər. Daha sonra - iyunun 20-də Sankt-Peterburqda üçtərəfli müzakirələr oldu. Həmin görüşlərdə münaqişə bölgəsində qarşılıqlı etimadın artırılması, baş verən insidentlərin araşdırılması üçün mexanizmlərin formalaşdırılması və ATƏT sədrinin ofisinin imkanlarının genişləndirilməsi ilə bağlı ortaq razılıq əldə edildi.

Əslində, Ermənistanın mütəmadi olaraq cəbhə xəttində gərginlik yaratmasının səbəbləri aydın idi: Sarkisyan-Koçaryan hakimiyyəti danışıqlar ərəfəsində vəziyyəti bilərəkdən kəskinləşdirərək ölkə daxilindəki siyasi, sosial və iqtisadi problemlərdən ictimaiyyətin diqqətini yayındırmağa çalışırdı. Azərbaycan isə əksinə, münaqişənin sülh yolu ilə həllini prioritet sayır, bu istiqamətdə davamlı addımlar atırdı.

Aprel döyüşlərindən sonra Azərbaycanın tutduğu mövqe bir daha göstərdi ki, ölkəmiz məsələnin hər iki tərəfdən böyük itkilərə yol vermədən danışıqlar yolu ilə həlli variantına, sülh prinsiplərinə ən son imkana qədər sadiqdir. Eyni zamanda ölkəmiz Aprel döyüşləri zamanı öz hərbi potensialının yalnız kiçik bir hissəsini nümayiş etdirməklə göstərdi ki, əgər lazım gəlsə, Azərbaycan Ordusu daha böyük əməliyyatlar keçirib qısa zamanda torpaqlarımızı işğalçılardan təmizləyə bilər.

Beynəlxalq qurumlar və aparıcı dövlətlər Aprel döyüşləri ilə bağlı Azərbaycana qarşı hər hansı irad irəli sürə bilmədilər. Çünki Azərbaycan əməliyyatları öz suveren ərazilərində həyata keçirmişdi.

Aprel döyüşləri ölkəmizin beynəlxalq nüfuzunu daha da gücləndirdi, cəmiyyətimizin vahid amal uğrunda yumruq kimi birləşdiyini göstərdi, Azərbaycanın hərbi gücünün, yalnız onun texniki imkanlarında deyil, Ali Baş Komandanın sarsılmaz iradəsində, əsgər və zabitlərimizin döyüş ruhunda, xalqımızın vəhdətində, milli amal uğrunda hər cür fədakarlığa hazırlığında olduğunu nümayiş etdirdi. Aprel döyüşləri zamanı dövlətimizin qazandığı strateji mövqelər, üstünlüklər bütün dünyaya tarixin axarının yaxın gələcəkdə necə inkişaf edəcəyinə dair əhəmiyyətli mesaj verdi. Hər kəs anladı ki, dövlətimizin güclü ordusu hər an düşmənin qarşısına çıxmağa və torpaqlarını azad etməyə hazırdır.

### Uğurlu diplomatik fəaliyyət

Aprel qələbəsi Azərbaycanın Cənubi Qafqaz regionunda ən böyük güc olduğunu və özünün ərazi bütövlüyü, suverenliyi uğrunda bu gücü istifadə etməkdən əsla çəkinməyəcəyini bir daha təsdiqlədi. Həmçinin beynəlxalq təşkilatların, nüfuzlu dövlətlərin olkəmizin Aprel döyüşlərindəki qələbəsi ilə bağlı heç bir mənfi açıqlama verə bilməməsi rəsmi Bakının son illərdəki diplomatik uğurları ilə də üstünlükləri təmin etdiyini, Ermənistanın qurduğu informasiya blokadasını aradan qaldıraraq bu ölkənin təcavüzkar mahiyyətini ifşa etdiyini, dünyanı beynəlxalq hüquq normalarından irəli gələn faktlar qarşısında qoyduğunu göstərdi.

Aprel döyüşlərindən sonra münaqişənin həlli istiqamətində diplomatik proses müəyyən qədər aktivləşsə də, real nəticə əldə olunmadı. Həmin il Vyana və Sankt-Peterburqda keçirilən yüksəksəviyyəli görüşlərdə tərəflər arasında substantiv müzakirələr Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən səmərəsiz alındı. Növbəti illərdə də vəziyyət, əfsus ki, dəyişmədi. Ermənistan 2017-ci ildə yeni hərbi və siyasi təxribatlarla cəbhə xəttində gərginliyi artırdı, mülki əhalini növbəti dəfə hədəfə aldı. Bunun beynəlxalq ictimaiyyət tərəfindən ciddi qınanılması rəsmi İrəvanın davranışlarına təsir etmədi və işğalçı ölkənin sülh prosesində maraqlı olmadığı daha aydın şəkildə üzə çıxdı.

Bu dövrdə Azərbaycan dövləti ordumuzu daha da gücləndirməklə bərabər, paralel olaraq beynəlxalq müstəvidə fəal siyasət həyata keçirib, hüquqi və siyasi mövqelərini möhkəmləndirdi. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa İttifaqı və NATO kimi qurumların sənədlərində Azərbaycanın ərazi bütövlüyünə ardıcıl şəkildə dəstək ifadə olundu. Bu, dövlətimizin haqlı mövqeyinin beynəlxalq səviyyədə qəbul edildiyini və daha da gücləndiyini göstərirdi.

### Qarabağ Azərbaycandır!

Diplomatik müstəvidə əldə olunan bu üstünlük fonunda Azərbaycan uzun müddət sülh danışıqlarına sadiqliyini də qorudu. Ermənistanın Aprel döyüşlərindəki məğlubiyyətindən, öz ordusu haqqında uydurduğu miflərin sabun köpüyü olmasından, Ermənistan ordusunun əslində əsgər payını oğurlayan generallardan, fərari əsgər və zabitlərdən ibarət olması reallığı gün işığına çıxandan sonra bu ölkədə baş verən hakimiyyət dəyişikliyi, cinayətkar Sarkisyan-Koçaryan hakimiyyətinin iqtidardan qovulması münaqişənin hərb variantına əl atmadan danışıqlar yolu ilə həllinə ümidləri artırırdı. Azərbaycan Prezidenti İlham Əliyev də dəfələrlə bəyan etmişdi ki, əsas məqsəd münaqişənin danışıqlar yolu ilə həllidir və bu istiqamətdə kompromis məhz bu prosesə sadiqlikdir. Lakin Ermənistanın yeni rəhbərliyinin də təcavüzkar siyasəti davam etdirməsi, hətta işğalı genişləndirmək cəhdləri və danışıqlarda imitasiya yolu tutması nəticəsində proses faktiki olaraq çıxılmaz vəziyyətə düşdü.

2019-cu ildə Ermənistan rəhbərliyinin açıq şəkildə işğalçılıq niyyətini ifadə edən bəyanatları vəziyyəti daha da gərginləşdirdi. Xüsusilə Nikol Paşinyan tərəfindən səsləndirilən "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi danışıqların perspektivini tamamilə alt-üst etdi. Buna cavab olaraq Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida" bəyanatı həm siyasi, həm də ideoloji baxımdan Azərbaycanın mövqeyini daha qəti şəkildə ortaya qoydu.

2020-ci ilin yayına doğru təmas xəttində Ermənistanın təxribatları daha təhlükəli mərhələyə keçdi. İyul ayında Tovuz istiqamətində baş verən döyüşlər, avqustda növbəti diversiya cəhdləri və ümumilikdə hərbi ritorikanın kəskinləşməsi Ermənistanın yeni müharibəyə hazırlaşdığını açıq şəkildə göstərdi. Azərbaycan tərəfi bunu beynəlxalq platformalarda dəfələrlə bəyan etsə də, dünya birliyi tərəfindən səmərəli tədbirlər görülmədi.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistanın genişmiqyaslı hücumu ilə münaqişə yeni fazaya keçdi. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı və cəmi 44 gün davam edən Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin böyük hissəsini azad etdi. "Dəmir yumruq" əməliyyatı ilə Azərbaycan həm hərbi, həm də siyasi baxımdan həlledici üstünlük qazanaraq Ermənistanı faktiki kapitulyasiyaya məcbur qoydu.

Vətən müharibəsi nəticəsində münaqişəyə faktiki son qoyuldu və Azərbaycanın ərazi bütövlüyünün bərpası təmin edildi. Sonrakı mərhələdə olkəmiz suverenliyini tam təmin etmək istiqamətində addımlarını davam etdirdi. 2023-cü ildə keçirilən lokal antiterror tədbirləri nəticəsində ölkə ərazisində qalan silahlı separatçı qüvvələr zərərsizləşdirildi, Xankəndidəki qondarma rejim ləğv olundu. Bununla da Azərbaycanın dövlət suverenliyi tam şəkildə bərpa edildi.

### Birlik, inam və qətiyyətin rəmzi

Beləliklə, Aprel döyüşlərindən başlayan proses mərhələli şəkildə diplomatik mübarizə, informasiya üstünlüyü və hərbi gücün vəhdəti nəticəsində Vətən müharibəsində tarixi qələbə ilə yekunlaşdı, Prezident İlham Əliyevin liderliyi ilə regionda yeni reallıqlar formalaşdı.

Aprel döyüşləri bu baxımdan Azərbaycan tarixində ordumuzun qələbəsi ilə tamamlanmış qısamüddətli - dördgünlük hərbi əməliyyatdan daha çox milli ruhun oyanışı, böyük Zəfərə aparan yolun başlanğıcıdır. Bu döyüşlər göstərdi ki, illərlə davam edən işğal faktı ilə barışmaq niyyətində olmayan xalqımızın iradəsi qırılmazdır və Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etmək əzmindədir. Aprel zəfəri həm də cəmiyyətdə öz gücünə inam yaratdı, ordumuzun peşəkarlığını, döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. Bu hadisələrdən sonra artıq hər kəsə aydın oldu ki, Azərbaycan yalnız diplomatik müstəvidə deyil, lazım gəldikdə döyüş meydanında da sözünü deməyə qadirdir.

Aprel döyüşləri bir neçə ildən sonra həyatımızı dəyişəcək, bizi xəyallarımıza qovuşduracaq böyük Zəfərin ideoloji və hərbi təməlini qoydu. Məhz həmin günlərdə yazılan qəhrəmanlıq salnaməsi Vətən müharibəsində əldə olunacaq Zəfərin başlanğıcı oldu.

Gələcək nəsillər Aprel döyüşlərini milli qürurun, vətənpərvərliyin və sarsılmaz iradənin təcəssümü kimi xatırlayacaqlar. Bu tarix onlara öyrədəcək ki, Vətən uğrunda birlik, inam və qətiyyət olduqda ən çətin hədəflərə belə çatmaq mümkündür.

Aprel döyüşləri Azərbaycan xalqının yaddaşında daim şərəf və qürur səhifəsi kimi yaşayacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Noyabr zəfəri Aprel qələbəsinin davamı idi

**Bu günlər 10-cu ildönümünü qeyd etdiyimiz 2016-cı ilin Aprel döyüşləri çağdaş tariximizin şərəfli və qürurverici səhifələrindəndir. 10 il öncə aprelin 2-dən 5-dək davam edən qanlı döyüşlərdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Milli Ordusu düşmənin "məğlubedilməzlik" mifini tarixin gedər-gəlməzliyinə göndərdi. Xalqın birliyi və ordumuzun qazandığı uğur 30 ildən artıq davam edən erməni işğalına birdəfəlik son qoyulması üçün açar rolunu oynadı.**

Döyüşlərin ikinci günü işğalçı Ermənistanın silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 24 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı.

Aprelin əvvəllərində Füzuli, Ağdam, Tərtər istiqamətlərində dinc əhalinin sıx məskunlaşdığı kəndlər ağır artilleriya atəşinə məruz qalırdı. Xain düşmən yenə ənənəvi taktikasını tətbiq edərək məktəbləri, xəstəxanaları, mülki vətəndaşların yaşadıqları evləri hədəf seçirdi. Əhalinin təhlükəsizliyini təmin etmək, düşmən qüvvələrinə sarsıdıcı zərbə endirərək atəş nöqtələrini susdurmaq zərurəti yarandı. Ali Baş Komandanın qəti tapşırığı əsasında ordu bölmələrimiz ildırım sürətli əks-hücum əməliyyatına başladılar. Yüksək dəqiqliyə malik silah sistemlərinin tətbiqi, xüsusi təyinatlı dəstələrin şücaəti işğalçıları çaşbaş saldı. Cəbhənin şimal və cənub istiqamətlərində qazanılan taktiki qələbələr strateji üstünlüyə çevrildi.

Cənub cəbhəsində - Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyi hərbi baxımdan müstəsna əhəmiyyət daşıyırdı. Həmin coğrafi mövqe uzun illər boyunca işğalçı qüvvələrə Arazboyu əraziləri, xüsusən Horadiz şəhərini daim təhlükə altında saxlamaq imkanı verirdi. Təcavüzkarlar Lələtəpədən istifadə edərək mülki infrastrukturu mütəmadi olaraq artilleriya atəşinə tutur, dinc insanların həyatını kabusa çevirirdi. Xüsusi təyinatlılarımızın həyata keçirdiyi əməliyyat nəticəsində həmin strateji yüksəklik ələ keçirildi. Düşmənin canlı qüvvəsi, eyni zamanda ağır texnikası tamamilə məhv edildi. Cəbhənin şimal istiqamətində - Tərtər rayonunun Talış kəndi ətrafında yerləşən dominant yüksəkliklər də azad edildi. Talış dağlarının nəzarətə götürülməsi Naftalan, Goranboy, eyni zamanda Tərtər rayonlarının təhlükəsizliyinin təmin olunması baxımından həyati əhəmiyyət kəsb edirdi.

Əldə edilmiş qələbənin siyasi mənasını ən mükəmməl izah edən vacib məqam dövlət başçısının həmin hadisələrə verdiyi yüksək qiymətdir: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir". Aydın görünür ki, cəbhə xəttində düşmənə vurulan ağır zərbə yalnız taktiki gediş hesab edilmir, bütövlükdə dövlət mexanizminin, ictimai şüurun, hərbi potensialın sıx vəhdətinin nümayişi kimi dəyərləndirilir. Bu hərbu uğur eyni zamanda beynəlxalq müstəvidə yaranmış psixoloji baryerlərin tamamilə aradan qalxması demək idi. İllərboyu ədalətsizliyin hökm sürdüyü diplomatik dəhlizlərdə Azərbaycanın haqlı mövqeyi artıq dəstəklənirdi.

Aprel döyüşlərində qazanılan qələbədə Xüsisi Təyinatlı Qüvvələrin müstəsna rolu olmuşdur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2022-ci il aprelin 30-da - XTQ-nin yaradılmasının 23-cü ildönümü münasibətilə "N" saylı hərbi hissənin şəxsi heyəti qarşısında çıxışı zamanı deyib: "Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər..." Xüsusi təyinatlılara verilən tapşırıqlara əsasən, onlar dağlıq, meşəlik və sərt iqlim şəraitində, düşmən arxasında, gizli şəkildə yüksəksəviyyəli tapşırıqları uğurla yerinə yetirərək öz peşəkarlıqlarını sübut ediblər.

Ekspertlərin fikrincə, torpaqlarımızın işğaldan azad olunmasına gedən yolda Lələtəpə, eləcə də Talış ətrafındakı uğurlar doğma yurda qayıdışın başlanğıcı hesab edilir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi bu qayıdışın simvoludur. Strateji yüksəkliklərin işğalçılardan təmizlənməsi sözügedən kənddə insanların təhlükəsiz yaşamasını təmin etdi. Qısa müddət ərzində dövlət tərəfindən həyata keçirilən bərpa-quruculuq işləri Böyük qayıdışın reallaşmış pilot layihəsi idi. Bütün dünya gördü ki, Azərbaycan xalqı viran qalmış əraziləri qısa zamanda cənnətə çevirməyə, qurub-yaratmağa tam qadirdir.



*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Azərbaycan Ordusunda Aprel döyüşlərinin 10-cu ildönümü qeyd olunub

**Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbənin 10-cu ildönümü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.**



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, tədbirlərdə hərbi qulluqçular, Aprel döyüşlərinin iştirakçıları, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Şəhidlər xiyabanları ziyarət edilərək məzarları önünə gül dəstələri düzülüb, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçənlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət himni səsləndirilib.

Çıxış edənlər Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, həmçinin hərbi qulluqçularımızın döyüşlərdə nümayiş etdirdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar. Bildirilib ki, 2016-cı ilin Aprel döyüşləri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazanılan növbəti qələbələrin - Günnüt əməliyyatı, Tovuz döyüşləri, Vətən müharibəsi və antiterror tədbirlərinin, bütövlükdə şanlı Zəfərimizin başlanğıcı kimi qiymətləndirilir.

Tədbirlərin bədii hissəsində sənədli filmlər nümayiş olunub, şeirlər səsləndirilib, vətənpərvərlik mövzusunda musiqi nömrələri və ədəbi-musiqili kompozisiyalar təqdim edilib, döyüş iştirakçıları xatirələrini bölüşüblər.

Tədbirlər çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid ailələrinə baş çəkərək onların qayğıları ilə maraqlanıb, silahdaşlarının xatirələrinə ehtiramlarını ifadə ediblər.

# TAP istismara veriləndən Azərbaycan Yunanıstana 5,6 milyard kubmetr qaz ixrac edib

**Energetika naziri Pərviz Şahbazovla Yunanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Maria Papakonstantinus arasında görüş keçirilib.**




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında enerji əməkdaşlığı, xüsusilə Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan qaz tədarükünün əhəmiyyəti diversifikasiyanın təmin olunması, əlverişli qiymətlərin formalaşması, ətraf mühitin qorunması və Yunanıstanın enerji habı kimi rolunun gücləndirilməsi kontekstində yüksək qiymətləndirilib. Bildirilib ki, ötən il Yunanıstana qaz təchizatı 1,1 milyard kubmetr təşkil edib. Ümumilikdə isə TAP istismara verildikdən sonra Azərbaycandan Yunanıstana 5,6 milyard kubmetr qaz ixrac olunub.

Görüş zamanı enerji sahəsində mövcud uğurlu əməkdaşlığın digər istiqamətlər üzrə də genişləndirilməsinin vacibliyi vurğulanıb, xüsusilə "yaşıl enerji", enerji səmərəliliyi və innovativ texnologiyalar sahəsində əməkdaşlıq imkanları müzakirə edilib. Həmçinin Azərbaycan ilə Yunanıstan arasında İqtisadi, Sənaye və Texnoloji Əməkdaşlıq üzrə Birgə Komissiyanın növbəti iclasının Afinada keçirilməsi ilə bağlı məsələlər nəzərdən keçirilib.

Bundan əlavə, Yunanıstan tərəfi "Bakı Enerji Həftəsi" çərçivəsində keçiriləcək tədbirlərdə geniş tərkibdə iştiraka dəvət olunub.

# Azərbaycan və Dünya Bankı arasında dövlət müəssisələrinin monitorinqi sahəsində əməkdaşlıq genişlənir

**Maliyyə nazirinin birinci müavini Anar Kərimov Dünya Bankının Dövlət Maliyyəsi və Satınalmalar Bölməsi üzrə təcrübə meneceri Serdar Yılmaz və bankın Azərbaycan üzrə ölkə meneceri xanım Stefanie Stallmeister ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri, xüsusilə dövlət maliyyə idarəetməsi sahəsində həyata keçirilən və planlaşdırılan tədbirlər müzakirə olunub.

A.Kərimov bildirib ki, Azərbaycan Dünya Bankı ilə əməkdaşlığa böyük önəm verir və bu tərəfdaşlıq çərçivəsində həyata keçirilən tədbirlər dövlət maliyyə idarəçiliyi sisteminin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Qeyd olunub ki, Dünya Bankının bu sahədə göstərdiyi dəstək yüksək qiymətləndirilir və həyata keçirilən islahatların effektivliyinə mühüm töhfə verir.

Maliyyə nazirinin birinci müavini əlavə edib ki, dövlət müəssisələrinin monitorinqi istiqamətində son dövrlərdə görülən işlər və həyata keçirilən islahatlar bu sahədə şəffaflığın və hesabatlılığın artırılmasına xidmət edir və qarşıdakı dövrdə bu istiqamətdə tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

Öz növbəsində S.Yılmaz Azərbaycanla uzunmüddətli əməkdaşlıqdan məmnunluğunu ifadə edərək, dövlət müəssisələrinin monitorinqi sahəsində həyata keçirilən islahatları yüksək qiymətləndirib və Dünya Bankının bu istiqamətdə texniki dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüş zamanı həmçinin Dünya Bankı tərəfindən göstərilə biləcək mümkün texniki yardım layihələri, eləcə də Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin qarşısında duran vəzifələr və bu istiqamətdə görüləcək işlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tərəflər bu sahədə təcrübə mübadiləsinin və birgə fəaliyyət imkanlarının genişləndirilməsinin vacibliyini qeyd ediblər.

# Neft qiymətləri öz tarixi rekordunu yeniləyə bilərmi?

**Yaxın Şərqdə yaranan gərginlik dünya neft bazarına da təsirsiz ötüşməyib. Hörmüz boğazının bağlanması neft qiymətlərinin artmasına səbəb olub. Xüsusən Yaxın Şərq ölkələrində enerji infrastrukturuna və neft bazalarına dəymiş ziyan qiymətlərin bir müddət də proqnozlaşdırılandan yüksək olacağını deməyə əsas verir. Azərbaycan dövlət büdcəsində 2026-cı il üçün neftin bir barelinin qiyməti 65 ABŞ dolları səviyyəsində müəyyənləşdirilib. Hazırda isə Azərbaycan neftinin qiyməti 141 dolları ötüb.**

Xatırladaq ki, Azərbaycan nefti olan "Azeri Light" 2008-ci ildə özünün maksimal qiymətinə - 149,66 ABŞ dollarına çatıb. Yaxın Şərqdə münaqişənin davam edəcəyi təqdirdə neft bazarında qiymətlərin artma dinamikasının davam edəcəyi proqnozlaşdırılır. Bu isə Azərbaycan neftinin tarixi rekord qiymətini yeniləyə bilər.

İqtisadçı Pünhan Musayev qəzetimizə açıqlamasında deyib ki, ənənəvi olaraq, neft bazarı dinamikalarına baxdıqda qiymətlərin əsasən OPEC+ hasilat kvotaları, Amerika Energetika Nazirliyinin ehtiyat-proqnozları, həmçinin qlobal tələb kimi amillər əsasında formalaşdığı mexanizminə öyrəşmişdik. Başqa sözlə, bazarda proqnozlaşdırıla bilən xüsusiyyət var idi. Ancaq mövcud vəziyyətdə konyunkturun 180 dərəcə dəyişdiyini görürük. Konkret olaraq, indiki şəraitdə neftin məskəni hesab olunan Yaxın Şərqdə ciddi geosiyasi qarşıdurma yaranıb və bu da bazara təbii olaraq təsirsiz ötüşmür. "Münaqişənin yaxın vaxtlarda bitib-bitməyəcəyi isə dəqiq deyil. Hətta münaqişə tezliklə başa çatsa belə, enerji infrastrukturunun dağıdılması təsirlərin bir müddət qalıcı olacağı ehtimallarını gücləndirir. İnfrastrukturla yanaşı, bu gün dünya neft ticarətinin 20 faizini əhatə edən Hörmüz boğazında yaranan risk və fasilələr, nəqletmədən sığorta xidmətlərinə qədər bütün enerji sistemində baş verənlər qiymətlərin artmasına səbəb olur. Obrazlı şəkildə desək, əvvəlkindən fərqli olaraq hazırda boş qalan bir bazar var və dinamikalar tərəflərin mesajlarından təsirlənir", - deyə o bildirib.

P.Musayev qeyd edib ki, bir çox halda bir tərəf atəşkəs imkanlarından bəhs etsə də, qarşı tərəfin gərginliyi artıran hansısa açıqlaması bir qədər spekulyativ ağırlıqda olsa da, neft bazarında praktiki əksini tapır: "Təsadüfi deyil ki, ötən ilin əhəmiyyətli hissəsini 60-70 dollar aralığında keçirən "Brent" nefti artıq 100-110 dollardan yuxarı qiymətlərlə satılır. Ancaq bütöv tablo da tam olaraq bu qədər deyil. Müasir bazarlar bir qədər mürəkkəb mexanizmlərə malikdir, bu gündən daha çox gələcək gözləntiləri əsas götürürlər. Neft bazarı da bu xüsusiyyətdə olduğundan, ticarət müəyyən tarix üçün müxtəlif çeşidli müqavilələr imzalanaraq aparılır. Çünki qiymətlər hazırkı emosional dalğalanma panikasından daha az təsirlənməklə, rasional bazar gözləntiləri qismində çıxış edir. Məsələyə belə baxdıqda deyə bilərik ki, bu günün 100-110 dollar qiymətlərindən fərqli olaraq bazarlar ilin sonuna qədər 70, hətta gələn ilin sonuna qədər isə 70 dollardan da aşağı qiymət gözləntisindədirlər. Bu hər nə qədər qəribə səslənsə də, bazarın təklif şokunu qısamüddətli panika kimi qəbul etdiyini, yəni geosiyasi risklərin uzunmüddətli olmadığı ssenarisini proqnozlaşdırdığını göstərir".

İqtisadçı digər diqqətçəkən məqamın baş verənlər fonunda uzun müddətdən sonra "Qərbi Texas" markalı Amerika neftinin "Brent" markalı neftdən baha satıldığını deyib. Onun sözlərinə görə, bu da ənənəvi bazar mexanizminin dəyişdiyinə dair bir nümunədir.

P.Musayev vurğulayıb ki, ümumiyyətlə, son yarım əsri əhatə edən dövrə nəzər saldıqda vəziyyətdən asılı olaraq, neft bazarında bu tip yuxarı sıçrayışların az olmadığını, ancaq davamında kəskin enişlərlə tamamlandığını görə bilirik: "Konkret "Azeri Light" markalı neftə gəldikdə isə hazırda müşahidə olunan 141 dollardan yuxarı qiymət səviyyəsi neft hasil və ixrac edən tərəf kimi ölkəmizin xeyrinə görünsə də, nəzərə almaq lazımdır ki, həcm 10 il əvvəl 40 milyon tonun üzərində idisə, bu gün 30 milyon tondan aşağıdır. Bu da hazırkı dövrdə ixracın həcminə və ixrac gəlirlərinin azalmasına təsir göstərib. Ona görə də Prezident İlham Əliyevin XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirdiyi kimi, bizim daha tarazlaşdırılmış və proqnozlaşdırıla bilən neft qiymətləri iqtisadi planlaşdırma baxımından əlverişli görünməkdədir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Azərbaycan və Çinin banklar assosiasiyaları əməkdaşlıq memorandumu imzalayacaqlar

**Azərbaycan Banklar Assosiasiyasının (ABA) nümayəndə heyəti Çinə səfəri çərçivəsində Çin Banklar Assosiasiyasının rəhbərliyi və müvafiq struktur bölmələrinin rəsmi nümayəndələri ilə keçirilən işgüzar görüşdə iştirak edib.**




ABA-dan AZƏRTAC-a bildirilib ki, Azərbaycan Bank və Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə baş tutan görüşdə ABA-nı assosiasiyanın prezidenti Zakir Nuriyev, icraçı direktor Yunus Abdulov və baş iqtisadçı Əzizağa Haxverdiyev təmsil ediblər.

Çin tərəfindən isə CBA-nın sədr müavini və baş katibinin müavini Yin Youxiang, baş katib xanım Xu Jieqin və Tədqiqat Departamentinin direktoru Li Jian iştirak ediblər.

Tədbir çərçivəsində tərəflər bank assosiasiyalarının fəaliyyəti, mövcud prioritetlər və gələcək əməkdaşlıq imkanlarına dair ətraflı fikir mübadiləsi aparıblar. Görüş zamanı hər iki ölkənin maliyyə sektorundakı mövcud vəziyyət və inkişaf meyilləri barədə təqdimatlar keçirilib. Bu müzakirələr kontekstində Azərbaycan maliyyə sisteminin Dünya Bankının 2025-ci il üzrə hesabatına əsasən "maliyyə xidmətləri" kateqoriyasında dünya üzrə birinci yerdə qərarlaşdığı xüsusi qeyd olunub və bu yüksək nəticənin əldə edilməsində ölkədəki tənzimləyici çərçivənin rolu vurğulanıb.

Görüşün gedişatında CBA-nın sədr müavini Yin Youxiang və baş katib Xu Jieqin Çin bank sektorunun makroiqtisadi vəziyyəti, maliyyə sabitliyi və qurumun strateji hədəfləri barədə məlumat veriblər. Öz növbəsində ABA prezidenti Zakir Nuriyev assosiasiyanın missiyası, bank sektorunda həyata keçirilən əsas təşəbbüslər və Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsi perspektivlərini diqqətə çatdırıb. Həmçinin icraçı direktor Yunus Abdulov ABA-nın təşkilati strukturu və beynəlxalq əməkdaşlıq istiqamətləri, baş iqtisadçı Əzizağa Haxverdiyev isə Azərbaycan iqtisadiyyatındakı makroiqtisadi vəziyyət və bank islahatları haqqında məruzə ediblər. Çin tərəfindən Li Jian isə rəqəmsal maliyyə sahəsində tətbiq olunan innovativ həllər və yeniliklər barədə təqdimatla çıxış edib.

Qarşılıqlı müzakirələrlə davam edən görüşdə tərəflər bank sektorunda təcrübə mübadiləsi və potensial birgə layihələrin reallaşdırılması imkanlarını dəyərləndiriblər. Görüşün sonunda ABA və CBA arasında gələcəkdə əməkdaşlıq memorandumunun imzalanması istiqamətində ilkin razılıq əldə edilib.

# Azərbaycan və Efiopiya arasında investisiya sənədləri imzalanıb

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) nümayəndələri Efiopiyanın Əddis-Əbəbə şəhərində Efiopiya İnvestisiya Komissiyası və Maliyyə Nazirliyi tərəfindən keçirilən "Invest in Ethiopia 2026" biznes-forumunda iştirak ediblər.**

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə Efiopiyanın investisiya imkanları təqdim edilib, dövlət rəsmiləri və özəl sektorun iştirakı ilə panel sessiyalar keçirilib, investisiya layihələrinə dair sənədlər imzalanıb.

Efiopiyaya səfər çərçivəsində AZPROMO-nun icraçı direktoru Yusif Abdullayevin rəhbərliyi ilə agentliyin nümayəndələri bir sıra qurumlarla görüşlər keçiriblər.

Efiopiya İnvestisiya Komissiyasının (EIC) rəhbəri Zeleke Temesgen ilə görüşdə bu ilin fevral ayında Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana rəsmi səfəri çərçivəsində AZPROMO ilə EIC arasında imzalanan Anlaşma Memorandumunun icrası müzakirə olunub. Görüşdə iki qurum arasında əlaqələrin gücləndirilməsi perspektivləri, birgə təşəbbüs və fəaliyyət imkanları nəzərdən keçirilib.

Efiopiya Ticarət Palatası və Sahəvi Assosiasiyalarının (ECCSA) vitse-prezidenti Aynalem Abayne Mamo ilə görüşdə iki ölkənin sahibkarları arasında birbaşa əlaqələrin qurulması və ikitərəfli ticarət potensialının öyrənilməsinin önəmi qeyd olunub. Efiopiya ilə ticarət münasibətlərinin inkişafına dair fikir mübadiləsi aparılıb.

Efiopiyanın mədən sənayesi naziri Habtamu Tegene Destaye ilə görüşdə dağ-mədən sənayesində birgə fəaliyyət imkanları dəyərləndirilib.

"Ethiopian Investment Holdings" suveren fondunun baş icraçı direktoru Bruk Taye ilə görüşdə ölkəmizin investisiya potensialı haqqında məlumat verilib, qarşılıqlı əməkdaşlığın perspektivləri, investisiya üzrə tərəfdaşlıq və birgə təşəbbüslərin həyata keçirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

# "Bakı sabitliyin və beynəlxalq əməkdaşlığın strateji mərkəzinə çevrilir"

**Son illərdə Azərbaycan Cənubi Qafqazda regional sabitlik, təhlükəsizlik və iqtisadi inkişafın əsas amillərindən biri kimi mövqeyini inamla möhkəmləndirir. Ölkə strateji baxışı praktik addımlarla birləşdirmək bacarığını nümayiş etdirir: infrastruktur və enerji layihələrində iştirakdan tutmuş Orta dəhliz və "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) kimi regional nəqliyyat dəhlizlərinin təşviqinə qədər. Bakının xarici siyasət fəaliyyəti ABŞ və Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələri də daxil olmaqla aparıcı beynəlxalq tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsində özünü göstərir. Azərbaycan təkcə iqtisadi və enerji mərkəzi deyil, həm də Cənubi Qafqazda və daha geniş regional kontekstdə təhlükəsizliyin, sabitliyin və çoxtərəfli əməkdaşlığın təmin edilməsində etibarlı tərəfdaş kimi çıxış edir.**



**İranlı ekspert, Körfəz Əməkdaşlıq Şurası ölkələri üzrə Araşdırmalar Qrupunun direktoru Cavad Heyran-Nia AZƏRTAC-ın suallarını cavablandırıb.**

*- Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin qorunmasında Azərbaycanın rolunu necə qiymətləndirirsiniz? Qonşu ölkələr və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın hansı müsbət nümunələrini qeyd etmək olar?*

- Bakı hazırda Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması vasitəsilə ABŞ ilə münasibətləri gücləndirməklə öz maraqlarını təşviq etmək imkanlarını nəzərdən keçirir. Bu tərəfdaşlıq enerji və nəqliyyat dəhlizlərinə yönəlib və Azərbaycanın Cənubi Qafqazda etibarlı ABŞ tərəfdaşı kimi rolunu daha da möhkəmləndirə bilər.

Digər tərəfdən, şərqlə qərbi birləşdirən Orta dəhliz də daxil olmaqla, Azərbaycanın mühüm enerji və nəqliyyat qovşağı kimi rolu iqtisadi inkişafa və regional sabitliyə töhfə verir. Çin və Mərkəzi Asiyanı Azərbaycan ərazisi vasitəsilə Türkiyə və Avropa ilə birləşdirməsi iqtisadi qarşılıqlı asılılıq yaradır ki, bu da sabitliyin və genişlənmiş əməkdaşlığın güclənməsinə xidmət edir.

Bundan əlavə, Azərbaycan ilə Gürcüstan arasında Bakı-Tbilisi-Ceyhan neft kəməri və sərhəd infrastrukturu kimi layihələr üzrə əməkdaşlıq davamlı enerji və tranzit tərəfdaşlığının əsasını qoyub. Bu tendensiya Türkiyə, Gürcüstan və Bolqarıstanı əhatə edən "Yaşıl Enerji Dəhlizi" layihəsi çərçivəsində də davam edir ki, bu da enerji təhlükəsizliyi və regional inteqrasiya baxımından mühüm addımdır.

Bundan başqa, Ermənistanla sülh sazişinin əldə edilməsi Azərbaycanın regional nəqliyyat marşrutlarında daha fəal rol oynamasına imkan yarada bilər. Buraya Azərbaycanı Ermənistan ərazisindən Naxçıvan Muxtar Respublikası ilə birləşdirən tranzit marşrutları (TRIPP) kimi layihələr daxildir ki, bu da iqtisadi və regional əməkdaşlığı təşviq edə bilər.

*- Azərbaycan Körfəz Əməkdaşlıq Şurası ölkələri ilə diplomatik və iqtisadi əlaqələrini fəal şəkildə gücləndirir. Bakının regional əməkdaşlığın inkişafına və qarşılıqlı etimadın möhkəmləndirilməsinə verdiyi töhfəni necə qiymətləndirirsiniz?*

- Azərbaycan ilə Körfəz ərəb dövlətləri arasında mədəni və dini əlaqələr mövcud olsa da, müasir münasibətlər bu ortaq cəhətlərin çərçivəsindən xeyli kənara çıxır və dəyişən dünya nizamının geosiyasi və geoiqtisadi kontekstində formalaşır. Bu baxımdan enerji sektoru və tranzit dəhlizləri üzrə əməkdaşlıq qarşılıqlı maraqların əsas sütununa çevrilib.

Azərbaycan üçün KƏŞ üzvləri ilə enerji tərəfdaşlığı münasibətlərin inkişafında aparıcı istiqamətlərdən biridir. Ərəb ölkələrindən gələn investisiyaların həcmi və keyfiyyəti bunu təsdiqləyir. BƏƏ şirkətlərinin - Əbu-Dabi İnvestisiya Fondu (ADQ) və bərpaolunan enerji üzrə aparıcı şirkət "Masdar", eləcə də Səudiyyə Ərəbistanı şirkətlərinin böyük "yaşıl enerji" layihələrində iştirakı Azərbaycanın regionda inkişaf edən "yaşıl enerji" mərkəzinə çevrilməsinə töhfə verir. Bu layihələr günəş və külək enerjisini, eləcə də "yaşıl hidrogen" istehsalını əhatə edir.

Azərbaycan Xəzər dənizi ilə istehlak bazarları arasında enerji körpüsü rolunu oynayaraq həm regional, həm də qeyri-regional tərəfdaşların enerji təhlükəsizliyinə töhfə verir. Qarşılıqlı faydalı əməkdaşlığa nümunə kimi ADNOC-un (Əbu-Dabi Milli Neft Şirkəti) "Cənub qaz dəhlizi"ndə pay əldə etməsi və Azərbaycanın qaz layihələrində iştirakı göstərilə bilər. Bu əməkdaşlıq təkcə Avropaya enerji təchizatını gücləndirmir, həm də Bakı ilə Körfəz ölkələri arasında geosiyasi əlaqələri möhkəmləndirir.

Azərbaycanla KƏŞ ölkələri arasında münasibətlər yalnız enerji ilə məhdudlaşmır. Azərbaycan ilə BƏƏ arasında qeyri-enerji ticarət dövriyyəsi 2 milyard ABŞ dollarını ötüb və Əbu-Dabi GCC ölkələri arasında Bakının əsas ticarət tərəfdaşına çevrilib. Ölkələr arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi iqtisadi inteqrasiyanın dərinləşdirilməsi üçün institusional baza yaradır.

Qafqaz, Avrasiya və ərəb dünyası arasında əlaqələndirici halqa kimi çıxış edən Azərbaycan, Səudiyyə Ərəbistanı, Qətər və BƏƏ-dən infrastruktur, enerji və turizm sahələrinə investisiyalar cəlb edərək çoxtərəfli əməkdaşlığın inkişafına və qarşılıqlı etimadın möhkəmlənməsinə töhfə verir.

Körfəz Əməkdaşlıq Şurası ölkələri ilə Cənubi Qafqaz arasında əlaqələrin genişlənməsi Türkiyə ilə dərinləşən münasibətlər kontekstində də nəzərdən keçirilməlidir. Ankara ilə Bakı arasında strateji müttəfiqlik, eləcə də Türkiyənin Gürcüstanla yaxın əlaqələri ərəb ölkələrinin regionda iqtisadi iştirakını sürətləndirib.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfərdən və ölkənin geosiyasi təsirinin artmasından sonra ərəb ölkələrinin strateji tərəfdaşlığa marağı daha da yüksəlib.

Ötən il BƏƏ ilə hərtərəfli strateji tərəfdaşlığın elan edilməsi və Səudiyyə Ərəbistanı ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi enerji və bərpaolunan enerji sahələrinə iri investisiyalar üçün yeni imkanlar yaradıb. Təhlükəsizlik sahəsində də əməkdaşlıq genişlənir. Azərbaycan və BƏƏ silahlı qüvvələri arasında birgə "Peace Shield-2026" təlimləri və müdafiə sahəsində əməkdaşlıq sənədlərinin imzalanması uzunmüddətli tərəfdaşlığa keçidin göstəricisidir.

# REGİONLAR

## Gəncədə Aprel şəhidlərinin ailələri ziyarət olunub

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Aprel döyüşləri zamanı şəhid olan Vaqif Bayramov və İnqilab Quliyevin ailə üzvlərini ziyarət edib.**

Görüşdə hər iki şəhidin keçdiyi şərəfli ömür yoluna nəzər salınıb, onların qəhrəmanlıqlarından bəhs olunub. Şəhid ailələrinin üzvləri çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Xatırladaq ki, İnqilab Quliyev "İgidliyə görə" medalı, Vaqif Bayramov isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunublar.



Görüş zamanı qeyd edilib ki, Zəfərimizin təməli Aprel döyüşlərində qoyulub. Odur ki, 2016-cı il Aprel döyüşləri tariximizin şərəfli və qürurverici səhifələrindən biri kimi yadda qalıb. Həmin döyüşlərdə Azərbaycan əsgərləri şücaət və qəhrəmanlıq nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirib, xalqımızın döyüş ruhunu və qələbə əzmini göstərib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## SDU tələbələrinin layihəsi maraq doğurub

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi, Elm və Təhsil Nazirliyinin Peşə Təhsili Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində bu ilin ilk "Bootcamp" proqramı təqdim olunub.**



Tədbirdə ölkənin 20-yə yaxın ali təhsil müəssisəsi, Cəlilabad Dövlət Peşə Təhsili Mərkəzindən 40 startapçı iştirak edib. Proqram çərçivəsində iştirakçılara Akselerasiya və İnkubasiya mərkəzləri, eləcə də aqrar sahədə fəaliyyət göstərən şirkətlər tərəfindən təqdimatlar keçirilib. Eyni zamanda Cəlilabadda yerləşən müasir təsərrüfat və müəssisələrə infoturlar təşkil edilib, proqram iştirakçılarına kənd təsərrüfatında innovativ həllərin real mühitdə öyrənilməsi, texnoloji yeniliklərlə yerində tanışlıq və təcrübə qazanmaq imkanı yaradılıb.

Bu mötəbər startap sərgisində Sumqayıt Dövlət Universitetinin (SDU) İnnovasiya Yaradıcılıq Mərkəzinin startapçıları, Mühəndislik fakültəsinin proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının 2-ci kurs tələbələri Rəşid Bağırov və Aydın Əhmədov iştirak ediblər. Sərgidə təqdim edilən "Kanal suyunu təmizləyən mobil qurğu" layihəsinin konstruksiyası və proqram vasitəsi sərgidə böyük marağa səbəb olub. SDU-nun tələbələri layihəni izah edərkən nümayəndələri maraqlandıran suallara cavab veriblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Qlobal çağırışlar fonunda Azərbaycanın regional inkişaf modeli

### Bölgələrdə yaradılan yeni iqtisadi imkanlar ölkənin dayanıqlı inkişafını gücləndirir

**Müasir dövrdə qlobal iqtisadi sistemdə baş verən dəyişikliklər, xüsusilə ərzaq təhlükəsizliyi ilə bağlı risklərin artması dövlətləri daxili istehsal imkanlarını gücləndirməyə vadar edir. Son illər dünya bazarlarında ərzaq məhsullarının qiymətlərində müşahidə olunan artım, logistika xərclərinin yüksəlməsi və geosiyasi gərginliklər bu sahədə idxaldan asılı ölkələr üçün əlavə risklər formalaşdırmışdır.**

Bu kontekstdə Azərbaycanın həyata keçirdiyi sosial-iqtisadi siyasət özünün sistemli və uzaqgörən xarakteri ilə seçilir. Prezident İlham Əliyevin Şamaxı rayonuna səfəri çərçivəsində istifadəyə verilmiş "Şirvan Aqro" heyvandarlıq kompleksi bu siyasətin konkret və məqsədyönlü nəticəsi kimi çıxış edir.

Əgər əvvəlki dövrlərlə müqayisə aparsaq görərik ki, xüsusilə 2000-ci illərin əvvəllərində Azərbaycanın aqrar sektoru əsasən ekstensiv inkişaf modeli üzərində qurulmuşdu və məhsuldarlıq səviyyəsi nisbətən aşağı idi. Müasir mərhələdə isə həyata keçirilən siyasət nəticəsində kənd təsərrüfatında intensiv və innovativ inkişaf modelinə keçid təmin edilmişdir. Şamaxıda yaradılan kompleks məhz bu transformasiyanın real göstəricisidir.

Sözügedən kompleks müasir texnologiyalarla təchiz olunmaqla aqrar sektorun keyfiyyətcə yeni mərhələyə keçdiyini nümayiş etdirir. Süni intellektə əsaslanan idarəetmə sistemləri, innovativ istehsal yanaşmaları və genetik seleksiya üsulları məhsuldarlığın artmasına və istehsalın səmərəliliyinin yüksəlməsinə imkan yaradır. Bu isə kənd təsərrüfatının ənənəvi modeldən çıxaraq yüksəktexnologiyalı aqrosənaye mərhələsinə keçdiyini göstərir. Kompleksin fəaliyyətə başlaması regionda iqtisadi aktivliyin artmasına, yeni iş yerlərinin yaradılmasına və əhalinin gəlir imkanlarının genişlənməsinə səbəb olacaq. Bu yanaşma regionların inkişafına yönəlmiş dövlət siyasətinin praktik nəticəsi kimi çıxış edir. Əgər əvvəllər iqtisadi aktivlik daha çox iri şəhərlərdə cəmləşirdisə, hazırda regionlarda yaradılan bu cür iri layihələr iqtisadi coğrafiyanın balanslaşdırılmasına xidmət edir. Eyni zamanda daxili istehsalın genişlənməsi idxaldan asılılığın azalmasına və ərzaq təhlükəsizliyinin güclənməsinə xidmət edir. Prezident İlham Əliyevin vurğuladığı kimi, əsas məqsəd ölkənin əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsini artırmaqdır . Bu isə yalnız iqtisadi deyil, həm də strateji təhlükəsizlik məsələsidir.

Azərbaycanın sosial-iqtisadi siyasətində insan kapitalının inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Müasir dövrdə iqtisadi artımın əsas mənbəyi artıq təbii resurslar deyil, bilik və innovasiyalara əsaslanan insan kapitalıdır.

Bu baxımdan təhsilə qoyulan investisiyalar gələcəyin güclü insan kapitalını formalaşdırır. Şamaxı Avropa liseyinin yeni binasının istifadəyə verilməsi də məhz dövlət siyasətinin strateji mahiyyətini aydın şəkildə nümayiş etdirir.

Əvvəlki dövrlərlə müqayisədə Azərbaycanda təhsil infrastrukturunun inkişafı xüsusilə son 15-20 ildə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Regionlarda müasir məktəblərin tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və innovativ tədris metodlarının tətbiqi bu sahədə ciddi irəliləyişlərin əldə edilməsinə səbəb olmuşdur.

Müasir standartlara uyğun qurulan bu təhsil müəssisəsi regionda yaşayan şagirdlər üçün keyfiyyətli təhsil imkanları yaradır. Laboratoriyalar, STEAM tədris mühiti və rəqəmsal avadanlıqlarla təchiz olunmuş lisey gənclərin müasir bilik və bacarıqlara yiyələnməsinə şərait yaradır. Bu isə gələcəkdə innovativ iqtisadiyyatın inkişafı üçün əsas baza rolunu oynayır. Təhsil sahəsinə yönəlmiş bu cür investisiyalar sosial bərabərliyin təmin olunmasına və inkişafın daha inklüziv xarakter almasına xidmət edir. Əgər əvvəl regionlarla paytaxt arasında təhsil imkanları baxımından müəyyən fərqlər mövcud idisə, hazırda bu fərqlərin azaldılması istiqamətində mühüm nəticələr əldə olunur.

İnsan kapitalının gücləndirilməsi isə uzunmüddətli perspektivdə ölkənin iqtisadi potensialının artmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olur. Bu baxımdan təhsil sahəsində həyata keçirilən siyasət Azərbaycanın gələcək inkişaf modelinin əsasını təşkil edir.

Toxunmaq istədiyimiz digər məsələ geosiyasi qeyri-sabitlik şəraitində Azərbaycanın inkişaf modelinin sabitliyi və artımı təmin etməsidir. Müasir dünyada geosiyasi gərginliyin artması və iqtisadi qeyri-sabitliyin dərinləşməsi bir çox ölkənin inkişaf tempinə mənfi təsir göstərir. Xüsusilə son illər regional münaqişələrin genişlənməsi, enerji bazarlarında qeyri-sabitlik və qlobal inflyasiya prosesləri dünya iqtisadiyyatında ciddi risklər yaratmışdır. Bu proseslər fonunda bir çox ölkədə iqtisadi artımın zəifləməsi, sosial problemlərin artması və investisiya mühitinin pisləşməsi müşahidə olunur. Lakin Azərbaycanın inkişaf modeli bu mənfi tendensiyalar fonunda öz dayanıqlılığı ilə seçilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkədə iqtisadi sabitlik qorunur, yeni layihələr reallaşdırılır və sosial rifah yüksəlir. Bu isə seçilmiş inkişaf modelinin effektivliyini göstərir. Əvvəlki illərlə müqayisədə ölkənin iqtisadi strukturu daha şaxələnmiş, qeyri-neft sektorunun payı artmış və regionların iqtisadi rolu güclənmişdir. Şamaxıda həyata keçirilən layihələr dövlət siyasətinin kompleks xarakter daşıdığını nümayiş etdirir. İqtisadi, sosial və infrastruktur sahələrinin paralel inkişafı ölkənin dayanıqlı inkişaf modelini gücləndirir. Bu yanaşma yalnız cari dövr üçün deyil, həm də uzunmüddətli perspektiv üçün mühüm əhəmiyyət kəsb edir.

Bu siyasət "Azərbaycan 2030" strateji hədəfləri ilə tam uyğunluq təşkil edir və gələcək inkişaf üçün möhkəm zəmin yaradır. Xüsusilə iqtisadi diversifikasiya, innovativ inkişaf və regionların gücləndirilməsi kimi istiqamətlər Azərbaycanın gələcəkdə daha rəqabətqabiliyyətli iqtisadi sistemə malik olmasını təmin edəcəkdir.



Nəticə etibarilə qlobal və regional çağırışların artdığı bir dövrdə Azərbaycanın inkişaf modeli yalnız mövcud sabitliyi qorumağa deyil, eyni zamanda yeni inkişaf imkanları yaratmağa yönəlmişdir. Bu model ölkənin iqtisadi müstəqilliyini gücləndirir və onu regionda dayanıqlı inkişaf nümunəsinə çevirir.

*Yaşar MƏMMƏDOV,*
*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru*

## İdman həm də sağlam sabahdır

### Cəlilabad gəncləri və yeniyetmələrində idmana həvəs ənənədən gəlir

**Cəlilabadda əvvəllər də adlı-sanlı idmançılar çox olub. Xüsusilə Ümummilli Lider Heydər Əliyevin respublikaya birinci rəhbərliyi zamanı rayonda uşaq idman məktəbinin işləri canlandırılıb və uşaq şahmat məktəbi fəaliyyətə başlayıb.**

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ölkəmizdə idman sahəsində də böyük irəliləyişlər əldə olunur. Mötəbər beynəlxalq yarışlara evsahibliyi edən Azərbaycanın idmançıları həm evdə, həm də müxtəlif ölkələrdə keçirilən yarışlarda medallar qazanır, bayrağımızı dalğalandırır, himnimizi səsləndirirlər.

Belə qələbələrin qazanılmasında bölgələrimizin, o cümlədən Cəlilabadın da payı az deyil. Rayonda idmana dövlət səviyyəsində qayğı var. 2012-ci ildə istifadəyə verilmiş olimpiya idman kompleksi və digər idman qurğuları bu gün cəlilabadlı yeniyetmələrin, gənclərin ixtiyarındadır. Mükəmməl idman infrastrukturuna malik olimpiya idman kompleksi müasir standartlara cavab verir və burada müxtəlif idman növləri ilə peşəkar səviyyədə məşğul olmaq üçün hər cür müasir şərait var.

Cəlilabadda idmanın ayrı-ayrı sahələrinə, xüsusən sərbəst güləş növünə maraq keçmişdən olub. Rayonda güləş idman məktəbinin təməlini SSRİ idman ustası, respublikanın Əməkdar məşqçisi Ərəbxan Hətəmov qoyub. O öz vəsaiti hesabına həyətində məşq zalı tikərək sərbəst güləş üzrə pəhləvanlar yetişdirib. Onun yetirmələrindən biri 1984-cü ildən SSRİ idman ustası olan Əməkdar məşqçi Telman Quliyevdir. Əvvəllər orta məktəbdə idman müəllimi işləyən, hazırda 70 yaşı olan Telman müəllim 1979-cu ildən bəri uşaq-gənclər idman məktəbində yeniyetmə və gənclərə ustadından aldığı peşənin sirlərini öyrədir. Onun yetirmələri arasında adlı-sanlı idmançılar - I Qarabağ müharibəsinin könüllü döyüşçüsü, SSRİ idman ustası Şahin Hüseynov, Qarabağ müharibəsi qazisi Nurəddin İsmayılov, respublikanın Əməkdar məşqçisi Ceyhun Ağamalıyev və onlarca belə güləşçilər çox olub.



Telman Quliyev həm də Vətən müharibəsinin və 2023-cü il antiterror əməliyyatının iştirakçısı, qazi, Prezidentin sərəncamları ilə orden və medallarla təltif edilmiş Ziya Quliyevin atasıdır. Ziya da idmançıdır, basketbolla məşğul olur. O, Ukraynada İqtisad Universitetini bitirib və hazırda rayon mərkəzi xəstəxanasında ixtisasına uyğun vəzifədə çalışır.

Bu gün də rayon idmançıları ölkə və beynəlxalq səviyyəli yarışlarda tez-tez fərqlənirlər. Yanvar ayında Lənkəranda uşaq və yeniyetmə şahmatçıların yarışında Cəlilabad məktəbliləri - 8 yaşadək qızlar arasında Zərifə Rəhmanzadə birinci, 12 yaşadək qızlar arasında Rüqəyya Niftalıyeva və 14 yaşadək qızlar arasında Nəzrin Bağırova, eləcə də 8 yaşadək oğlanlar arasında Məhəmməd Urşanov ikinci olublar.

Cəlilabad basketbolçuları da son illər yarışlarda yüksək nəticələr əldə edirlər. "Cəlilabad" BK Azərbaycan Basketbol Liqasına daxil olduqdan sonra rəsmi yarışlarda güclü oyun nümayiş etdirir.

Hər ilin sonunda - 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günündə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi yarışlar keçirir. Bu il də yunan-Roma güləşi üzrə təşkil edilən turnirdə cəlilabadlı idmançılar fərqləniblər.

İllərdən bəridir ki, 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü Cəlilabadda təntənəli qeyd olunur, rayon səviyyəsində yarışlar keçirilir, yerli idmançılar müxtəlif turnirlərə qatılırlar. Rayonun adlı-sanlı idmançılarının hakimlik etdikləri bu idman festivalında rayon rəhbərliyi, idarə və müəssisələrin işçiləri, ictimaiyyət nümayəndələri iştirak edirlər.

Bununla belə idman sahəsində Cəlilabadda hələ görüləsi işlər çoxdur. Məsələn, futbolu inkişaf etdirmək, o cümlədən şəhərdəki futbol meydançasını abadlaşdırmaq, "Abad həyət" layihəsi çərçivəsində məhəllələrdə kütləvi idman qurğuları quraşdırmaq və s. bu kimi işlər bütövlükdə gənclər və yeniyetmələr arasında idmana marağı daha da artırardı.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Bənəniyar su anbarını qidalandıran kanalın yenidən qurulması davam edir

### Layihə çərçivəsində 6 550 metrlik kanalın yenilənməsi nəzərdə tutulur

**Naxçıvan Muxtar Respublikasında səfərdə olan kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təsərrüfatlara baş çəkib, fermerlərlə görüşüb.**

Səfər çərçivəsində nazir əvvəlcə Əlincəçay-Bənəniyar su kanalına və Bənəniyar su anbarına baxış keçirib. Nazirə məlumat verilib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, Əlincəçaydan su götürən və Culfa rayonu ərazisində yerləşən Bənəniyar su anbarını qidalandıran kanalın yenidənqurulması işləri davam etdirilir. Layihə çərçivəsində ümumilikdə 6 550 metr uzunluğunda kanalın yenilənməsi nəzərdə tutulur.

Daha sonra M.Məmmədov Ordubad rayonunun Dəstə kəndində təsərrüfatlara baş çəkib, fermerlərlə görüşüb. Görüşdə əsasən qurulacaq su infrastrukturuna paralel olaraq, kooperativlərin yaradılması, torpaq və su resurslarından səmərəli istifadə edilməsi məsələləri müzakirə edilib. Ardınca aqrar sahəyə dövlət dəstəyi tədbirləri, kənd təsərrüfatının inkişafı, suvarma sistemlərinin genişləndirilməsi istiqamətində stimullaşdırıcı tədbirlər və digər mövzularda fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti mənbəyi Araz çayı olan "Araz-1" və "Araz-2" nasos stansiyalarının yenidənqurma işləri və su xəttinin çəkilişi prosesi ilə də tanış olublar. Səfər iştirakçılarına məlumat verilib ki, bu nasos stansiyaları vasitəsilə Babək rayonunun Nehrəm qəsəbəsi, Araz və Çeşməbasar kəndlərinin torpaq sahələri suvarılır. Hazırda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına uyğun olaraq, layihə üzrə tikinti işləri mərhələli şəkildə davam etdirilir. Layihə tam başa çatdıqdan sonra Nehrəm qəsəbəsindəki 1000 hektar torpaq sahəsi ilə yanaşı, əlavə olaraq 2000 hektara yaxın suvarılan torpaq sahəsinin də su təminatı yaxşılaşdırılacaq.

Səfər iştirakçıları Şərur rayonunda kartof, tütün sahələrinə baş çəkib, rayonda su kanallarının mövcud vəziyyəti ilə tanış olub, kənd təsərrüfatı sahələrinə suvarma suyunun səmərəli və itkiyə yol verilmədən çatdırılması üçün görülən işlərlə maraqlanıblar.

*"Azərbaycan"*





**2026 Şəhərsalma və Memarlıq İli**



# Bakı - Şərqlə Qərbin ortaq şəhəri



**Xəzərin sahilində yerləşən qədim Bakı təkcə coğrafi məkan deyil, əsrlərin sınağından çıxaraq bu günə qədər öz simasını qoruyub saxlayan, mədəniyyətlərin, sivilizasiyaların və memarlıq ənənələrinin qovuşduğu canlı bir tarixdir. Bu gün şəhərin küçələrindən keçən insanlar, qonaqlar bir tərəfdə tarix, digər tərəfdə isə şəhərin simasına yeni rəng qatan müasir tikililərlə üzləşirlər. Bu məkanlarda memarlıq yalnız estetik ruh deyil, həm də milli-mədəni tarix, milli kimlik və xalqın özünüdərkidir.**

Xüsusən İçərişəhər kimi qədim məkan Bakının ilkin memarlıq nüvəsini təşkil edir. Dar küçələr, alçaq evlər, tarixi abidələr bu ərazidə Şərq memarlığının incəliklərini özündə yaşadır. Digər tərəfdən isə XIX-XX əsrlərdə neft bumu ilə əlaqədar şəhərə daxil olan Avropa memarlıq üslubu Bakının görünüşünü daha da zənginləşdirir. Məhz bu səbəbdən Bakı bu gün Şərq və Qərb memarlıq məktəblərinin harmonik sintezinin ən canlı nümunələrindən biri kimi çıxış edir. Burada klassik Avropa üslubunda tikilmiş binalarda milli ornamentlərlə zəngin Şərq memarlığının sintezi şəhərə özünəməxsus estetik gözəllik bəxş edir.

XIX əsrdə neftin gətirdiyi sərvət Avropa memarlığının ən nadir incilərinin Bakıya transformasiyası ilə nəticələndi. İsmailiyyə binası, Tağıyev sarayı kimi tikililər şəhərə yeni nəfəs gətirdi. Bu binalar yalnız daş və dekor deyil, həm də o dövrün sosial və iqtisadi gücünün simvoluna çevrilən tarixi abidələrdir.

Qürurla qeyd edə bilərik ki, bu gün Bakı müasir şəhərsalma mədəniyyətinin yeni nümunələrini yaratmaqla dünyanın diqqətini özünə çəkməyi bacarıb. Heydər Əliyev Mərkəzi, Bakı Konqres Mərkəzi, "Alov qüllələri" kimi layihələr paytaxtımızı dünyaya yeni obrazda təqdim edir. Bu sıraya Bakı Olimpiya Stadionu, Bakı Kristal Zalı kimi nəhəng və funksional obyektləri də əlavə etdikdə bir daha aydın olur ki, paytaxtımız artıq təkcə regional deyil, beynəlxalq miqyasda da mühüm memarlıq mərkəzinə çevrilməkdədir. Bu tikililər yalnız forma baxımından deyil, həm də funksional və simvolik məna baxımından müasir Azərbaycanın inkişaf tempini və ambisiyalarını əks etdirir.

Son illər isə Bakının memarlıq mənzərəsi yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Dövlət tərəfindən həyata keçirilən genişmiqyaslı abadlıq və yenidənqurma işlərinin nəticəsi olaraq şəhərin siması daha da gözəlləşərək yeni məzmun kəsb edib. Onu da qeyd etməliyik ki, bu işlər tarixi irsin qorunmasına xüsusi önəm verilməklə həyata keçirilir. Bu baxımdan Bakı Ağ Şəhər layihəsi xüsusi qeyd olunmalıdır. Bir zamanlar sənaye zonası - "Qara şəhər" kimi tanınan bu ərazi indi müasir urbanistik yanaşmanın, ekoloji təmizliyin və estetik memarlığın simvoluna çevrilib.

İftixar duyulası faktdır ki, abadlıq və quruculuq işləri paytaxtın ucqar rayonlarını da əhatə edir. Xüsusilə Binəqədi rayonu ərazisində həyata keçirilən genişmiqyaslı yenidənqurma tədbirləri - parkların salınması, həyətlərin abadlaşdırılması və yeni sosial infrastrukturun yaradılması şəhər sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Həmçinin Balaxanı qəsəbəsi son illər nümunəvi yaşayış məntəqəsinə çevrilərək təmizlik, ekoloji yanaşma və milli memarlıq elementlərinin qorunması baxımından xüsusi diqqət çəkir. Burada aparılan abadlıq işləri təkcə fiziki mühitin dəyişməsi deyil, həm də sosial-mədəni mühitin yenilənməsi kimi qiymətləndirilə bilər. Suraxanı rayonunun Ramana qəsəbəsində həyata keçirilən quruculuq işləri də inkişafın sistemli şəkildə olduğunu təsdiq edən amildir. Tarixi abidələrin qorunması ilə yanaşı, yeni yolların çəkilməsi, yaşayış sahələrinin yenilənməsi və müasir infrastrukturun qurulması bu əraziləri paytaxtın ümumi memarlıq sisteminə daha sıx inteqrasiya edir.





Digər diqqətçəkən dəyişikliklərdən biri isə vaxtilə "Sovetski" kimi tanınan ərazidə aparılan yenidənqurma işləridir. Həmin ərazi uzun illər köhnə və plansız tikililərlə yadda qalsa da, burada yeni salınan park şəhər sakinləri və qonaqlar üçün müasir istirahət məkanına çevrilmişdir. Yeri gəlmişkən, Bakı yalnız binaları ilə deyil, həm də park və ictimai məkanları ilə diqqət çəkir. Şəhərin ən qədim yaşıllıq məkanlarından biri olan keçmiş Qubernator (indiki Filarmoniya) bağı uzun illərdir paytaxtın mədəni həyatında mühüm rol oynayır. Bununla yanaşı, Xəzər sahili boyunca uzanan Dənizkənarı Milli Park çoxdan paytaxtımızın vizit kartına çevrilib. Şəhərin relyef xüsusiyyətləri isə özünəməxsus nəqliyyat və memarlıq həllərinin yaranmasına səbəb olub. Bu baxımdan Bakı funikulyoru həm funksional, həm də estetik baxımdan artıq neçə illərdir şəhərin simvollarından biridir.

Bütün bu nümunələr onu deməyə əsas verir ki, Bakı memarlıq baxımından keçmişin, bu günün və gələcəyin şəhəridir. Burada qədim qala divarları ilə müasir memarlıq nümunələri, klassik Avropa üslubu ilə milli ornamentlər harmonik vəhdət təşkil edir. Bakı bu gün tarixlə müasirliyin, Şərqlə Qərbin, qədim ənənə ilə yeniliyin qovuşduğu möhtəşəm bir memarlıq səhnəsidir.

*Elşən QƏNİYEV,*
*İ.BABAYEV (foto)*
*"Azərbaycan"*

# Kitabxananın yeni layihəsi - "Ağıllı irs: Azərbaycan memarlığının rəqəmsal təqdimatı"

## Layihəni Gənclər Kitabxanası süni intellekt vasitəsilə hazırlayıb

**"Şəhərsalma və Memarlıq İli" ilə bağlı sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası tərəfindən innovativ yanaşmaya əsaslanan bir sıra layihələr reallaşdırılır. Bu kitabxanada süni intellekt texnologiyalarının tətbiqi ilə "Ağıllı irs: Azərbaycan memarlığının rəqəmsal təqdimatı" layihəsinə başlanılıb.**



Kitabxanadan bildirilib ki, layihə çərçivəsində Azərbaycan memarlığının nadir nümunələri süni intellekt vasitəsilə canlandırılır, onların tarixi və estetik dəyəri geniş auditoriyaya çatdırılır, hazırlanan təqdimatlar milli memarlıq incilərimizin yeni prizmadan təqdim olunmasına imkan yaradır.

Hazırlanan təqdimatlarda ilk növbədə Azərbaycan intibah memarlığının görkəmli nümayəndəsi Əcəmi Naxçıvaninin yaradıcılığına xüsusi yer verilib. Onun memarlıq üslubu, yaratdığı abidələrin bədii-estetik xüsusiyyətləri, Şərq memarlığında tutduğu mövqe süni intellekt vasitəsilə vizual və analitik formada təqdim olunub. Bu yanaşma istifadəçilərə tarixi şəxsiyyətin fəaliyyətini daha dərindən qavramaq imkanı yaradır.

Eyni zamanda Azərbaycanın simvollarından biri olan Qız qalası haqqında hazırlanmış təqdimatda abidənin sirli tarixi, memarlıq xüsusiyyətləri və müxtəlif elmi yanaşmalar əsasında irəli sürülmüş müxtəlif məlumatlar geniş şəkildə əks etdirilir. Süni intellekt texnologiyası vasitəsilə qalaya dair müxtəlif dövrlərə aid vizual rekonstruksiyalar təqdim olunaraq onun dünəndən bu günə inkişaf mərhələləri canlandırılıb.

Digər mühüm memarlıq kompleksi olan Şirvanşahlar sarayı isə "Şirvanın günəşli incisi" kimi təqdim olunub, sarayın tikilmə tarixi, memarlıq kompozisiyası və Azərbaycan dövlətçilik tarixində rolu geniş şəkildə işıqlandırılıb. Süni intellekt vasitəsilə hazırlanmış interaktiv təqdimatlar istifadəçilərə saray kompleksini virtual şəkildə "gəzmək" imkanı yaradır ki, bu da mədəni irsin öyrənilməsində yeni mərhələ hesab oluna bilər.

Bundan əlavə, Azərbaycanın musiqi mədəniyyətinin mühüm ocaqlarından biri olan Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası haqqında hazırlanmış təqdimatda da binanın memarlıq xüsusiyyətləri, akustik imkanları və ölkənin mədəni həyatındakı rolu xüsusi vurğulanır. Süni intellekt texnologiyası burada həm tarixi faktların sistemləşdirilməsi, həm də vizual materialların zənginləşdirilməsi baxımından əvəzsiz rol oynayır.

Ümumilikdə, süni intellektin tətbiqi bu cür layihələrdə bir sıra mühüm üstünlüklər yaradır. İlk növbədə böyükhəcmli məlumatların sürətli emalı və sistemləşdirilməsi mümkün olur. Həmçinin bu texnologiya həm də gənc nəslin diqqətini cəlb etməklə onların milli irsə marağını artırır, öyrənmə prosesini interaktiv və cəlbedici edir.

Qeyd edək ki, müasir dövrdə süni intellekt yalnız texnoloji yenilik deyil, həm də mədəniyyətin qorunması və təbliği üçün bir vasitədir.

# Zivər bəy Əhmədbəyov - qaranlıq dövrün işıqlı memarı

**Milli memarlıq xəzinəsinə misilsiz töhfələr vermiş Zivər bəy Əhmədbəyovun adı hər bir soydaşımız üçün qürur mənbəyidir. O, ömrünün erkən çağlarından mehrini memarlıq sənətinə salmış, bu sahənin sirlərini dərindən öyrənmiş, Bakıda, eləcə də Vətənin başqa guşələrində bir-birindən gözəl abidələr ucaltmışdı.**



Zivər bəy Gəray bəy oğlu Əhmədbəyov ziyalı bir ailənin sonbeşiyi idi. 1873-cü ildə Şamaxı şəhərində anadan olmuşdu. Atası Gəray bəy Şamaxıdakı quberniya idarəsində kiçik məmur vəzifəsində işləyirdi. Ömrünü maarif işinin təşkilinə həsr etmişdi. Anası Töhfə xanım da o dövrün şərtləri daxilində yaxşı təhsil görmüşdü. Ədəbiyyata, musiqiyə dərindən bələd idi, hətta şeir də yazırdı.

Zivər bəy Əhmədbəyov ilk təhsilini mədrəsədə almışdı. Uşaqlıqdan ədəbiyyata, musiqiyə, rəssamlığa böyük maraq göstərirdi. Təhsildəki nailiyyətlərini nəzərə alaraq 1893-cü ildə ona Sankt-Peterburqda yerləşən I Nikolay adına Mülki Mühəndislər İnstitutunda oxumaq üçün göndəriş verirlər. Həmin dövrdə memarlıq ən nüfuzlu peşələrdən idi və bu ali təhsil ocağında əsasən varlı zadəgan övladları oxuyurdular. Zivər bəy burada seçdiyi sənətə mükəmməl yiyələnir. 1902-ci ildə institutu uğurla başa vurub Bakı Quberniya İdarəsində işə başlayır.





Bu o zaman idi ki, Zivər bəy ali təhsilini başa vurub Vətənə qayıtdığı il - yəni 1902-ci ildə Şamaxıda çox güclü zəlzələ baş vermişdi. Təbii fəlakət nəticəsində şəhərdə 4 min yaşayış evi, 8 qədim məscid, 2 kilsə, 10-dan artıq mədrəsə, 40 qədim Şərq hamamı, onlarca ticarət obyekti, bazar-dükan dağılaraq yerlə-yeksan olmuşdu. Şamaxı qəzasında yerləşən 126 kənddə də 3 mindən çox ev, 40 məscid və çoxlu təsərrüfat tikililəri dağılmışdı. Zəlzələdən sonrakı illərdə Şamaxıda dağıntıların aradan qaldırılması istiqamətində Zivər bəy Əhmədbəyov şəhərin məhəllələrinin düzgün planlaşdırılmasına və tikilməsinə, zəlzələ zamanı ziyan dəymiş Şamaxı Cümə Məscidinin bərpası layihəsinin hazırlanmasına böyük əmək sərf etmişdi.

1903-cü ilin oktyabr ayında Cümə məscidinin bərpasına ianə toplamaq məqsədilə komitə yaradılır. Ölçmə çertyojları və başqa materiallar olmadığına görə abidəni tam bərpa etmək çətin idi. Tikilinin memarlıq dəyərini qiymətləndirməyə qabil olmayan, ona tarixi abidədən daha çox dini ibadət məkanı kimi baxan komitə üzvləri məscidin qədim bünövrəsinin və qorunmuş hissələrinin saxlanılması əsasında bərpasını məqbul sayırlar. Komitənin tapşırığı əsasında Şamaxı Cümə Məscidinin bərpası üzrə layihə hazırlayan Zivər bəy Əhmədbəyov isə həm dağılmış binanın cizgilərini saxlamağa, həm də binanın qalan hissələrindən istifadə etməyə çalışır. Gənc memarın rəhbərliyi ilə kürsü daşı qoyulur, mərkəzi mehrabın arxa divarı qismən tikilir, yan divarların inşası da davam etdirilərkən Zivər bəylə komitə arasında hansısa səbəbdən narazılıq yaranır. İnşaat işləri dayandırılır və Zivər bəy tikintini tərk edir. Daha sonra bu işə İ.Ploşko cəlb olunur. O, Zivər bəy Əhmədbəyovun plan quruluşunu saxlayaraq layihəni bir qədər də təkmilləşdirir və məscidin bərpası başa çatdırılır.

### Memarın şah əsəri - Təzəpir məscidi

1905-1914-cü illərdə Zivər bəyin layihəsi əsasında Bakıda Təzəpir məscidi inşa olunur. Azərbaycan tarixində özünəməxsus yer tutan bu memarlıq abidəsinin layihəsini hazırlamaqdan ötrü Zivər bəy Əhmədbəyov çox ciddi çalışır. Məscidin tikintisini dövrünün məşhur xeyriyyəçi xanımlarından Nabat xanım Aşurbəyova maliyyələşdirmişdi.

O, layihə üzərində işləyərkən müxtəlif Şərq ölkələrinin məşhur məscidlərinin memarlıq xüsusiyyətlərindən bəhrələnmək üçün Zivər bəyi ayrı-ayrı ölkələrə, dini abidələri ziyarət etməyə göndərir. Uzunmüddətli ziyarətdən qayıdan memar arzuladığı hündür minarəli yaraşıqlı məscidin layihəsini Nabat xanıma təqdim edir. Əfsuslar olsun ki, Bakı Quberniya İdarəsinin qoyduğu müəyyən məhdudiyyətlərə görə minarəni nəzərdə tutulan hündürlükdə inşa etmək mümkün olmur. Məhdudiyyət onunla bağlı idi ki, təxminən eyni vaxtda Təzəpirə yaxın ərazidə el arasında "Qızıllı kilsə" kimi tanınan Aleksandr Nevski pravoslav kilsəsi tikilmişdi. Quberniya İdarəsi Təzəpir məscidinin öz hündürlüyü və yaraşığına görə həmin kilsədən üstün olmasını istəmirdi. Ona görə idarədən Zivər bəyə ciddi xəbərdarlıq edilir ki, Təzəpir məscidi Aleksandr Nevski kilsəsindən hündür tikilməməlidir.

Görkəmli memar Təzəpir məscidindən başqa həmin illərdə Göyçaydakı Əbülfəzl Abbas məscidini, Şamaxıdakı İmam məscidini, Cümə məscidini, Bakıda tikilmiş "Səadət" məktəbinin binasını, "İttifaq" məscidini, müxtəlif yaşayış evləri və digər tikililəri, həmçinin Əmircanda məşhur Bakı milyonçusu Murtuza Muxtarovun tikdirdiyi məscidin binasını da layihələndirmişdi. Əmircandakı məscid bir zamanlar Azərbaycanın ən hündür minarəli məscidi hesab olunurdu. Onun minarələrinin hündürlüyü 40 metrdən artıqdır. Murtuza Muxtarov məscidi Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESCO-nun tarixi abidələr siyahısına salınıb.

Zivər bəy Əhmədbəyovun böyük sənətkarlıq istedadı ilə ucaltdığı və bu gün də Bakının memarlıq inciləri sırasında özünəməxsus rol oynayan tikililərdən biri də paytaxt sakinləri arasında Əjdərbəy məscidi, yaxud "Göy məscid" kimi tanınan abidədir. Bu məscid dövrünün xeyriyyəçilərindən olan Əjdər bəy Aşurbəyovun vəsaiti ilə tikilmişdi. O, Təzəpir məscidinin inşasını maliyyələşdirmiş Nabat xanım Aşurbəyovanın qardaşı idi. 1905-ci ildə tikili üçün Bakıda münasib yer axtarılır. Nəhayət ki, o zaman Qanlı təpə adlanan ərazi bəyənilir və məscidin bünövrəsi qoyulur. Əjdərbəy məscidinin memarlıq xüsusiyyətlərinin özünəməxsus cəhətləri ondadır ki, bu tikilidə Kəbənin, Kərbəla məscidinin müəyyən elementlərindən istifadə olunub.

Milli memarlıq irsi Zivər bəy Əhmədbəyovun yaradıcılığında aparıcı xətt təşkil edirdi. Bununla yanaşı, görkəmli memar Avropa klassisizminin uğurlarından da bəhrələnirdi. Onun layihələri ilə Bakıda inşa edilmiş "Doğum evi"nin, "Uşaq xəstəxanası"nın (indiki Elmi-Tədqiqat Ana və Uşaq Mühafizəsi İnstitutu), həmçinin Bakıda və Şamaxıda tikilmiş bir sıra yaşayış evlərinin memarlıq elementlərində bunu müşahidə edə bilərik.

### 1918-1920-ci il Bakısının baş memarı

Zivər bəy Əhmədbəyov ictimai fəaliyyətlə də məşğul olurdu. O, 1919-cu ildə Şamaxıda mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olan "Yeni Şirvan" cəmiyyətini yaratmışdı. Şamaxıda doğulub-böyüyən Zivər bəyi bu şəhərdə kitabxananın olmaması çox narahat edirdi. Buna görə də Şamaxıda kitabxana binası tikərək onu lazımi kitablar və digər vəsaitlərlə təmin etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəri dövründə o, artıq Bakının baş memarı kimi fəaliyyət göstərirdi. Şəhərin daşnaklardan və eser-menşeviklərdən ibarət "Sentrokaspi diktaturası"ndan azad edilməsi zamanı şəhid olmuş azərbaycanlı və türk əsgərlərinin xatirəsini əbədiləşdirmək məqsədilə keçmiş Çəmbərəkənd qəbiristanlığında - indiki Şəhidlər xiyabanında ucaldılmış abidə kompleksinin layihəsi də məhz Zivər bəy Əhmədbəyova məxsusdur. Altıbucaqlı türbə görünüşündə olan həmin layihədə Orta əsr Azərbaycan memarlıq incilərindən məharətlə istifadə edilmişdir.

### Ölüm hökmünü özü verdi

Əfsuslar olsun ki, bolşeviklərin zorakı üsullarla hakimiyyəti ələ keçirmələri və öz zəmanələrinin ən işıqlı şəxsiyyətlərinə qarşı başladıqları kütləvi repressiyalar Zivər bəy Əhmədbəyovun da taleyində yaşandı və onu bu həyatdan qoparıb apardı. Zivər bəy cinayət əməlləri heç bir sərhəd tanımayan "qırmızı"ların öz terrorçu hərəkətləri ilə cəmiyyəti hara sürüklədiklərini yaxşı anlayırdı. Mühitindəki ziyalıların, ünsiyyətdə olub ülfət qurduğu dost-tanışlarının çoxu öldürülmüş, həbsə atılmışdı.

Zivər bəy baş verənləri aydın görür, qətl və ya həbs növbəsinin tezliklə ona da çatacağını duyurdu. Artıq 1925-ci ilə doğru psixoloji gərginlik elə həddə çatmışdı ki, Zivər bəy Əhmədbəyov ya qürbəti, ya da Vətəndə ölümü seçməli idi. O, ikincini - Vətən torpağına qarışmağı seçdi və bununla ölüm hökmünü özü verdi. 1925-ci ilin 16 fevral günü Çəmbərəkənddə yerləşən evində özünü güllələdi. Dünyadan köçəndə cəmi 52 yaşı vardı, istedadının, memarlıq qüdrətinin ən parlaq vədələrində Azərbaycanın müxtəlif şəhərlərində hələ nə qədər abidə ucalda bilərdi...

Ölümündən sonra Çəmbərəkənd qəbiristanlığında dəfn olunan Zivər bəyə məzarda da rahatlıq vermədilər. Qızı Firəngiz xanım xatirələrində yazırdı ki, 1931-ci ildə hökumətin qəbul etdiyi qərarla Çəmbərəkənd qəbiristanlığı dağıdıldı. Məzarların üstündə Dağüstü park salındı. O, atasının məzarını indiki Fəxri xiyaban ərazisinə köçürsə də, bir neçə ildən sonra Fəxri xiyabanın qurulması ilə əlaqədar köhnə qəbiristanlıq da alt-üst edilir və Zivər bəy Əhmədbəyovun məzarı itərək torpağa qarışır... Bununla Bakıya, bütövlükdə Azərbaycana neçə-neçə abidə qoyub getmiş memara bir başdaşı da qismət olmur.

Amma bu gün dövlətimiz Azərbaycan tarixində nəcib izləri olan başqa böyük şəxsiyyətlərimiz kimi, Zivər bəy Əhmədbəyovun da irsinə böyük dəyər verir. 2011-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Bakıda - metronun "Nizami" stansiyası qarşısında Zivər bəy Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olur. Memarın heykəli onun layihəsi ilə tikilmiş binanın önündə ucalır. Yaxınlıqdakı küçəyə də bu görkəmli memarın adı verilir.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

4 Aprel Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günüdür

# Mina terrorçuluğu bütün bəşəriyyət üçün ağrılı problemdir

**Mina təhlükəsi müasir dünyanın ən ağrılı humanitar problemlərindən biri olaraq qalır. Hər il 4 aprel tarixi dünyada Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü kimi qeyd olunur. 2005-ci il dekabrın 8-də BMT Baş Assambleyasının qətnaməsi ilə təsis edilən bu tarix minaların və müharibənin partlayıcı qalıqlarının yaratdığı təhlükəyə diqqət çəkmək məqsədi daşıyır.**










Minalar insan həyatını təhlükəyə atmaqla yanaşı, ölkələrin sosial-iqtisadi inkişafına ciddi maneələr yaradır. Xüsusilə münaqişədən zərər çəkmiş bölgələrdə yaşayış məntəqələrinin bərpası, kənd təsərrüfatı fəaliyyətinin yenidən qurulması və insanların öz evlərinə qayıdışı bu təhlükə səbəbindən ləngiyir.

Azərbaycan mina təhlükəsindən əziyyət çəkən dövlətlər sırasındadır. Ermənistanın 30 ilə yaxın davam edən işğalı dövründə, eləcə də postmünaqişə mərhələsində ölkəmizin əraziləri minalarla çirkləndirilib. Ermənistan 44 günlük Vətən müharibəsindən sonra da mina terrorunu davam etdirib. Hətta postmünaqişə dövründə Laçın və Kəlbəcər rayonlarında 2021-ci il istehsalı olan minlərlə piyada əleyhinə minanın aşkar olunması bu təhlükənin davam etdiyini təsdiqləyib. İndiyədək baş vermiş mina hadisələrinin coğrafiyası, onların əksəriyyətinin keçmiş təmas xəttindən kənarda, xüsusilə mülki obyektlərin, yaşayış məntəqələrinin, habelə məzarlıqların yerləşdikləri məkanlarda baş verməsi Ermənistanın mina təhdidinin məqsədyönlü şəkildə mülki əhali arasında itkilərin çox olmasına yönəldiyini sübut edir. Bu da öz növbəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı mövcud etnik nifrət və dözümsüzlüyün növbəti təzahürü kimi diqqət çəkir.

Ölkəmiz tərəfindən bu təhdidə son qoymaq məqsədilə minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən təqdim edilməsinə dair dəfələrlə çağırışlara baxmayaraq, bu ölkə bir müddət, ümumiyyətlə, belə xəritələrin mövcudluğunu inkar edib. Sonradan beynəlxalq ictimaiyyət tərəfindən göstərilən təzyiqlər nəticəsində İrəvanın təqdim etdiyi minalanmış ərazilərin kiçik bir hissəsinin əhatə olunduğu məlumatların etibarlılığı isə cəmi 25 faiz idi. Ermənistan tərəfindən mina təhdidinə münasibətdə sərgilənən davranış postmünaqişə dövründə bölgədə dayanıqlı sülh və etimad quruculuğu istiqamətində görülən tədbirlərə daha bir zərbədir.

Mina təhlükəsi bu gün də vətəndaşlarımızın həyat və sağlamlığı üçün ciddi təhdid olaraq qalır. Xüsusilə keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı prosesində bu problem əsas maneələrdən biridir. Bərpa və yenidənqurma işlərinin ləngiməsi də məhz bu təhlükə ilə bağlıdır.

Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında 4 Aprel Beynəlxalq Mina Təhlükəsi barədə Maarifləndirmə Günü ilə bağlı paylaşım edib. "Dünya irəliyə doğru addımladığı halda, Azərbaycan hər gün səssiz və görünməz bir təhlükə ilə yaşamağa davam edir. 30 illik işğal dövründə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin təxminən 12 faizi 1,5 milyondan çox mina ilə çirkləndirilib. 2020-ci ildən sonra sülh dövründə 400-dən çox mülki şəxs həlak olub və ya ağır yaralanıb. Mina çirklənməsi Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində yenidənqurma və bərpa işlərinə, həmçinin keçmiş təhlükəsiz və rahat şəraitdə qayıdışına mane olur. Bunlar, sadəcə, rəqəmlər deyil. Bunlar yarımçıq qalan həyatların, dağılan ailələrin, oğurlanan gələcəklərin hekayəsidir. Minalardan təmizləmə yalnız texniki proses deyil. Bu ədalətdir. Bu insan ləyaqətidir. Bu, insanların öz evlərinə təhlükəsiz qayıtmaq hüququdur", - deyə Hikmət Hacıyev bildirib.

Paylaşımda qeyd olunub ki, 10 noyabr 2020-ci il tarixindən 1 aprel 2026-cı ilədək mina partlayışları nəticəsində ümumilikdə 421 nəfər zərər çəkib. Zərərçəkənlərdən 72 nəfər həlak olub, 349 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Mina qurbanlarının 228 nəfəri mülki şəxsdir. Onlardan 57 nəfər həyatını itirib, 171 nəfər yaralanıb. Hərbi qulluqçular arasında isə 193 nəfər mina partlayışlarının qurbanı olub. Onlardan 15 nəfəri həlak olub, 178 nəfər yaralanıb.

Ümumilikdə isə 1991-ci ildən bu günədək Azərbaycanda mina qurbanlarının sayı 3400 nəfəri ötüb. Onların arasında 362 nəfər uşaq və gənc, 38 nəfər isə qadın olub. Bütün bu faktlar mina probleminin bu gün də aktual olaraq qaldığını göstərir.

Beynəlxalq hüquq da bu məsələyə xüsusi həssaslıqla yanaşır. 1997-ci ildən "Piyada əleyhinə minaların istifadəsi, ehtiyatı, istehsalı və təhvilinin qadağan edilməsi və onların məhvi haqqında" Konvensiyanın imzalanmaya açıldığı vaxtdan bəri 164 ölkə onu ratifikasiya edib və ya bu sənədə qoşulub. Bu, misli görünməmiş koalisiyanın məlumat kampaniyası piyada əleyhinə minaların mülki şəxslərə təsiri barədə ictimaiyyətin məlumatlılığını artırıb və ümumi qadağan edilmə tədbirləri üçün qlobal dəstəyi səfərbər edib.

Dünyanın müxtəlif bölgələrində müharibələrin mirası kimi qalan partlayıcı qalıqlar zaman-zaman yeni faciələrə səbəb olur. Buna görə də beynəlxalq ictimaiyyətin bu istiqamətdə daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməsi olduqca vacibdir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Horovluda körpələr evi-uşaq bağçası fəaliyyətə başlayıb

**İşğaldan azad olunmuş Cəbrayıl rayonunun Horovlu kəndində körpələr evi-uşaq bağçası fəaliyyətə başlayıb.**



Şərqi Zəngəzur Regional Təhsil İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə idarənin müdiri Fuad Bədəlov, Cəbrayıl Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı Anar Əkbərov, idarə əməkdaşları, bağçanın kollektivi, valideynlər və qonaqlar iştirak ediblər.

Tədbirdə Şərqi Zəngəzur RTİ-nin müdiri Fuad Bədəlov çıxış edərək məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətə başlaması münasibətilə valideynləri və təhsil işçilərini təbrik edib, onlara uğurlar arzulayıb. Daha sonra çıxış edənlər bildiriblər ki, yeni təhsil müəssisələrinin fəaliyyətə başlaması bu torpaqlara qayıdan həyatın ən parlaq simvoludur.

Sonra tədbir iştirakçıları bağçada yaradılmış şəraitlə tanış olublar.

Qeyd edək ki, Cəbrayıl rayonu Horovlu kənd körpələr evi-uşaq bağçası Şərqi Zəngəzur Regional Təhsil İdarəsi üzrə işğaldan azad olunmuş torpaqlarda fəaliyyətə başlayan 6-cı məktəbəqədər təhsil müəssisəsidir.

# Gələcəyin tankçıları

**Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Ordusunun Təlim-Tədris Mərkəzində kursantlarla praktiki məşğələlər uğurla davam edir.**



Təlimlər zamanı kursantlar təlim-döyüş texnikalarının idarə olunması, döyüş şəraitində düzgün manevretmə və ekipaj daxilində koordinasiyanın təmin edilməsi üzrə bilik və bacarıqlarını möhkəmləndirirlər.

Bu proses onların operativ qərarvermə qabiliyyətinin artırılmasına, döyüş hazırlığının yüksəldilməsinə və real şəraitə uyğun peşəkar vərdişlərin formalaşdırılmasına xidmət edir.

Kursantlar burada yalnız bilik deyil, eyni zamanda iradə, məsuliyyət və qətiyyət qazanırlar.

AZƏRTAC praktiki məşğələlərlə bağlı fotoları təqdim edir.






# "Samsung"un yeni tətbiqi

**"Samsung" hərəkət zamanı yaranan ürəkbulanma və narahatlıqdan əziyyət çəkən istifadəçilər üçün "Hearapy" adlı yeni, ödənişsiz tətbiqini təqdim edib. "Google Play" üzərindən "Android" cihazlara yüklənə bilən tətbiq yalnız səs texnologiyası vasitəsilə diskomfort hissini azaltmağı hədəfləyir.**

Tətbiqin işləmə prinsipi kifayət qədər sadədir. "Hearapy" qulaqlıq vasitəsilə təxminən 60 saniyə ərzində 100 Hz tezliyində xüsusi sinusvari səs dalğası yayır. Bu səs daxili qulaqda yerləşən və tarazlığa cavabdeh olan vestibulyar sistemi stimullaşdıraraq ürəkbulanmanı və başgicəllənməni azalda bilər. İstifadəçilər səsləndirmə müddətini 40-120 saniyə aralığında tənzimləyə bilirlər. 60 saniyəlik istifadə bəzi hallarda təsirin 2 saata qədər davam etməsinə səbəb olur.



Şirkətin açıqlamasına görə, texnologiya yaradılarkən Naqoya Universiteti alimlərinin apardığı araşdırmalardan ilham alınıb. Tədqiqatlar göstərir ki, müəyyən tezlikdə səslər hərəkətdə olan nəqliyyat vasitəsində, xüsusilə oxu zamanı yaranan narahatlıq və başgicəllənməni azalda bilər. Bununla belə, tətbiqin effektivliyi hər istifadəçidə eyni olmur. Nəticələr həm fərdi xüsusiyyətlərdən, həm də istifadə olunan qulaqlıqların keyfiyyətindən asılıdır.

"Samsung" daha yaxşı nəticə üçün 80-85 desibel səviyyəsində səs ötürə bilən qulaqlıqlardan istifadəni tövsiyə edir və xüsusilə "Galaxy Buds 4 Pro" modelini ön plana çıxarır.

# "CarPlay" sistemində yenilik

**"Apple" şirkəti iOS 26.4 yeniləməsi ilə "CarPlay" sistemində süni intellekt tətbiqlərinə dəstək əlavə edib. Bu yenilik sayəsində istifadəçilər artıq avtomobil idarə edərkən "ChatGPT" ilə yalnız səs vasitəsilə ünsiyyət qura biləcəklər.**



Yeni funksiyadan istifadə üçün "iPhone" cihazında iOS 26.4 və ya daha yeni versiyanın, həmçinin "ChatGPT" tətbiqinin son versiyasının quraşdırılması tələb olunur. "Apple CarPlay" üçün xüsusi "voice-driven conversational apps" kateqoriyası yaradılıb. Bu kateqoriyaya daxil olan tətbiqlər yalnız səs üzərindən işləyir və sürücünün diqqətini yayındırmamaq üçün ekranda mətn, şəkil və ya mürəkkəb menyular göstərilmir.

"ChatGPT"nin "CarPlay" versiyası veb variantla müqayisədə daha məhdud funksionallığa malikdir. Təhlükəsizlik səbəbindən "Apple" bu tip tətbiqlərə yalnız üç standart ekran şablonundan istifadə etməyə icazə verir. Bu yanaşma sürücünün diqqətinin yayındırılmasının qarşısını almağa yönəlib.

"CarPlay"də "ChatGPT" əsasən konkret tapşırıqlar üçün optimallaşdırılıb və uzun, açıq dialoqlar üçün nəzərdə tutulmayıb. Şirkətin sənədlərində vurğulanır ki, səs əsaslı süni intellekt tətbiqləri avtomobil idarəetməsi zamanı proqnozlaşdırıla bilən və təhlükəsiz şəkildə işləməlidir.

# "iPhone" smartfonlarının rəng strategiyası

**"Apple"ın bu ilin payızında təqdim etməsi gözlənilən "iPhone 18 Pro" modeli ilə bağlı maraqlı iddialar ortaya çıxıb. Məlumata görə, şirkət yeni modeldə klassik qara rəng variantını təqdim etməyə bilər. Artıq ikinci il olacaq ki, şirkət Pro seriyasında klassik qara rəngdən imtina edir. Analitiklər hesab edirlər ki, "Apple"ın qara rəngdən imtina etməsi şirkətin dizayn və marketinq strategiyasının dəyişməsi ilə bağlıdır. Şirkət son illərdə daha fərqli və diqqətçəkən rənglərə üstünlük verməyə başlayıb. Yeni modeldə tünd qırmızı və bənövşəyi rəng seçimlərinin təqdim edilə biləcəyi ehtimal olunur.**



Digər diqqətçəkən maraqlı məqam isə "Apple"ın ilk qatlana bilən telefonu "iPhone Fold" modelidir. Gözləntilərə görə, şirkət "iPhone 18" seriyası ilə birlikdə bu modeli də sentyabrda təqdim edəcək. "iPhone 18 Pro"nun satışa dərhal çıxarılması planlaşdırılsa da, qatlana bilən smartfonun satışları dekabr ayına qədər gecikə bilər.

# Robotaksilərdə texniki nasazlıq

**"Baidu" şirkətinə məxsus robotaksilərdə yaranan texniki nasazlıq nəticəsində sürücüsüz avtomobillərin bir qismi iri şəhərin küçələrində qəfil dayanaraq nəqliyyatda ciddi sıxlıqlar yaradıb. Məlumata görə, bəzi sərnişinlər avtomobillərin içində qalmalı olub, bir sıra robotaksilər isə magistral yollarda dayanaraq hərəkəti, demək olar ki, iflic vəziyyətinə salıb. Hətta ən azı bir yol-nəqliyyat hadisəsinin baş verdiyi bildirilir.**



Uhan polisinin açıqlamasına əsasən, sürücüsüz avtomobillərin yolun ortasında dayanması ilə bağlı çoxsaylı müraciətlər daxil olub. İlkin ehtimallara görə, problemin səbəbi proqram təminatında yaranmış texniki nasazlıqdır. Sevindirici haldır ki, hadisə zamanı xəsarət alan olmayıb.

Uhan şəhəri "Apollo Go" robotaksi xidmətinin əsas fəaliyyət mərkəzlərindən biridir və burada 500-dən artıq sürücüsüz nəqliyyat vasitəsi xidmət göstərir.

# Çinin Ay missiyası planı

**Çin 2030-cu ilə qədər Aya insan göndərməyi və sonrakı mərhələdə orada daimi baza qurmağı planlaşdırır. Bu plan reallaşarsa, Çin Aya enişdə ABŞ-ni qabaqlaya bilər.**

Hazırda ABŞ NASA-nın "Artemis" proqramı çərçivəsində Aya qayıdışa hazırlaşır. "Artemis II" missiyası Ay ətrafında uçuşu nəzərdə tutur və bu, gələcək eniş üçün vacib mərhələ hesab olunur. Planlara görə, insanlar 2028-ci ildə yenidən Ay səthinə enməlidir. Lakin texniki gecikmələr bu tarixin dəyişməsinə səbəb ola bilər.



Çinin planına əsasən, astronavtlar "Mengzhou" kosmik gəmisi ilə "Long March 10" raketi vasitəsilə orbitə göndəriləcək. Paralel olaraq digər raket "Lanyue" eniş modulunu daşıyacaq və bu iki aparat Ay orbitində birləşəcək. "Mengzhou" gəmisi aşağı Yer orbitinə 7, Ay missiyalarına isə təxminən 3 astronavt daşıya biləcək. Çin artıq layihə üzrə testlərə başlayıb və pilotsuz sınaq uçuşları həyata keçirilib.

Uzunmüddətli planlara həm Çin, həm də ABŞ tərəfindən Ayın cənub qütbündə baza qurulması daxildir. Bu marağın əsas səbəbi həmin ərazilərdə su buzlarının mövcudluğu ehtimalıdır. Bu resurs gələcəkdə raket yanacağı istehsalı üçün istifadə oluna bilər.

# "AirPods Max 2" təqdim edilib

**"Apple"ın yeni nəsil qulaqlığı "AirPods Max 2" rəsmi olaraq satışa çıxarılıb. Yeni model əvvəlki nəsillə müqayisədə bir sıra texniki yeniliklərlə təchiz olunub.**



Əsas yeniliklərdən biri daha güclü və optimallaşdırılmış H2 çipidir. Bu çip həm səs keyfiyyətini artırır, həm də aktiv səsboğma funksiyasının daha effektiv işləməsini təmin edir.

# "Freelander"in təqdimatı

**"Jaguar Land Rover" və "Chery" şirkətlərinin tərəfdaşlığı ilə yaradılan "Freelander" brendi rəsmi olaraq təqdim edilib. Yeni brend elektrik və hibrid SUV modelləri təklif edən müstəqil avtomobil markası kimi fəaliyyət göstərəcək.**

Bu addım "Jaguar Land Rover"in brend strategiyasında mühüm dəyişiklik kimi qiymətləndirilir. Belə ki, "Freelander" daha əlçatan seqmentə yönələcək, "Land Rover" və "Range Rover" isə premium mövqeyini daha da gücləndirəcək.

Yeni modellərin müasir dizayn, qabaqcıl sürücü yardım sistemləri və əlaqəli texnologiyalarla təchiz olunacağı gözlənilir. İlk modelin qoşula bilən hibrid (PHEV) olması ehtimal edilir.

"Freelander" brendinin ilk olaraq Çin bazarında təqdim olunacağı planlaşdırılır. Lakin gələcəkdə bu markanın Avropa da daxil olmaqla digər bazarlarda da yer alacağı gözlənilir.




*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Sənədli filmin ilk bölümü yayımlanıb

**Türk xalqlarının mənəvi dünyasını və tarixi vəhdətini özündə əks etdirən "TurkDiscovery YouTube" platforması maarifləndirici missiyasını "Yutub" üzərindən genişləndirir.**







Türk Mədəniyyəti və İrsi Fondundan AZƏRTAC-a bildirilib ki, platforma nəsillərarası körpü rolunu oynayaraq, türk ruhunun əbədi izlərini izləyicilərə təqdim edir.

Fondun maarifləndirici missiyası çərçivəsində ərsəyə gələn "Əbədiyyətin nişanələri: Türk dünyası rəmzlərdə" sənədli filminin ilk bölümü artıq yayımdadır. Layihənin əsas məqsədi türk dünyasının geniş coğrafiyasında yer alan petroqliflər, damğalar və runik əlifbalar vasitəsilə türk dünyasının ortaq tarixi yaddaşını vizuallaşdırmaqdır. Film minilliklərin nəfəsini qoruyub saxlayan müqəddəs məkanlardan və daşlara həkk olunmuş kimlik izlərindən bəhs edir.

"Əbədiyyətin nişanələri: Türk dünyası rəmzlərdə" sənədli filminin ilk bölümü Azərbaycanın Xəzər sahillərindən Qarabağ düzlərinə qədər uzanan geniş bir coğrafiyada türk izlərinin elmi və mədəni mənzərəsini canlandırır. Müxtəlif tarixi məkanlarda aparılan ekran əsəri türk xalqlarının ortaq "pasportu" sayılan tamğaların sirrini açır.

Filmdə türk tayfalarının (Kayılı, Əfşar, Səlcuq, Qıpçaq və s.) daş yaddaşına həkk olunmuş nişanələri kimi bir çox mühüm mövzu mütəxəssis rəyləri ilə izah olunur. Bu layihə Azərbaycan ərazisindəki qədim petroqliflərin, kurqanların və daş balbalların Altaydan Anadoluya qədər uzanan böyük türk dünyasının vahid mədəniyyət kodunun ayrılmaz tərkib hissəsi olduğunu sübut edir.

# Madaqaskarda dövlət çevrilişi və Prezidentə qarşı sui-qəsd cəhdinin qarşısı alınıb

**Madaqaskar hakimiyyəti 13 nəfəri keçid Prezidenti Mikael Randrianirinaya qarşı sui-qəsd və dövlət çevrilişi planlaşdırmaqda ittiham edib. Bu barədə prokuror Narindra Rakotoniaina məlumat verib. Onun "L'Express de Madagascar" qəzetinə bildirdiyinə görə, saxlanılanlar Prezidentə qarşı sui-qəsd və çoxdan planlaşdırılan dövlət çevrilişi cəhdlərində iştirak ediblər.**





Baş prokuror sui-qəsdin sübutu kimi qrup üzvləri arasında yazışmaları nümayiş etdirib. Təqsirləndirilən şəxslərin hesablarında 20 milyard Madaqaskar ariarisi (təxminən 4,8 milyon dollar) da tapılıb. Saxlanılanların bəzilərinin etiraf etdiyi kimi, bu pul cinayətkar planın həyata keçirilməsi üçün istifadə edilməli idi.

Adıçəkilən qəzet qeyd edir ki, Madaqaskar hakimiyyəti indiyə qədər cinayətkarlardan 11-ni saxlayıb və daha 2 nəfər hələ də axtarışdadır. Saxlanılanların evlərində axtarışlar zamanı müstəntiqlər xeyli miqdarda pul, eləcə də çoxsaylı silahlar aşkarlayaraq müsadirə ediblər. Şübhəlilər arasında dövlət çevrilişində iştirak etmək niyyətini açıq bəyan etmiş general da daxil olmaqla hərbçilər də var.

Madaqaskar hakimiyyəti polkovnik Patrik Rakotomamondjini cinayətkar əməliyyatın təşkilatçılarından biri adlandırıb. Qəzetin yazdığına görə, o, Madaqaskar Prezident Administrasiyasında çalışıb, lakin yanvar ayında vəzifəsindən azad edilib. Rakotomamondji sosial mediada hökuməti tənqid və sui-istifadə hallarında ittiham edən, silahlı qüvvələri məsuliyyəti öz üzərinə götürməyə çağıran yazılar paylaşıb.

Xatırladaq ki, ötən ilin sentyabr ayında Madaqaskarın keçmiş prezidenti Andri Rajoelina ölkə daxilində etirazlar fonunda hökumətin buraxıldığını elan edib. Ada ölkəsində sentyabrın 25-dən bəri elektrik və su kəsintiləri ilə bağlı kütləvi nümayişlər keçirilib və sonradan iğtişaşlara çevrilib. Daha sonra - oktyabrın 13-də Rajoelina Fransa hərbi təyyarəsi ilə ölkəni tərk edib. O, helikopterlə İl Sent-Mari adasına yollanıb və oradan guya Dubaya gedən Fransa hərbi təyyarəsinə minib.

Madaqaskar Milli Assambleyası Prezidentin impiçmentinə səs verib. İmpiçmentdən sonra hərbçilər hakimiyyəti ələ keçirdiklərini elan ediblər. Polkovnik Mikael Randrianirina yeni dövlət başçısı olub. 2025-ci il oktyabrın 17-də isə Ali Konstitusiya Məhkəməsi Mikael Randrianirinanın keçid dövrü üçün prezident kimi andını qəbul edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda növbəti dəfə beynəlxalq şahmat festivalı keçiriləcək

**Azərbaycan Şahmat Federasiyası (AŞF), Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Baku Open" beynəlxalq şahmat festivalı keçiriləcək.**




AŞF-dən AZƏRTAC-a bildirilib ki, festival A,B və C qrupları üzrə təşkil olunacaq. Hər üç qrupda yarış İsveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla keçiriləcək. Festival çərçivəsində eyni zamanda veteranlar arasında Azərbaycan çempionatı baş tutacaq.

"Baku Open" beynəlxalq şahmat festivalının ümumi mükafat fondu 50 000 ABŞ dolları təşkil edir. Bakı Kristal Zalında gerçəkləşəcək yarışın açılış mərasimi aprelin 28-də olacaq. Festivala mayın 6-da yekun vurulacaq.

# Qəhvəyi mərmər bağacığının yayılma riskinin azaldılması üçün qabaqlayıcı tədbirlər gücləndirilib

**Qəhvəyi mərmər bağacığının ölkə ərazisində yayılmasının qarşısının alınması istiqamətində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən fitosanitar nəzarət və maarifləndirmə tədbirləri ardıcıl şəkildə davam etdirilir.**



Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, zərərvericiyə qarşı həyata keçirilən mübarizə tədbirləri çərçivəsində Regional Əlaqələndirmə Mərkəzinin iclasında verilmiş tapşırıqlara uyğun olaraq, qış dövründə əlaqəli dövlət qurumlarının koordinasiyalı fəaliyyətinin təşkili təmin edilib.

Bu məqsədlə Balakən, Zaqatala və Qax rayonlarında zərərvericinin aşkar edildiyi kəndlər üzrə dövlət orqanları arasında funksional bölgü aparılıb. Hazırda bölgü əsasında həmin rayonlarda zərərvericinin qışlama yerlərində aparılan monitorinqlər yekunlaşmaq üzrədir. Bununla yanaşı, zərərvericinin müşahidə olunduğu respublikanın digər rayonlarında da analoji monitorinq tədbirləri davam etdirilir.

Aprelin ortalarına doğru havanın temperaturunun yüksəlməsi ilə əlaqədar olaraq qəhvəyi mərmər bağacığının qışlama yerlərini tərk edərək açıq sahələrə və kənd təsərrüfatı bitkilərinə keçməsi ehtimalı artır. Ona görə də zərərvericinin yayılma arealının operativ izlənilməsi və kütləvi çoxalmasının qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edir. Zərərvericinin yayılma ehtimalının daha yüksək olduğu ərazilərdə monitorinq və profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə agentlik tərəfindən 10 min ədəd feromon tələ alınıb. Mövsümə uyğun olaraq, həmin tələlərin respublika üzrə mərhələli şəkildə yerləşdirilməsi prosesinə başlanacaq.

Bununla yanaşı, əhalinin və fermerlərin məlumatlandırılması məqsədilə geniş maarifləndirmə kampaniyası həyata keçirilib. Kampaniya çərçivəsində maarifləndirici çap materialları hazırlanaraq paylanıb. Həmin materiallarda zərərvericinin tanınması, yayılma xüsusiyyətləri və ona qarşı mübarizə üsulları barədə ətraflı məlumat təqdim edilib.

"Görülən tədbirlərin əsas məqsədi qəhvəyi mərmər bağacığının ölkə ərazisində yayılmasının qarşısını almaq, kənd təsərrüfatı məhsullarının qorunmasını təmin etmək və fermerlərə dəyə biləcək iqtisadi zərərləri minimuma endirməkdir. Bu məqsədlə agentlik tərəfindən həyata keçirilən tədbirlər qarşıdakı dövrdə də davam etdiriləcək və vəziyyətə uyğun olaraq əlavə tədbirlər görüləcək", - deyə məlumatda bildirilir.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Hər zaman bir-birinin yanında
Prezident İlham Əliyev Türkiyənin Vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
Vahid məqsədə doğru
Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib
Məsud Pezeşkian İlham Əliyevə zəng edib
Təhlükəsizliyin və sabitliyin Azərbaycan nümunəsi
Global Terrorism Index 2026
Hərb tarixini şərəfləndirən Aprel döyüşləri
Bakının diktəsi, İrəvanın etirafları

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

*Gözdən üçüncü qrup əliləm. Bilmək istəyirəm: bələdiyyəyə (həyətyanı torpaq) əmlak vergisindən kimlər azaddır? Ümumiyyətlə, əlilliyi olan şəxslər üçün hansı vergi güzəştləri tətbiq olunur?*

***Fənarə QULİYEVA,***
***Ağsu rayonu***

Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 196-cı maddəsinə əsasən, fiziki şəxslərin mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri əmlak vergisinin vergitutma obyektini təşkil edir və həmin şəxslər bu verginin ödəyiciləri hesab olunurlar.

Torpaq vergisinə münasibətdə isə Vergi Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, torpaq vergisi torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır və torpaqdan əldə olunan gəlirdən asılı olmayaraq ödənilir. Eyni zamanda məcəllənin 205-ci maddəsinə uyğun olaraq, fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri torpaq vergisinin vergitutma obyektidir.

Vergi Məcəlləsinin 207.1-ci maddəsinə əsasən, yalnız müəyyən kateqoriyalara aid torpaqlar (o cümlədən yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının istifadəsində olan torpaqlar, meşə və su fondu torpaqları və s.) torpaq vergisinə cəlb edilmir.

Qüvvədə olan vergi qanunvericiliyinə əsasən, fiziki şəxslər, o cümlədən üçüncü qrup əlilliyi olan şəxslər üçün bələdiyyə mülkiyyətində olan həyətyanı torpaq sahələrinə görə torpaq vergisindən ümumi azadolma nəzərdə tutulmamışdır. Eyni qaydada əmlak vergisi üzrə də üçüncü qrup əlilliyi olan şəxslər üçün ümumi azadolma müəyyən edilməmişdir.

Bununla yanaşı, Vergi Məcəlləsinin 207.2-ci maddəsinə əsasən, bu məcəllənin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği 10 manat azaldılır.

Qeyd edək ki, bu güzəşt hüququ yalnız torpağın mülkiyyətçisinə şamil edilir. Torpaqdan istifadə edən şəxslərə və ya icarəyə götürülmüş sahələrə görə güzəşt tətbiq olunmur.

Vergi Məcəlləsinin 102.2.1-102.2.8-ci maddələrinə görə, güzəşt aşağıda adları sadalanan şəxslərə aiddir:

*- Şəhid statusu almış şəxslərin valideynlərinə, dul arvadlarına (ərlərinə) və övladlarına;*

*- Azərbaycan Respublikasının Vətən Müharibəsi qəhrəmanlarına;*

*- Azərbaycan Respublikasının Milli qəhrəmanlarına;*

*- Sovet İttifaqı və Sosialist Əməyi qəhrəmanlarına;*

*- Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə;*

*- Həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına (ərlərinə) və övladlarına;*

*- 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərə;*

*- Qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərə;*

*- Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərə.*

Əlavə edək ki, güzəşt hüququ olan şəxsin bir neçə bələdiyyədə torpaq sahəsi varsa, güzəşt 10 manat olaraq sahələrin ölçüsünə uyğun bölünür.

Əgər hesablanan vergi 10 manatdan az olarsa, güzəşt hüququ olan şəxs torpaq vergisi ödəmir.

Sualınızın ikinci hissəsinə gəldikdə bildiririk ki, Vergi Məcəlləsində əlilliyi olan şəxslər üçün əsasən gəlir vergisi üzrə müəyyən güzəştlər nəzərdə tutulmuşdur. Belə ki, məcəllənin 102.3-cü maddəsinə əsasən, orqanizmin funksiyalarının pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin muzdlu işdən əldə etdiyi aylıq gəlirin 200 manat məbləğində hissəsi gəlir vergisindən azad edilir. Həmçinin məcəllənin 102.2.4-cü maddəsinə əsasən, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün bu məbləğ 400 manat təşkil edir.

Eyni zamanda Vergi Məcəlləsinin 102.1.3.4-cü maddəsinə əsasən, müəyyən kateqoriyadan olan əlilliyi olan şəxslərin əldə etdiyi bəzi gəlirlər, o cümlədən maddi yardımların müəyyən hissəsi və borcların silinməsindən yaranan gəlirlər gəlir vergisindən azad edilir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Gözlənilən yağışların şəhərətrafı subasmaya meyilli olan ərazilərə təsir göstərəcəyi ehtimal olunur

**Milli Hidrometeorologiya Xidməti hava şəraitinin dəyişəcəyi ilə bağlı yenidən xəbərdarlıq yayıb.**




Xidmətdən AZƏRTAC-a verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında aprelin 4-ü səhərdən 6-sı gündüzədək arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində yağışın intensivləşəcəyi, 4-də gün ərzində isə qısa müddətə güclü olacağı, şimşək çaxacağı ehtimalı var. Gözlənilən intensiv və arabir güclənən yağışların şəhərətrafı subasmaya meyilli olan ərazilərə təsir göstərəcəyi ehtimal olunur.

Azərbaycanın rayonlarında aprelin 4-ü səhər qərb rayonlarından başlayaraq 7-si səhərədək hava şəraitinin fasilələrlə yağıntılı olacağı, bəzi yerlərdə yağıntıların intensiv, ayrı-ayrı şərq rayonlarında isə güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı gözlənilir.

Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından, xüsusən də Quba-Qusar bölgəsinin çaylarından qısamüddətli daşqın və sel keçəcəyi istisna olunmur.

Aprelin 4-7-də gözlənilən yağıntılı hava şəraitindən sonra 7-si gündüz və 8-də yağıntıda qısa fasilə yaranısa da, 9-u gündüzdən yenidən yağıntılı hava şəraiti müşahidə olunacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti

**RASİM BALAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Konstitusiya Məhkəməsinin hakimi Rauf Quliyevə atası

**RƏHİM QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**
Tiraj 3435
Sifariş 397
Qiyməti 60 qəpik